2 MANAT

№1 (33), 2007

100-il

ƏDƏBİ, FƏNNİ, SİYASİ, İCTİMAİ, MÜSƏVVƏR, HƏFTƏLİK
TÜRKCƏ MƏCMUƏYİ - İSLAMİYYƏDİR

Füyuzat

Həyat batini mənası ilə daimi
bir səadət və füyuzata meyildir!..
Sözümüzə diqqət edilsin:
"Həyat füyuzatdır" demirik.
"Həyat füyuzata meyildir"
deyirik!..

ƏLİ BƏY HÜSEYNZADƏ

Füyuzat

№1(33), 2007
(1906-1907)

TƏSİSÇİ
...Nİ, TARİXİ ARAŞDIRMALAR" FONDU

BAŞ REDAKTOR
...EYMUR ƏHMƏDOV

REDAKTOR
...ELÇİN BİLALOĞLU

MƏSUL KATİB
...MÜBARİZ YUNUSOV

...EDAKSİYA HEYƏTİ
...AĞA HACIBƏYLİ
...HANGİR MƏMMƏDOV
...CƏMİL QULİYEV
...ƏLİRZA QAFARLI
...FUAD QASIMZADƏ
...SMAİL ALLAHVERDİ
...QÜRBƏT GÜMÜŞOV
...MÜXTAR CƏFƏRLİ
...MƏMMƏD HÜSEYNOV
...TOFİQ KÖÇƏRLİ
...YUSİF RÜSTƏMOV

DİZAYNER
FƏXRİ VƏLİYEV

KORREKTOR
...SUĞRA OSMANOVA
RƏSSAM
ZAUR ORUCOV

E-POÇT
...FÜYUZAT2007@E-MAIL.RU

VÖEN 1300563641

TİRAJ 500

JURNAL AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNDƏ QEYDİYYATDAN KEÇMİŞDİR. QEYDİYYAT № 1303

* REDAKSİYA HEYƏTİ DAXİL OLAN MATERİALLARI LAZIM BİLDİYİ ŞƏKİLDƏ REDAKTƏ VƏ İXTİSAR ETMƏK HÜQUQUNA MALİKDİR
* DƏRC OLUNAN YAZILAR MÜƏLLİFLƏRİN MÖVQEYİNİ ƏKS ETDİRİR
* ƏLYAZMALAR GERİ QAYTARILMIR

ÜNVAN
BAKI şəh., AZ-1122,
H.ZƏRDABİ pr., 78

TELEFON
+994 12 433 22 97

"FÜYUZAT" JURNALINA ABUNƏ OLMAQ İSTƏYƏNLƏR ÜÇÜN:
3 AYLIQ - **6 AZN**
6 AYLIQ - **10 AZN**
12 AYLIQ - **18 AZN**
Məlumat üçün telefon: +99412 4332297

"NURLAR" NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİNDƏ ÇAP OLUNMUŞDUR

İçindəkilər

8

Ağa HACIBƏYLİ
MİLLƏT FƏDAİSİ

10

f.e.n. Ofeliya BAYRAMLI
MİLLİ MƏDƏNİYYƏTİMİZİN BÖYÜK ABİDƏSİ

18

Müsahibə
HƏR BİR AZƏRBAYCANLININ MÜQƏDDƏS BORCU

20

prof. Şahlar ƏSGƏROV
DÖVRÜN SƏCİYYƏSİ

28

Redaksiya
ANA

30

Muxtar CƏFƏRLİ
ALƏMLƏRƏ RƏHMƏT HƏZRƏTİ MUHƏMMƏD (S.A.V.)

BAŞ REDAKTORDAN / *prof. Teymur ƏHMƏDOV*	2
HƏYAT VƏ FÜYUZATA MEYİL / *Əli bəy HÜSEYNZADƏ*	4
VƏTƏN SEVGİSİ / *A.ƏLİOĞLU*	16
YENİ FÜYUZAT VƏ ƏNƏNƏLƏR / *Akademik Fuad QASIMZADƏ*	22
FÜYUZAT	32
DİNC, YANAŞI YAŞAMAĞIN BAŞLICA TƏHLÜKƏSİ TERRORİZM / *Aytən HACIYEVA*	34
YENİ NƏSİL / *Abdullah GƏNC*	38
MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİ QORUYAQ / *Qürbət GÜMÜŞOV*	40
TƏBRİK VƏ İZHARİ TƏŞƏKKÜR / *İbrahim Tahir MUSAYEV ŞUŞİ*	42
HEYRƏT, YAXUD BİR MƏLƏYİN İNSANLARA XİTABI / *Dəli şair*	43
AZƏRBAYCAN ADININ ANLAMI / *Prof. Firudin AĞASIOĞLU*	44
AZADLIQ CARÇILARI / *Saleh*	48
QİDA MƏHSULLARI – yaşamaq üçün vasitə, yoxsa həyat üçün təhlükə / *Babək TATLIYEV*	50
AZƏRBAYCAN MUĞAMLARININ QAYNAQLARI / *prof. R.MƏMMƏDOVA*	54
AMALİ TƏRƏQQİ / *Məhəmməd HADİ*	60
HƏQİQİ XƏZİNƏ / *Mübariz YUNUSOV*	68

16988

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

baş redaktordan

Professor TEYMUR ƏHMƏDOV



"Füyuzat" məcmuəsinin 100 yaşı tamam oldu. Türkiyədə təhsil alıb doğma vətənə böyük amalla qayıdan Əlibəy Hüseynzadə Bakıda milyonçu Hacı Zeynalabdin Tağıyevin maddi köməyi ilə "Həyat" qəzetini, sonra isə "Füyuzat" məcmuəsini nəşr etdi.

1906-cı il noyabrın 1-də "ədəbi, fənni, siyasi, ictimai, müsəvvər" həftəlik "Füyuzat"ın ilk nömrəsi işıq üzü gördü. Lakin Əlibəy Hüseynzadə ciddi müqavimətə, təzyiq və təqiblərə məruz qaldığı üçün ölkəni tərk etdi və 1907-ci il noyabrın 1-də məcmuə qapandı. "Füyuzat" mətbuat aləmində şimşək kimi çaxıb sönsə də cəhalət, gerilik və ətalət girdabında əzab çəkən insanları diksindirdi, onu anlayan da oldu, anlamayan da.

2007-ci ilin yanvar ayında oxuculara təqdim etdiyimiz "Füyuzat" jurnalının ilk nömrəsi 33-dən başlayır. 1906-1907-ci illərdə Əlibəy Hüseynzadənin baş mühərririyi ilə nəşr olunan "Füyuzat" məcmuəsi 32-ci nömrədən sonra yüz il keçmiş, demək olar ki, "unudulmuşdu".

Sovet hakimiyyəti illərində Əlibəy Hüseynzadənin ədəbi yaradıcılığının öyrənilməsinə qadağa qoyulmuşdu, "burjua ideoloqu" kimi onun zəngin irsinə, bəşəri ideyalarına kölgə salınmışdı. Azərbaycanda milli müstəqillik bərpa edildikdən sonra bütün varlığı ilə vurğunu olduğu doğma xalqı ilə ruhən qovuşdu. Onun böyük şəxsiyyətinə, əsərlərinə münasibət kökündən dəyişdi. "Milli irsi, mədəni, tarixi araşdırmalar" fondunun təsis etdiyi yeni "Füyuzat" jurnalı səhifələrində Əlibəy Hüseynzadənin tövsiyə etdiyi ideyalara istinadən tarixi keçmişimizi, milli soykökümüzü türk qövmünün mənşəyini araşdıran tədqiqatçıların əsərləri vaxtaşırı özünə yer tapacaqdır. Bununla yanaşı Azərbaycan xalqının əbədi müstəqil hakimiyyətə qədəm qoyduğu ilk illərdə elmin və milli mədəniyyətin yüksəlişinin aynası olacaqdır.

1905-ci il burjua demokratik inqilabı ictimai siyasi hadisələrin tez-tez dəyişdiyi Bakı mühitində gərginlik yaratmışdı. Yenicə formalaşmaqda olan Azərbaycan burjuaziyasını təmsil edən ziyalılar arasında milli əqidə birliyi, həmrəylik, təəssübkeşlik, vətən sevgisi yox dərəcəsində idi, Ticarət və Sənaye kapitalizminin yüksəlişi fonunda ayrı-ayrı dünyagörüşə malik zümrənin təşkilat və cəmiyyətlərdə toplaşması anlaşılmaz vəziyyət yaradır, siyasi gərginliyi artırırdı. Bakıda nəşr olunan külli miqdarda qəzet və məcmuələr öz siyasi istiqaməti ilə ictimai həyatın təzadlı mənzərəsini əks etdirirdi. Belə bir şəraitdə Əlibəy Hüseynzadə baş redaktorluq etdiyi "Həyat" qəzetində, eləcə də "Füyuzat" məcmuəsində Azərbaycan xalqına soykökünü tanıtmağa, onun milli mədəniyyətini, ədəbiyyatını və dilini inkişaf etdirməyə çalışırdı. Bakı dövrü fəaliyyətində son dərəcə faydalı işlər görən Əlibəy Hüseynzadə bəzən uğursuzluqla da üzləşirdi.

O bunun səbəbini etiraf edərək yazırdı: "Bir gün sokakda bir çocuq gördüm, topla oynayırdı. Topu yuxarı atdıqca top dönüb aşağı düşürdü. Fəqət topu əvvəl yerə vurduqca top əqibincə yüksəliyordu. Ədəbiyyatda da böylədir. Xalqa enmədikcə yüksəlməz! Əvvəla xalqa, köylüyə, əmələyə, vəlhasil böyük kütləyə qədər enməli, sonra bunlarla bərabər yüksəlməyə çalışmalıdır". (Bax: Abdulla Şaiq. xatirələrim. Gənclik. Bakı, 1973, səh. 202).

"Həyat" qəzeti və "Füyuzat" məcmuəsi Əlibəy Hüseynzadə yaradıcılığının dönüş mərhələsi olmuşdur. Turançılıq və türkçülük məfkurəsi üçün tribuna olan hər iki mətbuat çarizmə, istibdada və milli əsarətə qarşı mübarizə aparırdı. Xalqların milli şüurunu "türkləşmək, islamlaşmaq, avropalaşmaq" istiqamətinə yönəltmək, milli özünüdərk səviyyəsinə çatdırmaq onun idealına çevrilmişdi.

Əlibəy Hüseynzadə "Füyuzat" məcmuəsi ətrafına ədəbi siyasi qüvvələri toplamaqla turançılıq-siyasi, ədəbi ictimai cərəyanın əsasını qoymuşdu. Əlibəy Hüseynzadə türkçülük ideologiyasının nəzəri prinsiplərinin yaradıcısı kimi milli tərəqqi məramını "Füyuzat" məcmuəsi səhifələrində geniş şərh edirdi. "Onun yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredosu Azadlıq, milli tərəqqi naminə birliyə çağırmaq" idi (Əziz Mirəhmədov).

"Füyuzat" məcmuəsi dünya mədəniyyəti ilə yaxından tanış olmağı, öyrənməyi tövsiyə etsə də türk xalqlarının tarixinin ədəbi, mədəni xəzinəsini daha dərindən öyrənməyi təbliğ edirdi. Əlibəy Hüseynzadə yazırdı: "Türkdə, türklükdə, türk qövmünün fitrətində bir əsəri-düha, bir istedadi-fövqəladə vardır: meydan müsaid, məkan və zaman müvafiq olduqca, o istedad, elm və hünər aləmində ətrafa bədiələr saçar, xarüqələr yağdırar: O düha cahangirlik asimanında yıldırımlar kimi bərq vurar, Teymurləng kibi atəşparələr nisar edər, o ataşi-zəka elm və fənn çəmənlərində şükufələrə, meyvələrə təhəvvül edər, Uluq bəy kibi nəxli-məalilər yetişdirər, o şövqi-məali hikmət və fəlsəfə bəhrində mövczəni əmaq olur, sahili bəşəriyyətə Farabi kibi dürdanələr atar, o əbri-tüluat övci-balayimənayə doğru süud edib, orada Mövlana Cəlaləddin Rumi, Əlşir Nəvai, Muhəmməd Füzuli, Kamal, Hamid şəklində təcəssüm eylər, meydani süxənə əbri-neysan kibi dürərbar və gövhərriz olur".

"Füyuzat" məcmuəsində Əlibəy Hüseynzadə kök salmış, məhdud ədəbi fikri çərçivələri dağıdaraq milli azadlıq və istiqlal ideyalarını yeni ədəbi lövhələrdə təbliğ etmişdir.

"Füyuzat" məcmuəsində iştirak edən yazıçılar öz əsərləri ilə Əlibəy Hüseynzadənin yeni müasir ədəbi istiqamətinin bərqərar edib zənginləşdirmiş, romantizm ədəbi məktəbinin yaranmasına öz töhfələrini vermişlər. Tanınmış ədəbiyyatşünas, alim, Əlibəy Hüseynzadə irsinin araşdırıcısı O.Bayramlı yazır: "... "Molla Nəsrəddin" realistlərin məfkurə, sənət dünyasının təşəkkülündə hansı işi görmüşdüsə, "Füyuzat"da, Ə.Hüseynzadə də Azərbaycan romantizminin M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət və S.Səlmasi kimi qüdrətli sənətkarlarının yetişməsində eyni müstəsna əvəzsiz bir xidmət göstərmişdi".

XX əsrin başlanğıcında Azərbaycan ədəbi, siyasi və fəlsəfi aləmində milli özünüdərk və istiqlal düşüncələrini ortaya qoyan "Füyuzat" məcmuəsinin nəşrindən yüz il keçsə də bu gün də öz aktuallığını saxlayır. Onun tədqiqatçılarımız tərəfindən öyrənilməsi Azərbaycan ictimai fikir tarixi üçün son dərəcə böyük əhəmiyyət kəsb edir.

Əlibəy Hüseynzadənin baş redaktorluğu ilə nəşr olunan "Füyuzat" məcmuəsinin 100 illiyi yubileyində onun davamı kimi 2007-ci ilin yanvar ayında "Füyuzat" ədəbi, ictimai-siyasi, ədəbi-bədii və fəlsəfi jurnalının oxuculara təqdimini iftixar hissi ilə qeyd edir, onun uzun ömürlü olmasında əliqələmli, fikri işıqlı, qəlbi milli müstəqilliyimizin möhkəmlənməsi, xalqımızın məsud, vətənimizin gündən-günə çiçəklənməsi qəhrini çəkən, qeyrətli ziyalılara güvənirik.



Həyat və Füyuzata meyil

ƏLİ BƏY HÜSEYNZADƏ, 1906

Jurnalımıza "Füyuzat" adı təsadüfən verilməmişdir. Bu ad həyatdan təbii olaraq meydana gəlmişdir. Həyatın mənası, yəni həqiqi mənası nədir?

"Həyat" qəzetinin birinci nömrəsində "Qəzetimizin məsləyi" ünvanlı bir məqalə vardır. O məqalədə belə mütaliə etmişdik.

"Məsləyimiz, qəzetimizin adından da bəlli olduğu kimi həyatın həqiqi mənasına xidmətdir. Həyat isə mənəvi, fikri və maddi olaraq daimi bir hərəkət və fəaliyyətdən, cismani və ruhani bir inkişaf və tərəqqidən bizi kamillik dövrünə yaxınlaşdıran mütamadi bir inkişafdan ibarətdir".

"...Digər tərəfdən məlumdur ki, dünya və həyat bir hünər meydanıdır. Bütün canlı varlıqlar daima bir-birləri ilə rəqabət və təbiətləri etibarı ilə mübarizədədirlər. Elə qəzetimizin də əsl vəzifəsi bu istiqamətdədir".

Bu sözlərə yaxşı diqqət edilərsə, görülər ki, burada həyat müəyyən dərəcədə tərif edilmiş, lakin həyatın həqiqi mənası nədir? – sualı cavabsız qalmışdır. Hərəkət, fəaliyyət, rəqabət, mübarizə nə üçündür? İnkişaf və tərəqqi, mənəvi kamillik dövrü nəyə lazımdır? Həyatın həqiqi mənası nədir?.. Bir çox filosof və ədiblər bu barədə zehinlərini yormuşlar. Bizə qalsa, həyatın həqiqi mənası füyuzata (feyzlərə) meyildir.

"Füyuzat" lüğətdə "feyz" sözünün cəminin cəmi olub, rifah, bərəkət, bolluq, maddi və mənəvi nemətlərin bolluğuna, tərəqqi və kamilliyin təcəlli etməsinə sübutdursa da, lakin əsl məfhumu səadət və xususi ilə də mənəvi səadətdir. Həqiqi zövq və səfalardan ibarət mənəvi bir səadətdir.

Həyat isə batini mənası ilə daimi bir səadətə və füyuzata meyildir!..

Sözümüzə diqqət edilsin: "Həyat füyuzatdır" demirik. "Həyat füyuzata meyildir" deyirik!..

Digər bir ifadə ilə, həyat vicdani feyzlərə meyil arzusudur. Həyatın xüsusiyyətlərindən olan bütün cəhd və mübarizələrimiz bu mənəvi şövqə təşviq ilə meydana gəlməkdədir. Bir fərddə, bir camaatda, bir millətdə, bütün bəşəriyyətdə füyuzat şövqü yoxdursa, o fərd, o camaat, o millət, umumiyyətlə bütün bəşəriyyət ölü sayılmalıdır. Hərəkət və fəaliyyət göstərsə belə, ölü sayılmalıdır. Çünki bir meyitin, ölü bir bədənin çürüyüb su, torpaq və havaya çevrilməsi belə, bir növ hərəkət və fəaliyyətdir. Həyatın kamillik dərəcəsi şövq və arzunun şiddəti ilə, nailiyyəti isə arzu olunan vicdani feyzlərin ülviyyət, saflıq və davamlığı ilə ölçülə bilinir... Şübhə yoxdur ki, hər bir canlı varlıq füyuzatı bir cür anlayır. Ola bilər ki, ac gözün biri füyuzatı gözəl və bol-bol yeyib içməkdə görər və ya dünyapərəstin biri isə xanəndə və sazəndələr arasında, bağ və bağça içində tam səhhət və afiyyətlə uzun müddət yaşamaqda görər. Lakin o bağçanın, o səfaxanənin qapısı qarşısında yığılan bir dəstə ac və çılpaq məsələn, Zəngəzur zərərçəkənlərinin, didərginlərinin ahu-fəqanlarından vicdanınız əzab çəkməzmi?.. Əzab çəkən bir vicdanla bağ və bağçanın nə səfası ola bilər?.. Yeyilən yemək asanlıqla həzm olunarmı? Həyatın kamilliyi üçün arzu olunan vicdani feyzlərin davamlılığı şərtdir, dedik. Bunu izah edək: Bir fəqir mömin vicdanın paklığı və saflığı sayəsində ölümdən sonra əbədi olacağından əmindir.

Bir zəngin allahsız ya ölümdən sonra feyzlərə çatacağından əmin deyildir ya da, belə bir əbədi həyat səadətinin varlığına əsla inanmır. Görəsən bu iki həyatdan hansı mükəmməldir?.. Şübhə yoxdur ki, birinci həyat, çünki vicdanları bu aləmdə saf və pak olanlar müvəqqəti feyzlərlə deyil, əbədi feyzlər şövqi ilə yaşayırlar... Elə əsl ülviyyət və saflıq da bu əbədi feyzdədir. Budur, cahanşümul çevrilişlərdə əksərən görüb heyran olduğumuz bütün o əzəmətli qəhramanlıqlar və o ülvi fədakarlıqlar ancaq belə əbədi feyzlər şövqünün səbəbi ilə ortaya çıxmaqdadır...

Bər xast ze səhraye ədəm gənce məani
Çün bəhri vücudi-əzəli mövc fəşan şod...

* Əzəli varlıq dənizi coşub dalğalandığı üçün yoxluq səhrasından mənalar xəzinəsi ortaya çıxdı...

O vücudi-əzəli ki, ona xitabən Feyziyi-hindi:

Ey həme dər pərde ninan raze to
Bi xəbər ağaz ze ağaze to
Ey həddi-hüsnü to be didar nə
Vey be təcəlliyi to, təkrar nə
Hüsn yekist, cilvə berun əz şomar
Bəhr yekst, mövc həzaran həzar

* O əzəli varlıq olan Allaha Feyzi - hindi xitab edərək:

Ey hamı sənin başlanğıcından xəbərsiz bir başlanğıcda sirrinin pərdəsi arxasında gizli olan

Ey həddi-hüsnünü, gözəlliyini görmək mümkün olmayan və ey təcəllisinin təkrarı olmayan

Gözəllik birdir, ondan çıxan cilvələr isə saysız-hesabsız,

Dəniz də birdir, amma dalğaları minlərlədir.

– deyə münacat edir.

Onun haqqında heyrətindən böyük çaşqınlıq içində qalan digər bir şair deyir:

Ya kordur, ya məstdir, ya divanə

Xeyr, xeyr! Görən ancaq odur, agah olan ancaq odur, hakimi-mütləq ancaq odur!

Alimi cüz – u – kull, vaqifi elm – u – əməl

Hakimi rədd – u – qəbul, sahibi mən – u – əta

Ancaq odur!...

Mən istərdimki, elə bir sehr və ya əfsun olsun ki, onun qüvvəsi ilə bütün millətimizi birdən-birə bütün vicdani feyzlərə çatdırmaq mümkün olsun. Təəssüf ki, nə elə bir sehr və əfsun vardır, nə də feyzlərə birdən-birə nail olmaq bəşərin iqtidarı daxilindədir. Lakin insanların tədricən dünya və axirətdə feyzlərə nail ola bilmələri üçün əlimizdə imkanlar vardır.

Bu imkanların əsaslarından biri söyləyib bildirməkdən, kəlam ilə anlayış hasil etdirməkdən və bu şəkildə fikri və zehni aydınlatmaq, ruh və qəlbi həyacanlandırmaq və coşdurmaqdan ibarətdir.

Zehin və ağıl məntiq gücü ilə aydınlanır, qəlb isə xəyal, təsvir və ahəng ilə həyəcanlanır, coşur. Birinci yolu tutan və zəka ilə hasil olan kəlamların məcmusuna elm, ikinci yol ilə gedən və zəkadan da artıq ilham ilə meydana gələn sözlərə şeir və ədəbiyyat deyilir...

Bəşəriyyət əsasən zehin aydınlığı və qəlb coşması ilə tərəqqi və kamilləşib irəliləməkdə və ancaq bu iki yol ilə feyzlərə nail olmaqdadır.

Kəlamların ən mükəmməlləri vəhy ilə nazil olan Zəbur, Tövrat, İncil və xususi ilə də Qurani-Kərim kimi dörd səmavi kitab ilə Zərdüştün, Konfuçeonun və Budda Şakyamuninin ilham və xariqüladə zəkası sayəsində meydana gətirib özlərindən sonrakılar üçün qoyduqları əsərlərdən ibarətdir. Ancaq bu əsərlər ibrani, ərəbi, zənd (fars dilinin bir ləhcəsi) sanskrit və çin dillərində olub, bunlardan lazımi şəkildə istifadə etməyimiz alimlərimizin və bir maarif komissiyasının səy və cəhdinə bağlıdır... Dahi ingilis şairlərindən olan məşhur Milton məna aləmində parıldayan bir mənəvi nur mənbəyini vəsf edərkən deyir ki, mələklər o məqama yaxınlaşdıqları zaman gözləri qamaşdığından qanadlarını gözlərinin önünə sipər edərlər...

Bizim də hələ gözlərimiz zəif, ağıllarımız aciz, qəlblərimiz də cilasız olduğu üçün yuxarıda qeyd olunan o nur saçan mənbələrdən birdən-birə feyziyab ola bilmərik. O qədər iddialı olmağa cürət edə bilmərik... O yüksəkliklərə qalxmaq üçün özümüzün dəlilə ehtiyacımız vardır. Təəssüf ki, bu gün pay dəlili məra illəti irqun-nisa (kiçik dəlillərlə kifayətlənməyimizi) deyə bilərik. Buna görə də özümüzün içimizə və cəmiyyətimizin idrakına görə əksərən mənəvi nəsim küləyinin aşağı təbəqələrində gəzib dolaşacağıq. Bu aşağı təbəqələr bugünki mədəniyyətin başlanğıcından, elm və incəsənətin hazırki tərəqqisi ilə müxtəlif millətlərin şeir, ədəbiyyat və gözəl sənətlərdən ibarətdir. "Füyuzat" jurnalının əsl mücahidə meydanı bu təbəqələrdə olacaqdır. Bu vasitələrlə elmi məlumatlarımızı gücləndirmə, adət və əxlaqımıza sahib çıxmaq, şeir və ədəbiyyatımızı saflaşdırıb, dilimizi, türkcəmizi islah edə biləcəyik. Belə olduqda yer kürəsini öküzün buynuzundan bəşəriyyəti qanlı müharibələrin atəşfəşan ağzından, milləti diktaturanın zülm pəncəsindən, hər bir fərdi təkəbbür və cəhalətin əsarət kəməndindən xilas etmək olar.

Osmanlı türklərinin yeni ədəbiyyatı müstəsna, İran və sair türklərin şeir və ədəbiyyatları tilsimə düşmüş kimi bir nöqtədə donub qalmışdır. Şairlik təbi güldən, bülbüldən, mey və məhbubdan ayrıla bilmirdi. Bəzi rəhbərlərimiz buna çarə tapmaq istədilər, lakin şairlərimizi daha doğru olmayan yola sövq etdilər. Bunlara dedilər ki: canım, bülbüldən, məhbubdan əl çəkin, bir az da elm və maarifə, sənətə, məktəbə təriflər yazın, xalqı elmə, sənətə təşviq edin. Biçarə şairlərdə məktəbin, elm və sənətin xidmətçisi olmaya başlayıb, şeirin səviyyəsini tamamilə aşağı saldılar... Bilmirəm ki, rəhbərlərimiz nə üçün rəssamlara, heykəltaraşlara, musiqi bəstəkarlarına bu tövsiyəni etmirlər. Görünür ki, aramızda bu nəfəsətpərvanə dəstəyə rast gəlmədilər, çünki rast gəlsəydilər, bunların da hünərlərini məhvə sürükləyəcəkləri şübhəsiz idi!.. Canım! Nəqqaşa və ya rəssama demək olarmı ki, "nə üçün bir dağlıq yerin, bir meşənin ya dərya üzərində olan günəşin batmasının mənzərəsi ilə məşğul olursan? Bizə çoxlu məktəb rəsmləri ver, camaatımızı elm və maarifə təşviq et!.. Şairliyin, rəssamlığın hünər meydanı ayrıdır... Ədiblərin, şairlərin borcu bir tərəfdən dilimizi fəsahət və bəlağətlə, üslub cəhətindən islah və bəzəmə, digər tərəfdən də ruhumuzu gözəl təsvirlər və həyəcanlandırıcı, coşdurucu xəyallarla yüksək yerlərə, yamaclara sövq etməkdir.

Həqiqi şair, həqiqi rəssam ancaq bizim rəhbərlərimizə bu sözlərlə cavab verməlidirlər:

İki aləm yarın işığının gözəlliyi ilədir
Mənim mömin və kafir ilə nə işim var.

> Misir qədim dilində (əlif) Allah deməkdir. Misir əhalisi ilahlığın bir öküzə keçdiyinə inandıqlarından heroqlif xəttində məbud fikrini bir öküz başı şəklində ifadə edərdilər. Avropalıların (a) hərfi bu şəkildən düzəlmişdir. Zaman keçdikcə bu şəkildən bir buynuz qalıb, bizim (əlif) olmuşdur. Yer öküzün buynuzu, yaxud özü üzərində durur deməkdən məqsəd yer kürəsinin ilahi hikmətlə asılı olduğunu anlatmaq idi.

Bu məqalə "Füyuzat" jurnalının ilk nömrəsindən götürülüb, sadələşdirilmişdir.

FƏDAKAR XALQIN FƏDAKAR ÖVLADLARINDAN SADƏCƏ BİRİ...

Millət fədaisi

AĞA HACIBƏYLİ

Oxuduğunuz bu məqalə sizə millətimizin bir qəhrəmanından bəhs edəcəkdir. O, Hacı Zeynalabdin Tağıyevdir.

Hər kəsin bir ömür payı vardır. Kimi özü üçün, kimi nəsli, kimi milləti, kimi də bütün insanlıq üçün yaşayır. Haqqında söz açmaq istədiyimiz xeyriyyəçi mesenat, millət atası – Hacı məhz həyatını Allah naminə xalqına vermiş nümunəvi şəxsdir. Var-dövlətin əmanət olduğunu, imtahan üçün verildiyini dərk etmiş bir şəxsdir. Dünyanın axirətin tarlası olduğuna inanmışdır. Yer üzünün ilahi süfrə olaraq bəşərə açıldığına etiqad etmişdir. Hacı milli mətbuatımızın təşəkkül tapmasına dəstək verərkən xalqımızın maariflənməsini, yeni nəsillərin elmli və əxlaqlı olmasını prinsipial və əvəz edilməz hədəf kimi qəbul etmişdir. Bu milyonçu xeyriyyəçi xərclədiyi pulları halal qazanmış və halal yolda xərcləmişdir. Var-dövlət bəzən can qədər şirin olur. Varını verməyi bacaran canını da o yolda verməyi bacarar. Bu şüurun formalaşmasında əhəmiyyətli rolu inam oynayır. Həqiqətən də Allaha inanan adam axirət həyatını dünyada qazanır. Dünyasını qazanmayan axirətini də qazana bilməz. Hacı "Bir millətin böyüyü həmdə o millətin xidmətçisidir" prinsipi ilə yaşayan bir şəxs idi. Zəmanəsinin nəhəng fikir adamlarını dinləyən millət atası mövcud situasiyanı, qarışıq ictimai, siyasi və sosial sahələri böyük həssaslıqla izləyirdi. Böyük Zeynalabdin milli məfkurəni, dini dəyərləri, müasirliyi dərindən qiymətləndirməyi bacarırdı. İşi təkcə maarifləndirməklə məhdudlaşmadı. Şəxsi hesabına tikdirdiyi məktəb ölkəmizdə cəhalətin kökünü baltaladı. Dinimizi cahilcəsinə yaşayan yüzlərlə fanatiklərlə mücadilə edirdi. Şiddətli görüş ayrılığına malik maarifsiz dindarlar Hacımıza xeyli mane oldular. Amma bu sxolastik düşüncənin ömrü çox qısa oldu. Problemin ikinci böyük hissəsi Çar Rusiyasının xalqımızın köləlikdə qalmasını istəməsi idi. Hacı bütün çətinliklərə, sədlərə sinə gərdi. Daxili cəhalətə və xarici düşmənlərə zamanı qabaqlayan cavablar verdi. Millətinin tarixini, dinini, gələcəyini görən Tağıyev bir çox ziyalı tərəfindən də dəstəkləndi. Sözü ilə əməli vəhdət təşkil edən, ibadətlərində qüsur etməyən Hacı Zeynalabdin bəlkə də bu böyüklərdən daha böyük İmam Zeynalabdinin məktəbindən qidalanan zatlardan idi. Bu ad (Abidlərin zinəti) mənasını verir. Bir əsr öncə sadəcə fədakar bir Hacı milyonların dirçəlməsinə səbəb oldu. O, acları yedizdirən, miskinləri geyindirən, millətinin dərdinə yanan bir millət atası idi. Günümüzdə hacıların sayi hər il artmaqdadır. Aralarında xeyli ilahi əmanətləri daşıyanlar da var. Hacı var ailə hacısıdır. Hacı var kəndinin, hacı var şəhərinin, hacı da var millətinin hacısıdır. Zeynalabdin Tağıyevin millətimizin hacısı olması bir çox yönləri ilə isbat oluna bilər. Onlardan biridə əsirlərə xitab edən "Füyuzat" jurnalına maliyyə dəstəyi verməsidir. Ruhun şad olsun, qəbrin nurla dolsun Hacı.

Kasıb ailənin milyonçusu "Bu gecə də acıq" ifadəsini ömür boyu heç unutmadı. Zənginlik dövrünün heç bir anı Onu millətə xidmətdən döndərmədi. Pulu şirkətlərdə, müəssisələrdə əlavə qazanc gətirərkən, Özü də xeyriyyəçiliyin fərqli istiqamətlərini aktivləşdirirdi. Bakıya su çəkdirməkdən yol çəkdirməyə, elmi, təhsili inkişaf etdirməkdən mətbuata qədər bir sözlə millətinin əlindən tutaraq hər cür çətinliklərə dözmüş, bütün qəlbi ilə xalqını sevmişdir. Digər xarakterik məziyyətlərindən biri də millət qeyrəti ilə din qeyrətini birləşdirməsidir. Hacının təfəkküründə dağıtmaq, kəsmək, qırmaq deyil, tikmək, qurmaq, birləşdirmək və insanlığı sevmək hakim idi.

> *Çoxunun özü üçün yaşadığı ömür payını o, milləti üçün yaşadı.*

Müasir tədqiqatçılarımızın Hacı barədə axtarışları oxucuları hər dəfə olduğu kimi heyran edir. Hacımızı təkcə Məkkə hacısı kimi tanımırıq. Onu millətimizin könlünü fəth edən, əsirlərə xidmət möhürünü vuran Millət Fədaisi olaraq tanıyırıq. Bu müqəddəs ənənələri davam etdirməyi Allah hər bir azərbaycanlıya nəsib etsin. Hacı haqda qüsurlu yazıya görə ruhu məni əfv etsin.

OFELİYA BAYRAMLI
filologiya elmləri namizədi

MİLLİ MƏDƏNİYYƏTİMİZİN BÖYÜK ABİDƏSİ

Ədəbiyyatşünas alim Ofelya xanım Bayramlının XX əsrin qüdrətli ictimai fikir bahadırı Əlibəy Hüseynzadə irsi barədə vəfatından bir neçə gün əvvəl redaksiyamıza göndərdiyi elmi mülahizələrini oxuculara təqdim edirik. Mərhum Ofelya xanım Əlibəy Hüseynzadənin zəngin irsinin əvəzolunmaz fədakar tədqiqatçı olmuşdur. Onun elmi araşdırmalarından göründüyü kimi 1906-1907-ci illərdə, cəmi 32 nömrəsi çıxan "Füyuzat" XX əsrin mürəkkəb ictimai-siyasi, ədəbi-mədəni hadisələrinə yeni münasibət oyatdı, eyni zamanda Əlibəy Hüseynzadənin bir mütəfəkkir ziyalı kimi dünyagörüşünün, ideya istiqamətinin məhək daşı oldu.

Görkəmli ədəbiyyatşünas alim Əziz Mirəhmədov təsadüfi deməmişdir ki, "XX əsr ədəbiyyatımızı nəinki "Molla Nəsrəddin"siz, habelə "Füyuzat"sız təsəvvür etmək çətindir".

Ötən yüz il ərzində arxivlərdə, kitabxana rəflərində, mətbuat həvəskarları kolleksiyalarında "Füyuzat"ın pərakəndə halda qalmış tək bir kif basmış nüsxələrini yığıb 492 səhifəlik toplu-kitab halında nəşr etmək böyük vətənpərvərlik idi.

"Füyuzat"ı ərəb əlifbasından latın əlifbasına köçürən, ağır fiziki və əqli əmək tələb edən işi səbr və inadla yerinə yetirən Ofelya xanım Bayramlı transliterasiya və tərtibi yerinə yetirərkən mətnşünaslıq elminin prinsiplərinə əsaslanmış, milli mənəvi xəzinəmizə ölməz abidə bəxş etmişdir.

Mövqeyi, ideya istiqaməti və digər spesifik cəhətləri ilə seçilən məcmuəyə yeni həyat verməkdə tədqiqatçı alimin başlıca məqsədi öz sözləri ilə desək, "Əlibəy Hüseynzadənin "Füyuzat"la ortaya qoyduğu ədəbi, siyasi hərəkatın bütöv panoramını canlandırmaq və müasir nəsillərə çatdırmaq" olmuşdur. Bu möhtəşəm toplu-kitab xalqımızın keçmişini, milli oyanışını, tarixi kökünü, ədəbi-mədəni qaynaqlarını daha ətraflı, dərindən təhlil etməyə və yeni-yeni dəyərli əsərlərin yaranmasına imkan verəcəkdir.

"Əmin olduğumu bildirmək istəyirəm ki, ...türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha da geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar.

...Xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün ...mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, böyük tariximizlə fəxr edə bilərik".

HEYDƏR ƏLİYEV

"Füyuzat" Ə.Hüseynzadənin baş redaktorluğu və H.Z.Tağıyevin maddi köməyilə 1906-cı ilin noyabrından 1907-ci il noyabrın 1-dək Bakıda nəşr olunan həftəlik, ictimai, siyasi, ədəbi, elmi islami məcmuədir.

Bunu, o zaman məcmuə hələ işıq üzü görməmişdən əvvəl "Həyat" qəzetinin 1906-cı il sentyabr ayının son nömrəsində elanda yazılmış: "məcmuənin səhifələri qüdrətli, ədəbi qələm sahibi olan cəmi hürriyyətpərvər mühərrirlərə açıq bulunacaqdır" sözləri də təsdiq edir. "Füyuzat"ın ətrafına toplanan ziyalılar Ə.Hüseynzadənin "ideyalarına işıq tutan" Azərbaycanın və türk dünyasının bir çox şair və ədibləri (Məhəmməd Hadi, Hüseyn Cavid, Axund Yusif Talıbzadə, M.Ə.Rəsulzadə, Abdulla Şaiq, Abdulla Sur, H.B.Zərdabi, X.Z.Üşşaqizadə, İ.T.Musayev, Ə.Həsənzadə, Əhməd Kamal, Əhməd Raiq, Abdulla Cövdət, H.S.Ayvazov, Rəcaizadə Mahmud Əkrəm, Abbas Səhhət, Tofiq Fikrət, Səid Səlmasi və b.) idi. Bu müəlliflər içərisində Ə.Hüseynzadə ilə yanaşı duran, məsləkcə ona ən yaxın, ən doğma olan sənətkar Məhəmməd Hadi idi.

Bir illik nəşri dövründə Azərbaycan və türk xalqlarının milli əsarətə qarşı mübarizə tarixinin siyasi və bədii salnaməsinə çevrilən bu məcmuə "İslam aləmində misli görünməmiş" (Abdulla Şaiq) ən möhtəşəm mətbuat orqanı kimi böyük şöhrət qazanmışdır. "Füyuzat" dərgisi bircə il yayınlanmasına rəğmən 25 il yayınlanmış olan "Molla Nəsrəddin" dərgisindən az iş görməmiş, az yarar verməmiş, az sevilməmiş, az ünlü olmamışdır".

Ə.Hüseynzadənin yaradıcılığının yeni və ən məhsuldar dövrü Bakıda redaktoru olduğu "Həyat" qəzeti və "Füyuzat" məcmuəsilə bağlı olmuşdur. Ədibin turançılıq, türkçülük məramlarının ifadəsi hər iki mətbuat orqanının səhifələrində öz əksini tapmışdır. Lakin tədqiqatçılar, 1905-1910-cu illər arasında Ə.Hüseynzadə ilə Bakıda yeni yaranan ictimai, siyasi və ədəbi hərəkatı onun ilk redaktoru olduğu "Həyat" qəzetinin üzərindən keçərək, "Əli bəy və Füyuzat dövrü" adlandırmışlar. Halbuki, Ə.Hüseynzadə o zaman çarizmin milli əsarətinə qarşı turançılıq məfkurəsilə mübarizəni "Həyat"dan başlamışdır. Azəri türklərinin milli istiqlal bəyannaməsini ilk dəfə bu qəzetin səhifələrində elan etmişdir. "Biz qafqazlıyız-Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediriz". İlk dəfə bu qəzetdə dərc etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir" silsilə məqalələrilə türk xalqlarının ictimai, siyasi fikir tarixinə milliözünüdərk məramını gətirərək, onların "müsəlman", "osmanlı", "tatar" adlarına etiraz etmiş, bu millətin "türk" adını təsdiq etmişdir.

İlk dəfə "Həyat"la Azərbaycanda milli dövlətçiliyin dərki mərhələsi açılmışdır.

İlk dəfə "Həyat" qəzeti ilə Ə.Hüseynzadə "Mən türkəm, qafqazlı bir türkəm, türk bir müsəlmanam, müsəlman bir insanam. Bu dörd sifətlə dünyaya gəldim, bu dörd sifətlə də yaşamaq məcburiyyətindəyəm" – məramı ilə azəri türklərinin milli düşüncə tarixinə "millət" anlayışını gətirərək, azərbaycançılıq ideologiyasının binasını qoymuşdur.

İlk dəfə rus və erməni şovinizminin əsl mahiyyətinin doğru, düzgün ifşası bu qəzetlə, Ə.Hüseynzadə qələmilə mətbuata çıxarılmışdır.

Lakin bununla belə, "Həyat" qəzeti "Füyuzat" jurnalında olduğu kimi, Ə.Hüseynzadə məsləkinin daşıyıcısına, mətbuat orqanına çevrilə bilməmişdir. Çünki əvvələn, "Həyat" o zaman Azərbaycan dilində nəşr olunan yeganə mətbuat orqanı olduğundan, o dövrün müxtəlif məsləkli ziyalılarının ideoloji mübarizə tribununa çevrilmişdir. Xüsusilə, "Həyat"da inqilabçı ziyalıların iştirakı "qəzeti öz məhvərindən çıxarmışdır". Belə ki, qəzet çarizmə qarşı mübarizədə bir tərəfdən Ə.Hüseynzadənin ümumrusiya türk xalqlarını milli tərəqqi məramı ilə təkamül yoluna çağırışlarını, o biri tərəfdən Nərimanovun Azərbaycan zəhmətkeşlərini sinfi mübarizə məramı ilə inqilaba səsləyən ideyalarını təbliğ edirdi.

İkincisi, "Həyat" 1905-ci il iyun ayının 7-də nəşrə başladığından, qəzetin həmin dövr fəaliyyəti Ə.Cəfəroğlunun dediyi kimi, "Azərbaycanda oyanan milli hərəkat xarakter etibarilə bir növ hazırlıq mahiyyətində idi". "Füyuzat" isə bu cəhətdən "Həyat" qəzetindən fərqli idi.

Ə.Hüseynzadə "Həyat"la başladığı işi, əsasən "Füyuzat" jurnalında görmüşdür. Belə ki, o, "Həyat"da turançılıq, türkçülük məramını tam açıq təbliğ edə bilməmişdirsə, "Füyuzat"da isə məqsədinə nail olmuşdur.

Bunu, Ə.Hüseynzadənin özü də həmin məcmuənin ilk nömrəsində dərc olunmuş "Həyat və meyli-Füyuzat" adlı məqaləsində etiraf edərək, yazmış-

dır ki, "Biz "Həyat"ın birinci nömrəsində dərc olunmuş baş məqaləsində "məsləkimiz... həyatın mənayi-həqiqisinə xidmətdir" – sözlərini yazmışdıq, lakin həyatın mənayi-həqiqisi nədir? – sualı cavabsız qalmışdır... Bizə qalırsa "həyatın mənayi-həqiqisi meyli–füyuzatdır" – deyərək, müəllif oxucularının diqqətini "Füyuzat" sözünün lüğəti mənasına cəlb edərək yazır ki: "Füyuzat" ləfzən feyzin cəmi olub, rifah və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna... dəlalət edirsə də, fəqət əsl məfhumi mənası səadət və ələlxüsus səadəti-mənəviyyədir. Həyat isə mənayi-batinəsilə daimi bir meyli-səadət, meyli-füyuzatdır... Əgər bir fərddə, bir cəmaətdə, bir millətdə, bütün bəşəriyyətdə şövqi-füyuzat yox isə, o fərdi, o cəmaəti, o milləti, bütün bəşəriyyəti ölü saymalıdır, hərəkət və fəaliyyət göstərsə dəxi ölü saymalıdır, çünki bir meyitin ölü bir bədənin çürüyüb ab və xakə və həvayə mübəddəl olması, dəxi bir növ hərəkət və fəaliyyətdir. Həyatın mükəmməllik dərəcəsi... füyuzati-vicdaniyyənin ülviyyət və saflığı ilə ölçülə bilir". Bu sözlərdən çıxış edərək, Ə.Hüseynzadə "Füyuzat" məcmuəsinin məramını ortaya qoyur: "Bən istərdim ki, öylə bir sehr və ya əfsun bulunsun ki, onun qüvvətilə "bütün millətimizi birdən-birə cəmi füyuzati-vicdaniyyəyə nail etmək mümkün olsun".

Dövrün ədəbi, siyasi qüvvələri "Füyuzat" məcmuəsi ətrafında mərkəzləşərək, XX əsrin ilk onilliyində Azərbaycanda füyuzatçılıq adlı siyasi, ədəbi cərəyan yaratmışdırlar.

Füyuzatçılıq – ilk növbədə çarizmə, milli əsarətə, istibdada qarşı çevrilmiş türk xalqlarının mənəvi birliyi– turançılıq ideologiyasıdır. Bu ideologiyanın məqsədi milli-istiqlal uğrunda mübarizə aparan həmin xalqların milli şüurunu "türkləşmək, islamlaşmaq, avropalaşmaq" istiqamətində oyatmaq, inkişaf etdirmək, milli özünüdərk səviyyəsinə çatdırmaq idi.

Füyuzatçılıq-eyni zamanda ədəbiyyatda romantizmin, dildə vahid, ümumi ədəbi dil siyasətinin müdafiəsi, dinə münasibətdə islamlaşmaq məramının, milli məsələdə farslaşma və ruslaşmaya qarşı türkçülük ideologiyasının təbliği deməkdir.

Ə.Hüseynzadə jurnalda "Turani", "Ə.H.", "Ə.Hüseynzadə", "Füyuzati", "Həyati", "Şair Naim", "Dəli şair" imzaları ilə dərc etdirdiyi yazılarla Azərbaycanda bu böyük hərəkatın-füyuzatçılığın başında dururdu.

Ə.Hüseynzadənin öndərliyilə "Füyuzat" məcmuəsinin fəaliyyətilə meydana çıxan bu yeni cərəyan-füyuzatçılıq Azərbaycanın fikir tarixində yeni mərhələ yaradır.

Füyuzatçılıq görüşlərinin əksi olan bu monumental məcmuə qısa müddət ərzində (1906-1907) fikir tariximizdə iki mühüm ideoloji (turançılıq və romantizm) cərəyanının binasını qoyur.

Ə.Hüseynzadə "Füyuzat" jurnalı ilə türk xalqlarının azadlıq və milli-istiqlal ideallarının turançılıq məfkurəsilə şüurlara həkk etdirməyə çalışdığı kimi, həmin idealları ədəbi, romantik lövhələrdə də açıb göstərməyi vacib bilirdi.

O zaman çarizm Azəri türklərinin milli azadlıq hərəkatından qorxuya düşərək, mətbuat, söz azadlığı versə də, milli məsələlərin mətbuatda işıqlandırılmasına hər vəchlə mane olmağa çalışırdı. Belə bir şəraitdə ədəbi-bədii əsərlər milli ideyaların yayılması üçün ən əlverişli vasitəyə çevrilir.

Azərbaycanda yaranan bu yeni ədəbiyyat və məfkurənin rəhbəri Ə.Hüseynzadə idi. Müasirlərinin dediyi kimi: "Əfsanəvi Əlibəy dünyanın bütün lisanlarının, ülum və fünunun hər növünü ədəbiyyat və sənayeyi-nəfisənin hər şöbəsini tamamən əhatə etmiş və tətbiqə müvəffəq olmuş fövqəlbəşər, idi o, dövrünün həmfikri olan ziyalılarını (Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Hüseyn Cavid və b.) məcmuənin ətrafına toplayaraq, yaradıcılıqlarına ciddi bir qayğı ilə yanaşır, təsir göstərir", onların dünyagörüşlərində milli düşüncəni oyadırdı".

Ümumiyyətlə, onun yaratdığı fikir cərəyanı, mətbuat hərəkatı Azərbaycan xalqının ictimai, siyasi, ədəbi və estetik fikrinin inkişafında yeni mərhələ açmış və ortaq türk mədəniyyətin gələcək təşəkkülü üçün zəmin hazırlamışdır.

"Azəri türklərinin milli haqlarının aynası" (A.Şaiq) kimi az bir müddətdə "Füyuzat" məcmuəsi mütərəqqi görüşlü ziyalıların mətbuat orqanına çevrilir. Bütün türk xalqlarının hüsn və rəğbətini qazanaraq, türk dünyasının düşünən beyinlərinə hakim olur. Türk ziyalıları arasında türkçülük ideyalarını yayır. Turan ruhu füyuzatçıların: Hadinin, Cavidin, Şaiqin ruhuna, iliyinə işləyir. Məcmuə çətin sınaqlar dövründə fəaliyyət göstərməsinə baxmayaraq, türkçülük ideologiyası siyasi cərəyan kimi ön plana çıxaraq, bu yeni məfkurənin əsl ocağına çevrilir.

Azərbaycanda "Füyuzat"dan sonra "İrşad", "Təzə həyat", "Dirilik", "Şəlalə", "Füqəra Füyuzatı" kimi məcmuə və qəzetlər nəşr olunur.

Ə.Müznib Ə.Hüseynzadənin Azərbaycan ədəbiyyatına təsiri haqqında yazırdı: "Əli bəy həzrətləri... millətinə milliyyətini anlatdı, farslaşıb bilkülliyyə bərbad olan Qafqazdakı türk balalarına türklüyü bildirdi, həsəb-nəsəbini öyrətdi, əbabü-əcdadını tanıtdı..."

Əli bəy Hüseynzadə XIX əsrin sonu, XX əsrin əvvəllərində yalnız Azərbaycanın deyil, bütün türk dünyasının yetirdiyi nəhəng, ictimai, siyasi və ədəbi şəxsiyyətdir.

XIX əsrin sonunda böyük maarifçi, yazıçı M.Ə.Talıbovun Avropa müstəmləkəçilərinə üz tutaraq: "Şərq aləmi belə qalmayacaqdır. Günün birində sürətlə tərəqqiyə başlayıb, avropalıların özlərindən öyrəndikləri alət və ədavət sayəsində bunları məğlub edəcəklər. Sonra cəhənnəmin kənarına gətirib deyəcəklər ki: "Sizə və'd olunmuş cəhənnəm məhz budur"1 kimi təhdidlərindən sonra Ə.Hüseynzadə XX əsrin əvvəllərində yazırdı: "İttihad etməliyik, ittihad! İttihada doğru tərəqqi etməliyik! İttihad və tərəqqi edərsək o günləri də görərik. Avropanın mədəniyyət qiyafəsinə bürünən bir taqım vəhşi həriflərinə "qələt etdim, bir daha yapmam" da dedirtdirəriz. Lakin o günlər gəlincəyə qədər həriflərin mədəniyyət naminə etmədikləri qəddarlıq qalmayacaqdır. Çünki həqq qüvvətlinindir".

Sələflərindən və müasirlərindən fərqli olaraq, Şərq xalqlarının istibdaddan qurtuluş yolunun çarəsinin "ittihad"da olduğunu ilk dəfə dahiyanə kəşf edən Ə.Hüseynzadə ittihadı "bir millət üçün hər şeydən əqdəm arzu ediləcək qüvvət" adlandıraraq yazırdı ki: "İttihadın vacibliyini anlamayan, dərk etməyən, kor qalıb bunu görməyən millətlərin çıxılmaz girdablara düşəcəkləri gün kimi aşkardır... Bu gün hər bir millət qüvvətli olmağa can atır. Çünki hər bir firavanlığın yeganə əsası qüvvətdir. Zəmanəmizdə millətlərin səlamətinə, səadətinə, yeganə vasitə budur".

XX əsrin əvvəllərində Ə.Hüseynzadənin gördüyü işin böyüklüyü və qiyməti bunda idi.

Ona qədər türk dünyasının heç bir ideoloqu türkün qurtuluş, nicat yolunun ünvanını, yəni türk ittihadını bu cür qətiyyət və inamla ucadan elan etməmişdir. Bu sözlər, heç də görkəmli tatar mühərriri İ.Qaspiralının XIX əsrin 80-ci illərində "Dildə, fikirdə, işdə birlik" şüarı ilə nəşrə başladığı "Tərcüman" qəzetinin "ittihadi-türk" ideyalarından xali olduğunu göstərmir. Lakin İ.Qaspiralının ittihad məramında siyasi məqsəd yox idi. Bu hərəkat hələ üsuli-cədid (yeniləşmə) mahiyyətində idi.

Ə.Hüseynzadənin başçılıq etdiyi bu ittihad hərəkatı isə tamamilə yeni məfkurəli, siyasi məramlı turançılıq ideologiyası idi.

Ə.Hüseynzadəyə görə bu ittihad, "aləmi-islamın sülh və insaniyyət dairəsində ittihadıdır. "Məqsədimiz, amalımız ittihad, ittifaq, ictima və s. qüvvələrlə kürreyi-ərz üzərində insanlara vəd olunmuş səadətə nail olmaqdır"... "Etiqadımızca ancaq bu vəsaitlə insanlar, millətlər, din və məzhəblər arasında nifaq və şiqaq, cəng və cidal fəsx oluna biləcəkdir". Onun qənaətincə bu ideala yüksəlməyincə həyatda səadəti tapmaq mümkün olmayacaqdır.

Milli əsarətə qarşı mübarizədə "ittihad" məramını o zaman kimliyindən xəbərsiz bir-birinə yadlaşan türk xalqları arasında həyata keçirmək çox çətin idi. "İttihada doğru tərəqqi" məramı ilə türk xalqlarının milli şüurunu yüksəltmək, yəni varlığını qüvvətləndirmək üçün Ə.Hüseynzadə tələb edirdi ki, "Əvvəlbəəvvəl geriliyimizin səbəblərini öyrənməliyik. Səbəb nədir ki, bütün aləmi-islam bu gün sair millətlərə nisbətən bu qədər geri qalmışdır.

Onun qənaətincə bir millətin, qüvvətlənməsinin, sərvət qazanmasının (yəni ittihadın – B.O.) yollarını öyrənmək üçün əvvəl əmrdə "fəsadi-əxlaqın önü alınmalıdır". Çünki o zaman milli tərəqqi uğrunda mübarizədə tərəqqipərvər qüvvələrə həm "bidət və küfr" lənətlərilə, ciddi əngəllər törədən millətin öz daxilində, müsəlman aləminin sütunları sayılan, mühafizəkar, cahil din xadimləri, həm də tərəqqini "panislamizm" kimi qələmə verərək, "kizbü-böhtanları" ilə nəinki rusları, hətta bütün xristian aləmini müsəlmanların üzərinə qaldıran rəqib millətlər, xüsusilə erməni millətçiləri mane olurdular.

Müsəlman xalqlarının tərəqqisinə qarşı duran bu qüvvələrlə ideoloji mübarizədə Ə.Hüseynzadə "ittihada doğru tərəqqi" məramı ilə fəaliyyətə başlayır. Ona görə bu məram, müstəmləkə əsarətində olan türk xalqlarının azadlıq məsələsində ən düzgün, faydalı yoldur.

"İttihada doğru tərəqqi" proqramı. "İttihada doğru tərəqqi" məramı ilə Ə.Hüseynzadə XIX əsrin sonu, XX əsrin əvvəllərində türk xalqlarının ictimai-siyasi fikir tarixində yeni bir səhifə açır.

"İttihad" və "Tərəqqi" məramları, hər iki anlayış Ə.Hüseynzadənin milli-azadlıq uğrunda apardığı mübarizədə mühüm yer tuturdu. Bunu, onun fəaliyyətə başladığı ilk gündən, hələ 1889-cu ildən Türkiyədə həmin amal ilə təşkil etdiyi siyasi cəmiyyətə verdiyi "İttihad və Tərəqqi" adı da təsdiq edir. Bu cəmiyyət, türk xalqlarının ilk siyasi təşkilatı idi. Lakin o zaman təzəcə yaranan türkçülük hərəkatının məqsədini, məramını aydın ifadə edən müstəqil proqramı hələ yox idi. Bu proqram, ilk dəfə özünü ədibin Azərbaycanda yaşayarkən 1904-cü ildə Qahirədə "Türk" qəzetində dərc etdirdiyi "Məktubi-Məxsusi" məqaləsində göstərir. Həmin məqalə, o zaman həm Ə.Hüseynzadənin "ilk turançı", "ilk türkçü" (Y.Akçuraoğlu) kimi türk aləminə gəlişini xəbər verir, həm də türk xalqlarının ictimai, siyasi həyatında yeni qüvvətli məramın doğulmasında böyük dönüş olur.

Təfsilatsız yazılmış iki səhifəlik "Məktubi-Məxsusi" məqaləsi türkçülük tarixində çox qiymətli sənəddir. Çünki ilk dəfə bu məqalədə Ə.Hüseynzadə dahiyanə uzaqgörənliklə sərvət qazanmanın (yəni ittihadın) yollarının "əsl məsələ budur" – deyə **"nə surətlə çalışmaq, nəyə çalışmaq və nəyi öyrənməkdir"** kimi qısa, yığcam proqramını təqdim etmişdir. Zahirən, adi görünən bu sözlərdə böyük mətləblərə işarə olunmuşdur. Əli bəy "əsl məsələ" adlandırdığı həmin üç mətləbli proqramın açılışını üç ildən sonra, 1907-ci ildə "Füyuzat" jurnalında **"Maarif, ittihad, hürriyyət"** şəklində ortaya qoyur və yazır ki: **"Bəşəriyyətin kəşf etdiyi hürriyyətə və kamil ədalətə nail olmağın yolu budur!"**

Ə.Hüseynzadə 1904-1907-ci illərdə təqdim etdiyi bu sözlərlə, Ə.Hüseynzadə "ittihada doğru tərəqqi" məramını cəmiyyətin mərhələli inkişafının ifadəsi kimi təqdim edir. **"Maarif, ittihad, hürriyyət"** bu məramların adından göründüyü kimi, ictimai quruluşu zorakılıq yolu ilə deyil, tədricən təkamül yolu ilə devirməyə çağırış idi. Bu məramlar, eyni mənəvi, milli ideal-milli istiqlal uğrunda mübarizənin bir-birini izləyən inkişaf mərhələləri idi.

"İttihada doğru tərəqqi"nin keçdiyi bu üç mərhələ, XX əsrin əvvəllərində türk xalqlarının milli-azadlıq hərəkatına münasibətdə tamamilə yeni siyasi məfkurəni əks etdirən səfərbəredici bir proqram idi.

"İttihada doğru tərəqqi" probleminin qoyuluşu. Ə.Hüseynzadə "ittihada doğru tərəqqi" məramında

müstəmləkə əsarətində olan türk xalqlarının azadlıq məsələsində ən düzgün, faydalı yol hesab edirdi.

Tərəqqiyə çağırış onun fəaliyyətinin ilk günündən səslənir: "Müsəlmanız, onun üçün dünyanın hər nəresində xeyirxahi bulunduğumuz din qardaşlarımız tərəqqi etsə, biz o tərəqqini əz cani dil alqışlarız! Türküz, binaənəleyh türküz! Türkün hər yerdə tərəqqi və təkamül ilə məs'ud olmasını arzu eyləriz!"

Hər yerdə olduğu kimi, Azərbaycanda da tərəqqi məsələsi ətrafında gedən ideoloji mübarizə hərəkatına müxtəlif siyasi qüvvələr başçılıq edirdi. Doğrudur, bu qüvvələrin mövcud quruluşa qarşı apardığı mübarizənin, məqsədinin mahiyyəti eyni idi. Mütləqiyyəti ifşa və inkar etmək, milli əsarətdən qurtarmaq, ictimai ədalətsizliyə son qoymaq, bir sözlə, xalqı tərəqqiyə, azadlığa çıxarmaq.

Ə.Hüseynzadədə tərəqqiyə çağırış XX əsrin əvvəllərində dövrün inqilabçı demokratik ziyalılarının tərəqqiyə çağırışlarından həm məramca, həm də mübarizə yoluna görə fərqli idi.

O, dövrü "tərəqqi əsri" kimi səciyyələndirərkən yazırdı ki: **"Biz deyiriz ki, tərəqqi edəlim, əvvələn bir millətin tərəqqisi nədən ibarətdir? Məqsədi, qayəsi nədir? Daha doğrusu, nə olmalıdır? Saniyən, tərəqqinin vəsaiti nədir? Və nə ola bilir?"**

Ə.Hüseynzadə verdiyi bu suallarla tərəqqinin aktuallığından, yəni o zaman tərəqqi ətrafında kəskin, ictimai və ümumxalq ehtiyacı duyulan bir dövr başladığını ifadə etmək istəyindən daha çox, tərəqqinin vəzifələrinin, mahiyyətinin onun hansı vəsaitlərlə, hansı yollarla inkişafının nədən ibarət olduğunu və bu problemin həmin illərdə türk xalqlarının öz müqəddəratına hakim olmaq işində nə qədər ehtiyat və məsuliyyət tələb edən mühüm və vacib məsələ olduğunu çatdırmaq idi. Bunu, həmin sualların ardınca onun yazdığı: **"Bu suallara hər kəs öz elm və vüqufu, ələlxüsus öz mənfəəti dairəsində bir növ cavab verə bilir" – sözləri də təsdiq edir.**

Ə.Hüseynzadənin narahatçılığı da məhz o zaman tərəqqi ətrafında yaranmış bu ideoloji münasibətdə idi. Dövrün əksər ziyalılarında tərəqqi problemi azadlıq məsələsindən ayrı götürülmürdü.

Tərəqqiyə siyasi mövqedən yanaşma o zaman hər bir ziyalının, mütəfəkkirin və ictimai xadimin ideya-siyasi mövqeyini müəyyən edən əsas meyara çevrilmişdir.

Ə.Hüseynzadə yazırdı ki: "Tərəqqinin məqsədi, qayəsi ümumi rifaha və səadətə nail olmaqdır. O halda bu rifah və səadətin nədən ibarət olduğunu təyin etmək lazımdır. Rifah və səadət bir məmləkətdə əsla ac və möhtac bulunmayıb, hər kəsin, hər xüsusda bir bolluq içində yaşaması, sərvətin əhali arasında mümkün mərtəbə bərabər və ədalət üzrə bölünməsidir".

Tərəqqidə bu məqsəd inqilabçı-demokratların da yaradıcılığında əsas idi. Lakin həmin məqsədi həyata keçirmək məsələsi isə o zaman dövrün ziyalılarının məram və mübarizə yollarını haçalandırmışdır.

Ə.Hüseynzadə bu məsələdə mövqeyini bildirərkən, zəmanənin **"bir millətin tərəqqisi nədən ibarətdir?"** sualına "tərəqqi bir millətin, bir camaatın arasında **hürriyyət və maarifin** təzayid və intişar etməsindən ibarətdir və hansı millət arasında hürriyyət və maarif nemətlərindən daha çox əfrad bəhrəyab isə o millət daha mütərəqqidir" cavabını verir və bu cavabı o, "cavabların yaxşısı" kimi təqdir və tərif edir. Burada "hürriyyət" sözünün "maarif" sözü ilə yanaşı işlənməsi təsadüfi deyildir. Müəllifin "Hürriyyət"i "maarif"lə bağlaması onun tərəqqi problemində tutduğu ideya-siyasi mövqeyini müəyyən edən əsas meyar idi. Çünki "maarif" sözü əli bəyə görə tərəqqinin mübarizə vəsaiti idi, milli şüuru "maarif" məramı ilə maarifləndirmək mənasında olduğundan Ə.Hüseynzadənin "hürriyyət" uğrunda mübarizə yolunu, bu yolda döyüşən inqilabçı qüvvələrin silahlı mübarizə yollarından ayırmışdır.

"İttihada doğru tərəqqi" proqramının təkamül yolu. Ə.Hüseynzadə o zaman mövcud quruluşun inqilab yolu ilə deyil, təkamül yolu ilə tərəqqisini istəyirdi. Onun fikrincə əsl mübarizə yolu millətləri irəliyə aparan təkamül yoludur.

Təkamül yolunu cəmiyyətin inkişafının normal, təbii yolu olduğunu əsaslandırarkən, yazırdı: "Biz bir sövqi-təbii ilə naqabili-təğyir bir hökmü-qədərlə, bütün ədyanın əqvam və millətin getdiyi yollarla gediyoruz. O yolun ibtidası qaranlıq və tikanlı isə də irəlisi işıq və çəmənlidir... Millətlərin bir qismi yolun ortasında getdikləri və ya nəhayətinə yetişdikləri halda, digərləri o yolu başlarlar... Bu bir qanuni təbiətdir ki, adına evolyusiya-təkamül qanuni deyərlər... Biz də bu yol ilə gediyoruz".

Ə.Hüseynzadə Türk xalqlarını bu yolla getməyə çağıraraq yazırdı: "bu yolda biz hürriyyət, ədalət, müsavat deyə-deyə, fəryad edə-edə qanuni-əsasiyə doğru dərəcə-dərəcə yüksələrək tərəqqi edəcəyik".

O, inqilabların silahlı mübarizə yolunu humanist, mütəfəkkir ideoloq kimi qəbul etməyirdi və yazırdı ki: "...həqiqi vətənpərvərlər heç bir vasitədən çəkinməməlidirlər. Əldə qan tökməyəcək çarələr var ikən xunrizanə vəsaitə müraciət etmək əbəsdir". Türk xalqlarını inqilab yolundan çəkindirməyə çalışarkən, onları inandırırdı ki, türk xalqlarının nicat yolu inqilabda deyil, tərəqqi və təkamül yolundadır.

Ə.Hüseynzadənin məqsədi təkamül yolu ilə türk xalqlarının "ittihada doğru tərəqqi" məramı ətrafında birləşdirmək idi. "Məsləkimiz mövcud qanun və qaydalar dairəsində müntəzəm və tədriclə irəliləmək surətilə tərəqqiyə xidmətdir... Çünki tərəqqi etməsək, ittihadın da vacibliyini bilməyəcəyik".

Bəzi tədqiqatçılar Ə.Hüseynzadəni inqilabın qızğın çağında xalqı mübarizələrdən çəkindirib bitərəflikdə günahlandırırdılar. Əli bəy onlara cavab verərək deyirdi: "Kim deyir bitərəf olmalı? Xeyr! Əsla bitərəf olmamalı! Bitərəflik ayaq altında qalmaqdır. Su bir yerdə sabit və ranid durmaqdan qorxur. Qorxur, çünki qoxuyar, kiflənər, yosun bağlar. Təmiz və səlim olmaq üçün su bir tərəfə axmalı, cərəyan etməli, ya heç olmazsa dərya kimi ləpələnməli, cuşə gələ bilməlidir".

Həqiqətən, bitərəflik, laqeydlik Ə.Hüseynzadə kimi bir "mücahid"in təbiətinə, yaradıcılığına zidd idi. Əsarətin, zülmün düşməni olan bu fikir adamı, heç bir zaman millətlərin ayağa qalxdığı bir dövrdə xalqa, bitərəfliyi təbliğ edə bilməzdi.

Ona görə siyasi mübarizələrdən kənarda dayanmaq "yatanların oyananların ayaqları altında qalması" deməkdir.

Ə.Hüseynzadəyə görə, "Həyatdan məqsəd mübarizə və ləzzətlərdən ən yaxşısı mübarizədir".

O, "Tolstoy məzhəbinin əssül-əsası" olan "fənalığa müqabilə etmə!", yəni zülmə qarşı çıxma! Səbr və təhəmmül elə!" – çağırışına qarşı çıxaraq yazırdı ki, "Fənalıqla mübarizə lazım deyilsə, o halda bəni-növünə (insana) məhəbbət və müavinət et!" – vəzifəsini nə surətlə ifa etməlidir? Bəni-növinin ələm və iztirablarını yox etmək yolda mübarizə etmək sözü" məhz "bəni növünə müavinət et" sözünün şərtlərindən biri deyilmi?" Əli bəy bu mövqedən çıxış edərək, "Səadət nədir?" – sualına "Həyatın həqiqi mənası, mükəmməllik dərəcəsi əbədi mənəvi səadətə nail olmaq həvəsilə ölçülür". Ə.Hüseynzadə bu mübarizədə "vəqti qeyb etməməliyik tərəddüd edərək, kənarda durub uzun-uzadı düşünməkdən fayda hasil olmaz". O, dövrün "nə etməliyik?" – sualına dərhal "İndi bəkləmək, gözləmək zamanı deyil" – cavabını verərək, istibdada qarşı mübarizəyə Hamletin "olum, ya ölüm" monoloqu ilə millətini qəti mübarizəyə çağırırdı: "Vətənin şu Feniks kimi yanıb kül olması, illər uzunu aləmi-bizar edərək, istibdad yükü altında əzilib inləmədən min qat övladır". Lakin o, bu mübarizədə türk xalqlarını təkamül yoluna çəkirdi və yazırdı ki: "Biz yaponlar kimi hərəkət etməliyik. Uzaq Şərq qəhrəmanları bizdən qat-qat qüvvətli olduqları halda, avropalıları coşdurmamaq üçün ehtiyatla hərəkətə məcbur olurlar. Ona görə biz müsəlmanlar da yekvücud olub, boyunlarımıza sarılan zənciri, əsarəti qırmaq üçün səssiz-səmirsiz çalışmalıyıq". Türk alimi Ziya Göyalp Ə.Hüseynzadənin bu mübarizliyini "səssiz-səmirsiz inqilabçı" adlandırırdı.

Ə.Hüseynzadədə, tərəqqi uğrunda gedən mübarizənin yolu inqilab yolu deyil, təkamül yoludur. Lakin ona görə təkamülü "uzun yoxuşlu və arizəli" yollarında da çətinliklərlə, qarşıya çıxan qüvvələrlə mübarizədə "insanların tədricən mənəvi səadətə nail ola bilmələri üçün əsas başlıca vəsait "Maarif"dir.

Tərəqqidə "maarif" məramı. Ə.Hüseynzadə istibdada qarşı mübarizədə, milli şüurun yüksəldilməsində "Maarif"ə tərəqqinin ən mühüm vasitəsi kimi baxır və yazırdı ki: "Füyuzat"ın nəşrilə səy və fəaliyyətlərini daha da çoxaldıb, "tərəqqi" uğrunda maarifpərvəranə mübarizələrini mətanətlə davam etdirəcəklər".

Ə.Hüseynzadədə maarifə çağırış "ümumi-insaniyyətin nicatını və səlamətliyini maarif işığı ilə oyandırmaq və haqqını bilmək mənasındadır". Maarifə bu yöndən, yəni siyasi mövqedən yanaşmaq dövrün bəzi qabaqcıl qüvvələrinin də fəaliyyətinin səciyyəvi xüsusiyyəti idi. Lakin Ə.Hüseynzadədə bu siyasət də fərqli idi. Bunu, özü də etiraf edərək yazırdı ki: "Bizim özümüzə məxsus, daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti qəflətdə bulunan külliyyati-avam arasında nuri-maarifi əkməkdir..." O, bu cümlədə "nuri-maarif" ifadəsilə "ittihad məramı"na işarə edirdi. Ona görə, qırmızı qaranlıqlar, yəni "inqilab ilə irtica arasında" peyda olan yaşıl işıqların (müsəlman ziyalılarının) şanlı vəzifəsi "doğru yola" biganə və nabələd olan "mücahidi-şəbanəmiz" arasında "maarif nurunu", yəni ittihad məramını yaymaqdır. O, bu məqsədi "özlərinin məslək işi" adlandırırdı.

Ə.Hüseynzadənin tərəqqidə müdafiə etdiyi "maarif" məramı onun yaradıcılığında ardıcıl şəkildə təbliğ olunaraq, ittihadın ideya-siyasi qələbələri üçün tarixi zəmini hazırlamaq məqsədini güdürdü.

Ə.Hüseynzadə Azərbaycanda fəaliyyətə başladığı ilk günlər redaktoru olduğu "Həyat" qəzetinin "Məsləkimiz" adlı proqram məqaləsindən "Əksəriyyət arasında maarifi-ümumiyyənin inkişaf və intişarından danışarkən – "hansı maarif?" – sualına peyğəmbərin "Özünü tanıyan, Allahını tanıyar" – hədisilə cavab verərək, maarifin dərhal "türkləşmək, islamlaşmaq, avropalaşmaq" istiqamətdə tərəqqisini ortaya qoyur. Ə.Hüseynzadə bir mütəfəkkir və politoloq kimi milli şüurun təşəkkülündə, formalaşmasında "türkləşmək, islamlaşmaq, avropalaşmaq"ı məramının qlobal rolunu səylə ön plana çəkərək yazır ki: "Məsləkimiz bunu tələb edir. Çünki bu surətlə qüvvətimiz, həyata haqlı olmamız sair millətlərlə rəqabətə qabiliyyət və istedadımız və əlhasil mühitimizlə, yəni bizi əhatə edən canlı və cansız bütün mövcudat ilə mübarizəyə iqtidarımız arta bilər".

"Türkləşmək, islamlaşmaq, avropalaşmaq". Oyanan türk xalqlarını "ittihadi-türk" uğrunda mübarizəyə səfərbər etmək üçün onların milli şüurunun hazırlanmasına kömək edəcək elmi-nəzəri məram lazım idi. Əsrin əvvəllərində milli-istiqlal uğrunda mübarizə yollarının hələ müəyyənləşmədiyi bir dövrdə türkçülük ideologiyasını üç nəzəri təməl-"türkləşmək, islamlaşmaq, avropalaşmaq" məramına bağlayaraq, ictimai, siyasi fikir tariximizdə yeni bir səhifə açır. O, bu elmi-nəzəri doktrina ilə türkçülük ideologiyasının bünövrəsini möhkəmlədir. Son illərdə bəzi tədqiqatçılar həmin məramın Ə.Hüseynzadədən əvvəl səhvən Ş.C.Əfqani, İ.Qaspirali, Y.Akçuraoğlu, Ziya Göyalp tərəfindən irəli sürüldüyünü iddia edirlər. Bu yanlışlıq ondan irəli gəlir ki, həmin tədqiqatçılar adı çəkilən ideoloqların "ittihadi-islam", "ittihadi-türk" səciyyəli görüşlərinin Ə.Hüseynzadənin sırf elmi-nəzəri mahiyyət daşıyan "üç qayəli" düsturundan fərqli olduğuna əhəmiyyət verməmişlər.

Ə.Hüseynzadə bu "üçlü qayə" ilə türk xalqlarının fikri inkişafına türkləşməklə - milliözünüdərk, islamlaşmaqla-islam intibahını, avropalaşmaqla-Qərb və Şərq mədəniyyətlərinin sintezini gətirmişdir.

... Ardı jurnalımızın növbəti sayında.

VƏTƏN sevgisi

A.ƏLİOĞLU

Könlümün sevgili məhbubi mənim,

Vətənimdir, Vətənimdir, Vətənim!

Vətənim verdi mənə namu-namək,

Vətəni məncə unutmaq nə demək?

Anadır hər kişiyə öz vətəni.

Bəsləyib sinəsi üstündə onu,

Südüdür ki, dolanıb, qanım olub,

O, mənim sevgili cananım olub.

Abbas Səhhət

Vətəni sevmək, millətimizin ruhunun dərinliklərində olan minlərlə duyğulardan biridir. Əsrlər boyu anaların yanıqlı səsləri elə beşiyin başındaca körpələrə, onların qəlblərinə, qulaqlarına qəhrəmanlıq hissləri aşılanmaqdadır. Millətimizin analarının bu tərbiyə üslubu xalqımızın mənəvi və ruhani aləminə vətəni sevməyi, qorumağı həkk etmişdir. Vicdanlarımızı qidalandıran, ruhlarımızı bəsləyən əvəzsiz qida yenə də "Ana vətən"dir. Dünyanın amansız hücumlarından vətənimizin coğrafiyası bir az da daralmışdır. Cənnəti xatırladan torpaqlarımız, behiştin qoxusunu verən Qarabağımız, düşmən pəncəsində matəm içərisindədir. Vətəni sevmək inanclı könüllərin işidir. Sinəsini düşmən mərmisinə yönəldərək vətən torpağına dəyməkdənsə mənim bağrıma dəysin deyən minlərlə qəhrəmanlarımız var. Vətənin səsinə səs, sinəsinə can, kədərinə baş qoyan uca millətimiz bu misilsiz cövhərin qədərini təqdir edir.

Uğrunda həyatını qurban edən, vətənin təhlükədə qalmasını istəməyən, dar günündə onunla olan, acılarına dərman, sızıltılarına məlhəm olmağa hazırdır millətimiz. Vətən, millətin qüruru, izzəti, şərəfi, varlığı və anasıdır. Vətənpərvər olmaq, anamı sevmək, xidmətində qüsur göstərmədən gecə-gündüz əmrində durmaqla təzahür edilir. Zülmə, istibdada, fəlakətlərə baş əyməyən, səbrlə, mətanətlə onlara sinə gələn cəsur vətən oğulları Ana hüzurunda ədəblə, ismətlə sözünü dinləməyə əmrini də icra etməyə hazırdır. Vətən bu xalqın həm beşiyi, həm qidası, həm anası həm də son mənzilidir. Vətənsiz olmaq bu dəyərlərdən məhrum olmaq, vətəni sevməmək isə şərəfini inkar etməkdir. Bu torpaqlar üzərində bir çox böyüklər böyük işlər gördü. Yağılara, zalımlara vətənin sinəsinə ayaq basmağa izn vermədilər. Onlar dəmiri isti-isti döyərdilər. Qorudular qurban ola-ola; ağaclar kimi doğrandılar ancaq bayrağımızı yerə atmadılar. Nə də ki, mənhus barmaqların, xain əllərin toxunmasına aman vermədilər. Bu məmləkətin hər qarış torpağını, çiçəyindən böcəyinə qədər, dağlarından aranına, uşağından böyüyünə ehtiram edən bir gənclik yetişməlidir. Qanında, canında, ruhunda əcdadının rəşadətini, millətinin qeyrətini, vətəninin sevgisini gəzdirən və bu sevgi ilə coşub-daşan vətənpərvər övladlarımız "Vətən", "Vətən" deməlidir. Bu uca səs, yenilməz nida, sarsılmaz inanc bu övladların qəlblərinin ta dərinliklərindən gəlməlidir. "Qəlbdən gələn qəlbə, dildən gələn isə qulağa dəyər" – demişlər.

Vətən sevgisi pak, vətənpərvərlik isə uca mənəvi rütbədir.

MÜSAHİBƏ

HƏR BİR AZƏRBAYCANLININ MÜQƏDDƏS BORCU

Son dövrlərdə Azərbaycanda Qeyri Hökümət Təşkilatları İnstitutunun formalaşması baxımından böyük işlər görülür. Bir neçə il bundan əvvələ kimi barmaqla sayılacaq dərəcədə QHT var idisə, bu gün onların sayı günbəgün artmaqdadır. Yaranmış hər QHT isə cəmiyyətdə öz sözünü deməyə cəhd göstərir. Yeni fikir, yeni düşüncə tərzi ilə meydana atılmış QHT-lardan biri də MİMTA (Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar) Fondudur.

Fondun yaranma zərurəti və digər məsələlərlə bağlı suallara aydınlıq gətirmək üçün fondun icraçı direktoru, cənab Pərviz Əmirova müraciət etdik.

PƏRVİZ ƏMİROV
"Milli irsi, Mədəni, Tarixi Araşdırmalar" Fondunun icraçı direktoru

Hörmətli Pərviz müəllim rəhbərlik etdiyiniz "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu qarşısına hansı məqsədləri qoymuşdur?

Əvvəla Füyuzat jurnalının yenidən işıq üzü görməsi münasibəti ilə jurnalın redaksiya heyətini, «Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar» Fondunun əməkdaşlarını həmçinin Azərbaycan xalqını ürəkdən təbrik edirəm. «Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar» Fondu Milli irsi, mədəni, tarixi dəyərlərin qorunub saxlanmasına, inkişafına kömək etmək və xeyriyyə tədbirlərini təşkil etməyi qarşısına əsas məqsəd kimi qoymuşdur. Bunun üçün bir sıra vəzifələri həyata keçirməyi qərarlaşdırmışıq. Konkret olaraq:

Milli irsimizi, mədəni, tarixi dəyərlərimizi öyrənmək və təbliğ etməyi.

Azərbaycan Milli irsi, mədəni, tarixi dəyərlərinin xarici ölkələrdə tanınmasına kömək göstərməyi, bu ölkələrdə Azərbaycanın, Azərbaycanda dost xarici ölkələrin Milli irsini, mədəniyyətini, tarixini əks etdirən sərgilər konfranslar və s. tədbirlər təşkil etməyi düşünürük.

Xeyriyyəçilik sahəsi isə bizim qədim irsimiz olduğu üçün bu sahədə də planlarımız vardır.

Bildiyiniz kimi, hal-hazırda ölkəmizdə dövlət və üçüncü sektor tərəfindən sosial sahədə müəyyən tədbirlər həyata keçirilir. Bizdə Fondumuzun imkanları yol verdiyi qədər uşaqlarla, gənclərlə və yaşlı nəslin nümayəndələri ilə bağlı bəzi proqramlar həyata keçirməyi düşünürük. O, cümlədən kitabxanalar, idman və sağlamlıq mərkəzlərinin təşkil edilməsi, valideyn qayğısından məhrum olmuş uşaqlara qayğı göstərilməsini də nəzərdə tutmuşuq. Gənclərin sosial problemləri ilə bağlı, həmçinin narkomaniya və siqaret əleyhinə müəyyən maariflənmənin aparılması məqsədi ilə simpoziumlar, seminarlar və konfranslar keçirməyi təqdir edirik. Həmçinin yaşlı və gənc ziyalılara maddi və mənəvi yardımlar etməyi, «kimsəsiz qocalara qayğı» proqramını həyata keçirməyi də planlaşdırırıq.

Qaçqın və məcburi köçkünlərə, Qarabağ müharibəsində şəhid olmuş insanların ailələrinə, əlil və veteranlara maddi yardımlar etməyi də planlarımıza daxil etmişik.

Bildiyimiz kimi "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu yeni yaranmış bir təşkilatdır. Buna baxmayaraq Fond ictimai rəydə öz yerini tutmaq üçün "Füyuzat" jurnalı ilə cəmiyyətə təqdim olunur. Nə üçün məhz 20-ci əsrin əvvəllərində özünəməxsus yer tutmuş belə bir fikir jurnalı ilə fəaliyyətə başlayırsınız?

20-ci əsrin əvvəllərində görkəmli elm xadimlərindən olan Əli Bəy Hüseynzadə tərəfindən təsis edilən və məhşur xeyriyyəçi Hacı Zeynəlabdin Tağıyevin maddi dəstəyi ilə nəşr olunan Füyuzat jurnalı ictimai fikir jurnalı olmuşdur. Cəmi 32 nömrəsi çıxmasına baxmayaraq o dövrün həm Azərbaycan, həm də digər türkdilli və şərq xalqlarının ziyalı təbəqəsi arasında böyük rəğbət qazanmış və sevilərək oxunmuşdur. Düz 100 il keçdikdən sonra Füyuzat jurnalı "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu tərəfindən yenidən təsis edilərək nəşr olunmağa başlayır. Fondumuzun ilk elmi araşdırması olaraq, Füyuzat jurnalının bərpa edilməsi fikrimcə uğurlu addımdır. Fondumuz kimi onun mətbu orqanı olan Füyuzat jurnalı da xalqımızın milli irsinin, zəngin mədəniyyətinin və tarixinin bütün dünyaya tanıdılmasına xidmət edəcəkdir. Bu müqəddəs işdə böyük Azərbaycan xalqının xeyir-duasına ehtiyacımız var.

"Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu qarşısına milli irsimizin, mədəni, tarixi dəyərlərimizin qorunması, araşdırılması və tanıdılması məqsədini qoymuşdur. Bu məqsədin qarşıya qoyulmasını zəruri edən nə idi?

Milli irsimizi, mədəni, tarixi dəyərlərimizi öyrənmək, qorumaq və təbliğ etmək hər bir Azərbaycanlının müqəddəs borcudur. Biz müxtəlif mədəniyyətlərin bir-biri ilə qovuşmasını, sintezə uğramasını və yaxud hər hansı bir sağlam mədəni dəyərin qismən və ya bütövlükdə qəbul olunmasını təbii proses sayırıq. Çünki bütün xalqların qarşılıqlı anlaşması, dinc yanaşı yaşaması, bir-birlərini daha yaxından tanıması və hörmət bəsləməsində onların milli mədəni irsinin müstəsna rolu var. Bu gün mədəniyyət cildində gələn və Azərbaycan gəncliyinin düşüncə və davranışlarında öz çirkli izlərini qoyan yad ünsürlərin qarşısında öz milli, mədəni irsimizə dəstək verməliyik. Bu yad ünsürlərin təsiri altına düşmək rəzalətdən başqa bir şey deyil. Hesab edirəm ki, bu məsələdə bütün Azərbaycanlıların birləşərək öz irsinə daha çox sahib çıxmağının əsl vaxtıdır.

Qiymətli vaxtınızı bizə ayırdığınız üçün təşəkkür edir və bu uğurlu yolda Sizə müvəffəqiyyətlər arzulayırıq.

Amalımız
millətimizə və dövlətimizə faydalı olmaqdır!

MİMTA
MİLLİ İRSİ MƏDƏNİ TARİXİ
ARAŞDIRMALAR FONDU

DÖVRÜN SƏCİYYƏSİ

ŞAHLAR ƏSGƏROV
BDU-nun professoru,
əməkdar elm xadimi

Son 100 illik tariximizə diqqət yetirsək görərik ki, dövlət quruluşumuz, ideologiyamız 5-6 dəfə dəyişmişdir. Bu müddət ərzində ölkəmiz inkişaf edərək, bir əsrdən digərinə keçmişdir. Bu inkişaf həm inqilabi, həm də təkamül yolu ilə olmuşdur. Son beş min illik tarixi sıxsaq görərik ki, ictimai şüurda uç söz möhkəm kök salıb. Bunların birincisi əşyadır (var-dövlətdir). İkincisi, enerjidir (neftdir, qazdır və s). Üçüncüsü, informasiyadır. Minilliklər ərzində müharibələr, əvvəlcə əşya uğrunda, sonra enerji uğrunda olmuşdur. XXI əsrin əsas səciyyəsi onun informasiya əsri olmasıdır. Bir dövlətin başqa dövlət üzərində üstünlüyü, qələbəsi informasiya cəbhəsində baş verəcəkdir. Vaxt itirmədən bu sahədə fəaliyyət göstərmənin metodologiyasını öyrənməliyik ki, öz informasiya məkanımıza sahib çıxaq. Təbiət boşluğu sevmir. Əks halda bu sahə də başqa dövlətlər tərəfindən zəbt edilə bilər. Xırda millətlər böyük millətlərin, xırda iqtisadiyyat böyük iqtisadiyyatın içərisində əriyə bilər. Milli düşüncə, sənət, ədəbiyyat informasiya erasının yaratdığı imkanlardan istifadə etməyi bacarmalıdır. Cəmiyyətin inkişafında səhv düşüncə tərzinin qərarlaşmasına yol verməmək üçün, zaman-zaman cəmiyyətin inkişaf aspektləri muzakirə mövzusuna çevrilməlidir. Cəmiyyət saglam düşüncə və məntiq əsasında inkisaf etməlidir.

Qloballaşan dünyada milliliyi qorumaq çətinləşir. Hər güclü dövlət özündən zəif dövlətlə ikili standartlar dilində danışır. Bu səbəbdən də ziyalılarımız, mədəniyyət, incəsənət xadimləri XXI əsrdə fədakarlıq göstərməlidirlər. Su töküləndən sonra onu qaba yığmaq çətindir. XXI əsrdə müstəqil Azərbaycan dövlətinin bir çox nazirləri kosmopolit ola bilər, ancaq mədəniyyət və təhsil nazirləri milli irsin, milli mədəniyyətin qoruyucuları rolunda çıxış etməlidirlər.

Hələ 1945-ci ildə, SSRİ-yə qarşı işlənib hazırlanan bir qərb doktrinasında planlaşdırılmışdı: "Biz, ehtiyyatla onların mənəvi dəyərlərini dəyişərək, şüurlarına intim kultu, zorakılıq, sadizm, sözə xəyanət, sırtıqlıq, alkoqolizm və narkomaniya, qorxu və həyasızlıq, bir sözlə, əxlaqa zidd olan şeyləri yeritməliyik. Namus və vicdan lağa qoyulacaq, keçmişin mənasız qalığına çevriləcək. Yalnız çox az adam bundan xəbər tutacaq, hətta nələr baş verdiyini anlayacaqlar. Onları da gülünc vəziyyətə salıb, aciz durumda buraxacağıq".

Bu fikir filosof Muxtar Şahanovun "Sivilizasiyaların yanlışlıqları" əsərindən götürülmüşdür. Ehtimal var ki, bənzər doktrina başqa bir forma və məzmunda bu ərazilərə tətbiq olunur. Bizim TV kanallarımıza baxanda belə doktrinaların təsiri altında yaşadığımız və bəzi layihələrin isə xaricdən maliyyələşdiyi hiss olunur. Misal olaraq ziyalıların etirazına səbəb olan TV kanalların bəzilərində nümayiş etdirilən "şou proqramlarını" göstərmək mümkündür.

Dövlətin inkişafına həm iqtidar, həm də müxalifət, bir sözlə siyasi elita cavabdehdir. Cəmiyyəti dinc yolla inkişaf etdirmək hökumət üzvlərinin, hökumətin fəaliyyətinin konstitusiyaya uyğun olub-olmamasına nəzarət etmək isə müxalifətin əsas vəzifə borcudur. Ancaq cəmiyyət daxili elə problemlər var ki, onun həllinə dövlət yox, cəmiyyət özü cavabdehdir. Toy, yas mərasimləri, həyati məsələləri təşkil etmək problemlərini cəmiyyət üzvləri özləri həll etməlidirlər. Sosial dəyişikliklərin sürətlə dəyişdiyi bir zamanda, ziyalılar həmvətənlərinə yolun düzünü göstərməlidirlər. Cəmiyyət hər problemin həllini dövlətdən gözləməməli, sağlam orqanizmə cevrilib öz içərisində baş qaldıran mənfi təzahürlərə qarşı mübarizə aparmalıdır. Bu yazıda olan fikirlər əsasən cəmiyyət üzvlərinə ünvanlanıb.

Ardı jurnalımızın növbəti sayında...

Akademik FUAD QASIMZADƏ



Yeni "FÜYUZAT" və ənənələr

İlk olaraq qeyd edim ki, "Füyuzat" jurnalı təşəbbüsünü bəyənir, düzgün addım, vaxtı çatmış məsələ sayır və dəstəkləyirəm.

Müstəqillik şəraitində "Füyuzat"ın bərpası mütərəqqi ənənələrə sadiqlikdən doğur və öz gözəl bəhrəsini verəcəkdir. Elə bu səbəbdən, mütərəqqi arzu və istəkdən çıxış edərək yeni "Füyuzat" və ənənələr mövzusunda çıxış etmək qərarına gəldim və bu məqsədlə yazdıqlarımı redaksiyaya göndərir və çap edilməsini lütfən rica edirəm.

Böyük mütəfəkkir Əlibəy Hüseynzadənin ortaya çıxardığı bu jurnalın nəşiri millət atası Hacı Zeynalabdin Tağıyev idi. Bir ildən sonra Füyuzatın bağlanmasını Sovetlər dönəmində onun guya hörmət və nüfuz, rəğbət qazana bilməməsilə izah edirdik. Əlbəttə ki, bu yalan bir izahat idi. Əsl səbəbi isə artıq 1905-1907-ci il inqilabı ilə əlaqədar olaraq bolşevik ideologiyasının güclənməsi, inqilabi zorakılığa meyil etməyən qüvvələrin tənqid olunması, pislənməsi idi.

Əli bəyin təbliğ etdiyi ideya türkləşmə (azərbaycanlaşma), islamlaşma və müasirləşmə prinsipinə əsaslanırdı. Bu məsələdə o, M.F.Axundovu, M.Ə.Sabiri, N.Vəzirovu, Ə.Haqverdiyevi, M.Ə.Talıbovu, Şərqdən Ömər Xəyyamı, Firdovsini, Avropadan Şekspiri, Höteni tərifləyir, təbliğ edirdi. Bu gözəl və faydalı ənənəyə biz indi bəlkə əvvəlkindən daha artıq dərəcədə əməl etməli, onu qoruyub daha irəli aparmalıyıq.

"Füyuzat" ("Füyuz" sözündən götürülüb) ərəb sözüdür və mənası feyizin cəmi (feyzlər) deməkdir. Əlibəy bunu təsadüfən seçməmişdi. İstəyirdi ki, oxucular bu jurnaldan feyziyab olsunlar, feyz alsınlar. Deyim ki, "feyz" ərəbcə bolluğa, xeyrə, faydaya deyilir. Ləzzət, həzz mənasında da işlədilir. "Feyziyab isə faydalanmaq xeyir əldə etmək deməkdir. Böyük humanist mütəfəkkir istəyirdi ki, onun doğma oxucuları jurnaldan faydalansınlar.

Jurnal cəmisi bir il yaşadı. 1906-cı il noyabrın 2-dən, 1907-ci il noyabrın 1-nə kimi 32 nömrəsi çıxmışdı.

Sovetlər dövründə bu faydalı jurnalı birtərəfli olaraq pisləmiş, onu "pantürkist", "panislamist" mürtəce ruhlu jurnal adlandırmışdıq.

Dilimizdə işlənən "ənənə" sözü ərəb mənşəlidir və rəvayət vasitəsilə nəsildən-nəsilə keçən hər hansı bir şey mənasındadır. Bəzən bunu elə "adət" mənasında da işlədir və çox vaxt belə bir ifadə də işlədilir: "adət və ənənə".

Ənənə tez-tez dəyişmir və dəyişə də bilməz. Burada müəyyən bir mühafizəkarlıq, sabitlik vardır. Amma bu heç də müəyyən novatorluğun olmasını da inkar etmir. Ənənəyə əməl etməklə yaradıcı mövqe tutmaq, novatorluq etmək olar. Ənənəyə sadiqlik heç də mexaniki yamsılama, təqlid deyil. Ənənə çərçivəsində yenisini yaratmaq olar və bu mümkündür.

"Füyuzat" jurnalına xas olan cəhətlərdən biri də onun ənənələrə əməl etməsi idi. Əlbəttə ki, faydalı ənənələrə. Ən böyük, ən geniş əlaqələr, varislik, ənənələr ictimai şüurun müxtəlif formalarında: elm, fəlsəfə, din, siyasət, əxlaq və bədii yaradıcılıqda (ədəbiyyat və sənətdə) olur. Bunları danmaq, inkar etmək düzgün deyil, əsla, qətiyyən düz deyil, əslində qanunauyğunluğun əleyhinə getməkdir. Amma təəssüflər ki, belə hallar olur.

Şərq və Qərb arasında həmişə güclü əlaqələr, qarşılıqlı təsir olmuşdur. Hansının daha güclü, daha çox təsir etdiyini söyləmək çətindir, əslində heç mümkün də deyil. Mümkün olan isə ayrı-ayrı dövrləri nəzərdən keçirdikdə tam dəqiq olmasa da, təxmini surətdə deyə bilərik ki, Şərqin Qərbə təsiri qədim dövrdə, ilkin orta əsrlərdə və intibah dövründə, qərb isə xüsusən yeni dövrdə daha güclü olmuşdur. Ədəbiyyat və incəsənətdəki təsir növ və janrlardan asılı olmuşdur. Ayrılıqda götürdükdə deyə bilərik ki, bədii ədəbiyyat sahəsində Şərq daha çox poeziyada, Qərb isə prozada, musiqi aləmində Şərq daha çox muğamlarla, rəqsin bir çox növlərilə, Qərb isə opera, balet, caz və estrada musiqisilə, simfonik musiqilə təsir etmişdir. Teatr, dramaturgiya, opera, balet, caz və estrada Qərbdə yarandığından, Qərb ölkələrində daha geniş inkişaf mərhələsi keçdiyindən bu sahələrdə onun təsiri daha böyük olmuşdur. Muğam musiqisi, xalq havalarının bir çoxu Şərqdə yarandığından və burada daha geniş vüsət aldığından Şərqin bu sahədə təsiri daha güclü olmuşdur. Şərqin tar, kamança, ud, dəf, tütək və s. kimi digər alətləri, Qərbin isə piano, fleyta, klarnet, saksafon, vilançel, skripka və digər alətləri daha məşhur olmuşdur.

Digər sahələrdə də belədir. Məsələn, indi geniş vüsət tapmış idmanı götürək. Güləşmə, daş qaldırma, at çapma, şahmat, şətrənc, nərd kimi zehni stolüstü oyunlar bir qayda olaraq Şərqdə, gimnastika, yüngül atletika, futbol, voleybol, basketbol, su polosu kimi oyunlar isə qərbdə daha çox yayılmış, daha populyar olmuşdur.

Coğrafi mövqeyimiz elədir ki, bizə hər iki aləmin: Şərq aləminin də, Qərb aləminin də əlaqə və təsiri güclü olmuşdur. Tariximiz də bunu göstərir. Nizami ilə Qərb dünyası, xüsusən, Yunanıstan, yunan mədəniyyəti arasında güclü əlaqə var. Həmçinin Şərqlə də, ələlxüsus İranla, Ərəb ölkələrilə, Hindistanla.

Qərb Nizamiyə, Füzuliyə böyük maraq göstərmişdir. İranın Firdovsi, Xəyyam, Sədi, Hafız, Orta Asiyanın, Farabi, Biruni, İbn-Sina, Əlişir Nəvai, Türk və Fars dünyasının Cəlaləddin Rumi kimi klassikləri Qərbin, Avropanın diqqət mərkəzində olmuşdur.

Bu baxımdan "Avropasentrizm" deyilən məsələyə münasibətimi bildirmək istərdim. Sovetlər dövründə Qərb dünyasına mənfi münasibət üzündən biz bu nəzəriyyəni birtərəfli olaraq yalnız pisləyir, onu mürtəce bir hal sayırdıq, Qərbin müstəmləkəçilik, Şərqə xor, həqarətlə baxmağının təzahürü sayırdıq. Məsələn, Hegeli Şərq xalqlarına, ərəb mədəniyyətinə, fəlsəfəsinə xor münasibət bəsləməkdə təqsirləndirir, pisləyirdik. Əslində isə belə deyildi. Hegelin "Avesta" haqqında, Nizami haqqında, Hafız haqqında, Şərq lirikası barədə çox gözəl fikirləri var.

Avropanın Dante, Şekspir, Höte, Kant, Montesskiye, Rusiyanın Puşkin, Dostoyevski, Tolstoy kimi nəhəngləri Şərqə gözəl münasibət bəsləmişlər. Şərqin, o cümlədən bizim də qərbə yaxşı münasibətimiz olmuşdur.

"Füyuzat"ın banisi Əlibəy Hüseynzadə, Əhməd bəy Ağa oğlu kimi alim və mütəfəkkirlərimizin də bu sahədə fəaliyyətləri olduqca maraqlıdır. Çox maraqlıdır ki, onlar böyük vətənpərvər, millətsevər olmaları ilə yanaşı, doğma Azərbaycan xalqını sonsuz məhəbbətlə sevmələri, Azərbaycan milləti üçün nə lazımdırsa, onu məhəbbətlə etmələri ilə yanaşı Avropanı, avropaçılığı da sevmiş, təbliğ etmişlər. Onların eləcə də M.Ə.Rəsulzadənin arzusu idi ki, biz türkçülüklə azərbaycançılığı, islamçılıqla yanaşı həm də müasirləşək, avropalaşaq. Bəli, bu gözəl ideya, bu faydalı üçlük bayrağımızda da əks olunmuşdur.

Bütün bunlar "Füyuzat"ın ruhuna, əli bəylərin, Əhməd bəylərin ruhuna uyğundur və biz də bunu bərpa olunan "Füyuzat"da geniş əks etdirməliyik. Bu da çox faydalı olan ənənədir və geniş şəkildə davam etdirilməlidir.

Əli bəy də, Əhməd bəy də hərtərəfli biliklərə malik olan alimlər, mütəfəkkirlər idi. Onlar öz doğma Azərbaycan dilindən başqa ərəb, fars dillərini, rus dilini, Avropa dillərini mükəmməl bilirdilər.

Əlibəy ensiklopedik zəkaya, həm də ensiklopedik yaradıcılığa malik olan hərtərəfli, böyük şəxsiyyət idi. Tbilisidə gimnaziya bitirmiş, Peterburq universitetinin fizika-riyaziyyat fakültəsində təhsil almış, İstanbulda ali hərbi tibb məktəbini bitirmişdi. O, görkəmli alim, mütəfəkkir, yazıçı, jurnalist, publisist, müəllim, ictimai xadim, mütərcim idi. Həm də mahir rəssam olmuş, onun Bibi heybət məscidini təsvir edən tablosu Azərbaycan Dövlət İncəsənət muzeyində saxlanılır. Musiqini, sənətin bir çox növlərini yaxşı bilən mütəxəssis olmuşdur.

"Siyasəti-fürusət", "Türklər kimdir" kimi dərin fəlsəfi və ictimai-siyasi məzmunlu əsərlərin müəllifi olan Əlibəy Hüseynzadəni biz haqlı olaraq görkəmli filosof, mütəfəkkir, politoloq, sosioloq da adlandıra bilərik.

Öz doğma elini, öz doğma dilini və mədəniyyətini, Nizamisini, Füzulisini, Sabirini, Cavidini, Cəfərini, Üzeyirini, Qarasını, muğamlarını, Sultan Məhəmmədini, Əzimzadəsini, Kəngərlisini sevən, Danteni də, Şekspiri də, Bayronu da, Bethoveni də, Puşkini də, Tolstoyu da, Şərq dünyasını İbn-Sina, Firdovsi, Xəyyam, Sədi, Hafiz, Cami, Nəvai kimi dühalarını da sevməyi bacarmalı və sevdirməlidir.

Bu da jurnalın səhifələrində ənənə kimi yüksək səviyyədə öz geniş əksini tapmalıdır.

Vətənimizi, doğma xalqımızı, müstəqil Azərbaycanımızı sonsuz məhəbbətlə sevməklə yanaşı, Qərb və Şərq dünyasına, dünya mədəniyyətinə də istəklə, sevgi və hörmətlə yanaşmalıyıq.

Gəlin, tariximizin şanlı səhifələrini xalqa çatdırmaqda geniş işlər aparaq. Şanlı keçmişimizi təbliğ edək, xalqa, xüsusən, gənclərə milli qürur hissləri aşılayaq. Amma bəzi kölgəli hallar olubsa, bəzən qüsurlara yol vermişiksə, onu da deyək. Şəffaflıq, aşkarlıq, yalnız həqiqətə əsaslanaraq daim bizimlə olmalı, onları heç vaxt unutmamalıyıq.

Birini tərifləyərkən və ya şişirdərkən birtərəfli mövqe tutmayaq. Mirzə Kazım bəy böyük alim, böyük mütəfəkkir, Rusiyada şərqşünaslıq elminin banisi idi. Tərifə layiq şəxsdir. Amma bu da həqiqətdir ki, sevdiyi qız xatirinə xristianlığı qəbul etmiş, müsəlmanlıqdan dönmüşdü. Zəmanəmizdə general Heybətov da belə hərəkət etdi, "Zuvyanova" oldu.

Mir Cəfər Bağırov bir çox zərərli işlər gördü, kütləvi repressiyaların təşkilatçılarından oldu, ziyalılara divan tutdu, bir sıra görkəmli adamlarımız onun adı ilə bağlıdır. Amma bu da həqiqətdir ki, 1942-ci ildə alman faşist ordusu şimali qafqazı işğal etdiyi zaman azərbaycanlıların büsbütün, bütünlüklə sürgün edilməsinin qarşısını aldı.

Latın əlifbasına keçmək (düzünü desək, qayıtmaq bu məsələdə də biz bərpa yolunu, ənənəni davam etdirmək yolunu tutduq), latın qrafikli yazılar məsələsinə keçmək də çox maraqlı oldu. Tərəfdarları çox olsa da, istəməyənləri də var idi. Hələ sovetlərin son ilində (1990-1991) bu məsələ qalxdı. O vaxt mən müşavir vəzifəsində olduğumdan bu işə rəhbərlik edənlərdən biri idim. Çox mübahisə və müzakirələrdən sonra 1991-ci ildə bunu qəbul etdik. Amma keçid uzun çəkdi, ləngidik. Hesab edirik ki, bunu 1994-cü ildə tamamlaya bilərik. Amma belə olmadı. 1994-cü ildə də keçdi, sonrakı illər də. Yenə də Heydər Əliyevin əzmkarlığı, iradə və nüfuzu öz işini gördü. O, iradi qərarı qəbul etdi, qərar verdi ki, 2001-ci ildən avqustun 1-dən hamı bu əlifbaya keçsin icbari şəkildə. Vaxtilə Atatürk də belə hərəkət etmişdi. 1928-1929-cu tədris ilində bu məsələ Türkiyədə irəli sürüldü. Böyük Atatürk görkəmli adamları, ziyalı və məmurları, elm və mədəniyyət xadimlərini İstanbulda Qızburnu kazinosuna topladı. Yeniyetmə bir gənci lövhəyə çağırdı, ona 5-6 cümlə söyləyib dedi ki, bunları latın hərflərilə yaz və oxu. Gənc hıqqana-hıqqana, heca ilə oxudu, təsiri alınmadı. Atatürk xoşunuza gəldimi soruşanda "iyi" deyən olmadı. Onda özü lövhəyə çıxdı, deyilənləri gözəl bir xətlə yazdı və oxudu. Hamının xoşuna gəldi, hamı bir ağızdan "iyi" dedi. O isə "madam iyi deyirsiniz, onda sabahdan Türkiyə keçdi bu əlifbaya" dedi və elə də oldu. Həmin il, ertəsi gün noyabrın 1-də Böyük Millət Məclisi Türkiyənin bu əlifbaya keçməsini qərara aldı. Atatürkün iradəsi öz işini gördü. İstər o vaxt Türkiyədə Atatürkün, istərsə də 2001-ci ildə Azərbaycanda Heydər Əliyevin güc və nüfuzu öz tarixi rolunu oynadı. Hər iki qardaş ölkə latın əlifbasına keçildi ki, bu da iki böyük öndərin iradəsi nəticəsində mümkün oldu. Bax, bu həqiqətlərdən, belə ənənələrdən danışmaq yeni "Füyuzat"da öz geniş əksini tapmalıdır.

Gözəl lirik şeirlərin, əsl məhəbbət poeziyasının qüdrətli nəğməkarı, həm də Stalinə, sosializmə, Oktyabra, 1 Maya, 28 aprelə həsr olunmuş şeirlərin müəllifi olan gənc Müşfiq "əks inqilabçı", "qəddar millətçi", "mürtəce şair", "imperializmin nökəri" ola bilərdimi? Əlbəttə ki, yox. Amma bu böhtan, bu iftiranı bizə tələqin etmiş, ona bizi inandıra bilmişdilər. Bu, güclü təbliğatdan, həm də qorxudan, təhlükədən gələn məsələ idi. Əsrlər boyu məhəbbətdən, aşiqdən, əsl bəşəri duyğulardan bəhs edən aşıq poeziyası görünməmiş deformasiyaya uğramış misilsiz məddahlıq xəstəliyinə tutulmuşdu. Aşıqlar sevgidən, aşiqdən, məşuq və məşuqədən deyil, güldən-çiçəkdən deyil, dağdan, çəməndən, ceyrandan, maraldan, kəklikdən deyil, Lenindən, Stalindən, Oktyabrdan, kolxozdan, sosializmdən partiya və komsomoldan bəhs edirdilər.

Gün ərzində işıq görməyən və ya onu cəmisi bir neçə saatlığa görən kəndlərimizin işığa qərq olduğunu, hər yerdə "İliç lampalarının yandığını" söyləyir, "işıqlıdır lampaları kolxozun" deyə, "kolxozçunun döşündə Lenin ordeninin parıldaması" barədə gülünc sözlər söyləyirdilər.

Hər şeyi həqiqətə uyğun, gerçəklikdə olduğu kimi söyləməliyik. Bu əsl insanlıq, əsl bəşərilik, əsl vicdan, əsl kişilik tələb edir.

Gəlin, Leninə də, Stalinə də əsl elmi dəyərlər baxımından yanaşaq. Gördükləri müsbət işləri qiymətləndirək. Bağışlanılmaz hərəkətlərini, törətdiklərini, ziyan verdiklərini isə qətiyyətlə pisləyək, tənqid və ifşa edək. Sabir demişkən, düzə-düz, yalana-yalan deyək.

Bax, "Füyuzat" bizlərdən bunu tələb edir. Düzü-düz, həmvari-həmvar, əyrini-əyri yazaq. Əlibəyin Füyuzatı kimi düz olaq, düz oturaq, düz yazaq.

Əlaqələr kök saldıqda, varislik güclü olduqda ənənələr, təbii ki, daha davamlı, daha uzun müddətli olur. Xüsusən, din sahəsində, ədəbiyyat və sənət sahəsində, məsələn, ədəbi məktəbləri götürək. Bizdə uzun müddət davam edən Nizami, Füzuli ədəbi məktəbləri var və onlar uzun müddət, fəaliyyət göstərmiş və indi də göstərirlər.

Nizami ədəbi məktəbi bir neçə əsr davam etdi, Füzuli ədəbi məktəbi 5 əsrdir ki, fəaliyyət göstərir, Sabir məktəbi, "Molla Nəsrəddin" məktəbi də həmçinin.

İngiltərədə intibah dövründən gələn Şekspir məktəbi, XIX əsrin əvvələrindən gələn Bayron məktəbi var və s. Rusiyada Puşkindən, Tolstoydan gələn ənənələr və b. var.

Xülasə, ədəbiyyat sahəsində davamlı, tutarlı ənənələr var. Elə digər sahələrdə də onları izah etmək, aydınlaşdırmaq "Füyuzat"dan gələn ənənədir və biz bunları nəzərə almalıyıq, özü də yaradıcı şəkildə.

Ənənə hər bir sahədə olub. Lap son dərəcə vacib, əslində həlledici əhəmiyyəti olan müstəqillik məsələsini götürək. Müstəqilliyin nə qədər böyük siyasi məsələ olduğu, dövlət və dövlətçilik məsələsi olduğu hamıya bəllidir. Tarixdə müstəqil dövlətlərimiz olub. Lap qədim dövrdə də, eramızdan əvvəl də, orta əsrlərdə də və XX əsrdə də. İndiki və ədəbi qalacağına daimi olacağına, dönməz olacağına heç bir şübhəmiz olmayan Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş AXC-nin davamı, varisidir. Odur ki, AXC ilə və indiki müstəqil dövlətimizlə bağlı olan məsələləri, bu sahədə olan ənənələri geniş işıqlandırmalı, dönə-dönə bu məsələni izah etməliyik. Qoy bu mühüm məsələ yeni "Füyuzat" jurnalında öz geniş və müntəzəm əksini tapsın. Müstəqilliyi izah və təbliğ etməkdən heç vaxt yorulmayaq. AXC haqqında M.Ə.Rəsulzadənin, Əli Mərdan bəy Topçubaşovun xan Xoyskinin, Ceyhunbəy Hacıbəylinin, Üzeyir bəyin gözəl yazıları var.

Alimlərimizin, xüsusən, tarixçi, filosof və hüquq-şünaslarımızın qiymətli işləri var. Onların və yeni yazıların jurnalda geniş yer tutması vacib məsələdir və daim biz bu işlə məşğul olmalıyıq. AXC-nin tarixini, rolunu, əhəmiyyətini tədqiq edənlər də az olmayıb.

Sənətdəki ənənələrə də mühüm yer verilməli, onları da geniş işıqlandırmalıyıq. Elə iki mühüm sahə timsalında buna bir qədər ətraflı toxunaq. Təsviri sənət nümunəsi, məişət sənəti nümunəsi olan xalçaçılıqda və musiqidə, xüsusən, muğamlarda;

Xalçaçılıq bizdə həmişə dəbdə olub, yüksək səviyyədə olub və bizə dünya şöhrəti gətirib. Bakı, Qarabağ, Gəncə, Quba, Qazax, Şəki, Naxçıvan, Ərdəbil, Təbriz, Xoy və digər şəhərlərimizin, yerlərimizin xalçaları bütün dünyada məşhurdur.

Sevindiricidir ki, biz bu gözəl sənəti sovetlər dövründə də davam etdirmiş, indi müstəqillik şəraitində də uğurla davam etdiririk. Muğam sənəti böyük bir aləm, ecazkar bir dünyadır. Bu sənət bizdə həmişə yüksək səviyyədə olmuş, sənətkarlarımızı, xüsusən, bəstəkar və xanəndələrimizi daim düşündürmüşdür. İlk operamız da muğamlar əsasında yarandı, ilk simfonik muğamlarımız oldu. Bu zəngin aləmdən Üzeyir kimi, Qara kimi, Fikrət kimi, Cövdət kimi, Niyazi kimi bəstəkarlarımız geniş istifadə etdilər. Uğurlarımız oldu. Müğamların ifasında da Qurban Pirimov kimi, Bəhram Mansurov kimi tarzənlərin, Əhəd kimi, Teyyub Dəmirov kimi qarmon, Nadir Axundov kimi klarnet ustasının ifaçılığı buna parlaq nümunədir. Keçəçi oğlunun, Cabbar Qaryağdının, Bülbülün, Zülfünün və başqalarının oxu ifaçılığı dünyanı heyran qoyurdu. (Biz yalnız dünyasını dəyişənləri qeyd etdik. İndi bizimlə yaşayıb yaradan qüdrətli sənətkarlarımız da az deyil).

Biz muğam ənənələrini yaradıcılıqla inkişaf etdirməli, bu tükənməz xəzinədən bəhrələnməliyik. Bu sahədəki ənənələr də jurnalda geniş işıqlandırılmalıdır.

Vətənpərvərlik məsələsi də öz yeni, dolğun və əsl elmi izahatını tapmalıdır. O, dərin ictimai-siyasi hiss, yüksək mənəvi-əxlaqi hiss və duşuncə, qeyrət, namus, millətlə, doğma xalqla, el ilə, ata-ana ilə sıx bağlı olsa da, burada yalnız siyasi mövqe, siyasi xətt və istiqamət, ideologiya və inamın xarakteri həlledici rol oynayır.

Gəlin, bunlardan danışaq, bunları təbliğ edək. Yeni "Füyuzat" bunları bizdən tələb edir. Nə üçün biz bərpa olunmuş bu jurnalda öz milli məfkurəmizi, Azərbaycan fəlsəfi və ictimai fikrinin Bəhmənyar, Xaqani, Nizami, Nəsimi, Füzuli, A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, Sabir, C.Məmmədquluzadə, elə Əli bəy Hüseynzadənin özünü, Əhməd Ağa oğlunu, Nəriman Nərimanovu, sovet dövründən Ruhulla Axundovu, Heydər Hüseynovu, bizim də qədim abidələrimizi, zəngin folklorumuzu, klassik poeziyamızı, musiqimizin Üzeyir, Qara, Fikrət kimi ölməz kolifeylərini H.Cavid, M.Müşfiq, S.Vurğun, S.Rüstəm, Şəhriyar, M.S.Ordubadi, M.İbrahimov kimi böyük ədiblərini, teatr sənətimizin Hüseyn Ərəblinski, Abbas Mirzə, Ülvi Rəcəb, Mirzağa Əliyev, Sidqi Ruhulla, Ələsgər Ələkbərov kimi ölməz nümayəndələri, İsmayıl Hidayətzadə, Adil İskəndərov, Mehdi Məmmədov kimi görkəmli rejisorlarını, qədim və zəngin dilimizi (hamısı azərbaycançılığa aid məsələlərdir) dünya şöhrətli siyasi xadim və dövlət rəhbəri kimi Heydər Əliyevi, tariximizin Atabəylər Şah İsmayıl, Fətəli Xan, Cavad xan kimi qüdrətli adamlarını geniş təbliğ etməyək?

Nə üçün oxuculara bildirməyək ki, dünya tarixində, türkdilli xalqlar sırasında, müsəlman aləmində ilk dramaturgiya, teatr, müasir ruhu peşəkar fəlsəfə, yeni realist ədəbiyyat, opera, balet, ilk müasir tipli dövlət yaradan bizik, biz azərbaycanlılarıq?

Latın əlifbasına keçməyi ilk irəli sürən bizik? Bunları söyləmək əsl azərbaycanlılıq deyilmi?

Qurani Kərimi təbliğ etmək, onu öz doğma dilimizdə xalqa çatdırmaq, İslamı, Peyğəmbərimizi Mühəmməd Əleyhissəlamı, həzrəti Əlini, Fatiməni, imamları təbliğ və tərifləmək, hədisləri təbliğ etmək, dini-mənəvi adət və ənənələri qoruyub saxlamaq, daha da irəli aparmaq, Türkiyə, İran, ərəb ölkələri, Pakistan, MDB ölkələrindən Ozbəkistan, Qazaxstan kimi dövlətlərlə və başqaları ilə dostluq və əməkdaşlıq etmək əsl islamçılıq deyilmi?

Qərbin ABŞ kimi, Kanada kimi, Qərbi Avropanın Fransa, İngiltərə, Almaniya, İtaliya, İspaniya, Skandinav və Benilüks ölkələri kimi inkişaf etmiş dövlətlərilə və başqa Avropa ölkələrilə dostluq və əməkdaşlıq etmək, Avropa Şurasına daxil olmaq, Rusiya ilə dostluq və əməkdaşlıq etmək əsl Qərblik, əsl Avropalaşma əsl müasirlilik deyilmi?

Bu ideyalar üç rəngli bayrağımızda öz əksini tapıb. Bayrağımız azərbaycançılıq, islamlaşma və müasirliyin (Avropalaşmaq) vahid bir bütöv halında, vəhdət halında birləşdirməyi göstərir.

Bütün bunları yeni "Füyuzat"da əks etdirsək bu onun gözəl ənənələrinə, Əlibəyçiliyə, onun ölməz ruhuna əsl hörmət, əsl sədaqət olar.

Sovetlər dövründə ənənə məsələsinə münasibət də birtərəfli idi, qərəzli idi. Bolşevik ideologiyası ənənələrin sinfi xarakter daşıdığını xüsusilə vurğulayırdı. Əsrlər boyu davam edən ədəbi ənənələrin və ya dini, əxlaqi-mənəvi ənənələrin sinfiliyinə nə dəxli var? Füzuli ənənələrini XIX əsrdə, hələ feodal-patriarxal münasibətlərinin hökm sürdüyü şəraitdə Seyid Əzim, XX əsrdə və sovet dövründə Ələğa Vahid, indi, müstəqillik şəraitində isə cavan qəzəlxan şairlər davam etdirir. Burada hansı sinfilik, hansı partiyalılıqdan danışmaq olar? Mirzə Fətəlinin dramaturgiyada yaratdığı məktəbi, ənənələri XIX əsrdə N.Vəzirov, XX əsrdə Ə. Haqverdiyev, S.Sani Axundov, sovet dövründə C.Cabbarlı, daha sonralar isə Sabit Rəhman və başqaları davam etdirib. Burada hansı sinfilik, hansı partiyalılıq olub? Aydındır ki, ənənələr haqda bolşevik təbliğatının irəli sürdüyü bir şey, gerçəklikdə olan hallar isə başqa bir şeydir.

Dini, milli-mənəvi və əxlaqi ənənələrə əməl etməkdə hansı sinfilik ola bilər? Bu hər bir kəsə, fəhləyə də, kəndliyə də, burjuaziyaya da aid ola bilər, kommunistə də, bitərəfə də, kişiyə də, qadına da, cavana da, qocaya da.

Vətənpərvərlik ənənələri hər ölkədə, hər bir quruluşda var, ola bilər.

Fəlsəfə sahəsində uzun əsrlərdən bəhs edən ənənələrdən biri də budur ki, Şərqdə, müsəlman ölkələrində, o cümlədən bizdə Azərbaycanda da, fəlsəfi təfəkkürlə bədii təfəkkür culğalaşmış, vəhdət təşkil etmiş, bəhəm olmuşlar. Böyük şairlər, ədiblər, həm də böyük mütəfəkkir, filosof idilər. Məsələn, Nizami, Nəsimi, Füzuli, daha sonralar M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, zəmanəmizdə Cavid və başqaları. Filosoflarımız fəlsəfə tarixçilərimiz bunu nəzərə almış, ədiblər fəlsəfi yaradıcılıqdan geniş bəhs etmiş, ədəbiyyatın fəlsəfi problemlərilə məşğul olmuşlar. Məsələn, Heydər Hüseynovun, Mehbalı Qasımovun, Firudin Köçərlinin bir çox əsərləri buna misaldır.

Fəlsəfə və ədəbiyyat, fəlsəfə və sənət məsələsi bundan sonra da bizi geniş düşündürməli və bu öz əksini "Füyuzat"ın səhifələrində tapmalıdır. Bu ənənə yaşamalı və inkişaf etməlidir. Özü də bu məsələ təkcə milli ədəbiyyatımızla məhdud olmamalı, digər xalqların milli ədəbiyyatlarına da aid olmalıdır. Yeri gəlmişkən deyim ki, "Füyuzat"ın yaradıcısı Əli bəy Hüseynzadə bu sahədə də nümunədir. O, Qərbi Avropa, Rus və Şərq ədəbiyyatını dərindən bilir, onların qarşılıqlı əlaqəsini geniş ölçüdə nəzərə alırdı. Bu əlaqələr isə geniş və zəngindir. Deyək ki, Nizami və Qərb, Şekspir ve Firdovsi, İtaliya ədəbiyyatı və Şərq, İspan ədəbiyyatı və Şərq, Şərq və Dante, Höte və Şərq, Hegel və Şərq ədəbiyyatı, Marks və Engelsin əsərlərində Şərq məsələləri, Puşkin və Şərq, Tolstoy və müsəlman dünyası və s. kimi mövzular bizi düşündürməli, Qərb-Şərq məsələlərilə ciddi məşğul olmalıyıq. Bayram ənənələrinə, dini sahədə olan bayram və mərasimlərə müraciət edək. Üç min ildir ki, biz Novruz bayramını ənənəvi olaraq geniş qeyd edirik. 1400 ildən çoxdur ki, Ramazan (Orucluq) bayramı, Qurban bayramı qeyd olunur. Cəmiyyətin bütün üzvləri tərəfindən, cavan və qoca olmasından, kişi və qadın olmasından asılı olmayaraq hamı tərəfindən, hansı siyasi qayə və ya məqsəddən asılı olmayaraq hamı tərəfindən qeyd olunur. Burada hansı sinfilik, hansı partiyalılıq var?

Məsələn: keçək digər sahələrdəki ənənələrə. İqtisadiyyatda və təhsildə olan ənənələr məsələsini götürək. Bu gün "Çıraq"dan və digər mənbələrdən çıxarılan neft 1948-1949-cu illərdə dənizdə baş vermiş ilk hasilatların davamı, bu işdə faydalı ənənələrin daha da inkişaf etdirilməsidir. O, vaxt biz və bir də Venesuella bu işin ilk yaradıcıları, baniləri olduq. Biz "Neft daşlarını" kəşf etdik, dənizdə neft hasilatının piyonu olduq. Venesuellada da bu iş təşkil olundu. O vaxt Venesuellanın SSRİ-dəki səfiri Bakıya gəldi, işimizlə tanış oldu, bu məsələ barədə danışdı.

İndi Azərbaycanda hasil olan neftin çox hissəsi dənizin altından çıxarılır. Bu sahə bizə çox gəlir gətirir. Ənənəyə əlavə edilən yenilik ondan ibarətdir ki, indi neft təkcə bizim iştirakımızla deyil, həm də bir sıra xarici şirkətlərin qoyduğu sərmayələr hesabınadır. Əlbətdə ki, bu işi davam etdirib, daha da irəli aparacağıq, xaricə göndərəcəyik. Bakı-Tbilisi-Ceyhan buna parlaq nümunədir. Gözəl ənənədir və xalqımızın xeyrinə olan böyük işdir.

Liberal maarifçi-demokrat səviyyəsində ictimai-siyasi fəaliyyət göstərən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağa oğlu, Məmməd Əmin Rəsulzadə böyük vətənpərvər, millətsevər şəxslər idi. Vətənpərvərlik onların qanına, iliyinə hopmuş, onların qəlbinə hakim kəsilmişdi. Bu hər şeydə: onların elmi-nəzəri və praktiki fəaliyyətində, həyatda, məişətlərində özünü büsbütün, tam aydınlığı ilə göstərirdi. İkicə təsirli faktı xatırladım. 1913-cü ildə Türkiyəyə gedən Əlibəy Bakıda dost və həmkarları ilə olan ziyafətdə süfrəyə plov gələrkən deyir ki, "icazə verin mən bu aşı milli adətimizlə əlimlə yeyim. Bəlkə bir daha Bakıya gələ bilmədim. Qoy axırıncı dəfə öz doğma adətimizə əməl edim".

M.Ə.Rəsulzadə isə gözlərini əbədi yumub əbədiyyətə qovuşanda sonuncu sözləri bu olmuşdu: "Azərbaycan, Azərbaycan, Azərbaycan!".

Ədəbi tənqid sahəsində Mirzə Fətəlidən gələn ənənələrimiz var. Musiqi yaradıcılığında dahi Üzeyirdən, sonralar Qara Qarayevdən, Fikrət Əmirovdan gələn ənənələr və b. var.

Elə yenə də ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində, mədəniyyət sahəsində, mütərəqqi jurnalistika, publitistika sahəsində Əlibəy Hüseynzadədən, Əhməd bəy Ağa oğlundan gələn ənənələrimiz var ki, bütün bunları nəzərə almaq, onlara əməl etmək, onları geniş şəkildə izah və təbliğ etmək faydalı bir işdir və bərpa olunmuş "Füyuzat" jurnalında geniş yer tutmalıdır.

Folklorumuzda da ənənələr böyük və zəngindir. Nizami, Füzuli, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, C.Cabbarlı, Üzeyir kimi ölməz dühalarımız folklora dərin hörmətlə, məhəbbətlə yanaşmış, zərbül-məsəllərdən atalar sözündən, dastan və rəvayətlərdən xatirə və əfsanələrdən geniş istifadə etmişlər. Bu sahədə ənənəni davam etdirmək borcumuzdur və çalışmalıyıq ki, bu mühüm məsələ yeni "Füyuzat" jurnalında geniş əks olunsun.

Ana

Hər cür fəzilətin, tərbiyənin beşiyi, ailə ocağının səadət keşikçisi anadır. O, şəfqət qəhrəmanı, eşq-məhəbbət rəmzi və əxlaq memarıdır. İnsan onun dünyasında bu fani aləmə hazırlaşır. Odur nəsilləri yetişdirən. Odur gecəni sübhə qədər beşik başında keşik çəkən. Təmənnasız olaraq şirin canını övladı üçün əsirgəməyən, qısa ömrünü onun böyüməsinə sərf edən səmavi bir mələkdir ana...

Ana cəmiyyət və xalq üçün insan böyüdür, ona əxlaq, elm verir ki, övladı idrakı ilə bəşəriyyəti cəhalətdən, qəflətdən xilas etsin.



Analar tamamilə bütün toplumların səadət yolunu çəkən, dünyada ikən onlara behişt nemətlərini dadızdıran könül insanlarıdır. Onlar, bu müqəddəs missiyaya məsum körpəsi beşikdə ikən başlayır.

Analar bəşəriyyətin əxlaq zəmanətçiləri, ruh və mənəviyyat qurucularıdır. Mənəviyyatı, əxlaqı üstün olan millət əzilməz, tarixini ləkələtməz, ömür xəritəsini əbədi olaraq çəkər.

Kainatda şah əsər olan insan, anaya əmanət olaraq tapşırıldı. O, uca varlıq da sanki iki canda bir ürək kimi onu bəsləyir. Peyğəmbərləri, imamları, övliyaları, alimləri, fatehləri yetişdirən, onlara ilk müəllim, ustadə olan Analardır. Bu yenilməz vəzifənin müqabilində ruhani aləmin məxluqları olan mələklər onlar üçün istiğfar edər, Allahın sonsuz qüdrətinə etimadın ifadəsi olaraq məğfirət diləyərlər.

Analar ismət, həya abidələri, cənnət onların ayaqları altında olmaları ilə İlahi dərgahda uca mərtəbələrə layiqdirlər. Başqa canlıların da anaları var. Onlar da bu ülvi hissi daşıyırlar. Necə ki, bir toyuq cücələrini qorumaq naminə özündən qat-qat güclülərlə qarşı-qarşıya gəlir.

Nəticə olaraq deyə bilərik ki, cənnət məkan olan yer kürəmizdə sağlam atmosfer, intellektual nəsil, əminamanlıq, görmək üçün analara möhtacıq. Həzrəti Məhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm) bir hədisində "Cənnət Analaların ayaqları altındadır" buyurmuşdur...

Analar bəşəriyyətin əxlaq zəmanətçiləri, ruh və mənəviyyat qurucularıdır...

Necə haqqıyla anar,
vəsf edər ki,
Söz səni...





Aləmlərə rəhmət Həzrəti MUHƏMMƏD

sallallahu aleyhi va alihi va sallam

MUXTAR CƏFƏRLİ

Dünyamıza təşrif gətirəndən bəri haqqında ən çox danışılan insan şübhəsiz ki, Həzrət-i Muhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm)-dir. Allah Təala ona "Sən olmasaydın aləmləri yaratmazdım" buyurdu. Həqiqətən də Həzrət-i Muhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm) olmasaydı, aləmlər də olmaz, biz də olmazdıq. O olmasaydı yapadılış sirrini heç bir zaman bilməzdik. Həzrət-i Şuəybin səhifələrində onun adı Muhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm) mənasında "Müşəffəh", Tövratda Muhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm) mənasında "Munhəmənna", Zəburda adı "Muxtar" dır. Yenə də İncildə "Sahibut Tac" ismi Həzrət-i Muhəmmədə (səlləllahu əleyhi və alihi vəsəlləm) məxsusdur.

O, rəsulların seyidi, nəbilərin imamı, əsfiyanın sərvəri, (Allaha) yaxınların yaxını, məxluqatın ən kamili, mürşidlərin, rəhbərlərin sultanıdır.

Hələ peyğəmbərlik vəzifəsi verilməmiş Məkkə müşrikləri Ona "Əmin" deyirdilər. Ən şiddətli düşmənləri belə Onun peyğəmbərliyini inkar edərkən şəxsiyyəti üçün artıq bir söz söyləməkdən daima qaçdılar və Onun fəzilətini, ucalığını və mürüvvətini ifadə etməkdən çəkinmədilər. O, möminlər üçün də, müşriklər üçün də əmin, ən etibarlı insan idi.

Biz hamımız zülmətlər içində yaşadığımız bu aləmdə Allahı Onunla tanıdıq. Başımızın üzərinə yağan nemətləri Onun saçdığı nurlar sayəsində hiss etdik. Verilən nemətlərə şükr etməyi Ondan öyrəndik. Onun bizə öyrətdikləri sayəsində Rəbbimizlə münasibəti gözəl şəkildə idrak edə bildik.

O, yer üzərinə qədəm qoymadan əvvəl işıqla zülmət bir-birinə qarışmışdı. Güllər tikanlar içində itib batmışdı. Ruhlar susuz insanın susadığı kimi nura, işığa susamışdı. Onun bəsirətlərimizə saçdığı işıq sayəsində qaranlıq dünyamız nura qərq oldu.

Könüllər Sultanı Həzrət-i Muhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm) hər kəsin başını oxşayan, daima istəyənlərə yol göstərən və çətinliyə düşdüyümüz zaman da dadımıza çatan mərhəmət peyğəmbəri idi. Çünki Onun aləmlərə rəhmət olaraq göndərilməsi təkcə yaşadığı əsrə məxsus deyildir. Özündən əvvəl və sonrakı əsrlərdə də bütün insanlığı qucaqlamaq, öz rəhmət çətiri altına almaq və bunu qiyamətə qədər davam etdirmək üçün göndərilmişdir. Aradan bu qədər əsr keçməsinə baxmayaraq O, hələ də üfüqümüzdə yeni doğulmuş günəş kimi bütün məxluqatı aydınlada biləcək gücə sahib olan bir işıq qaynağıdır.

Məlumdur ki, Rəsulullah (səlləllahu əleyhi və alihi vəsəlləm) ümmətinə sahib çıxması, bəzən açıq şəkildə, bəzən gizli, bəzən xüsusi, bəzən də ümumi baş vermişdir. Bəzən oyaq olarkən, bəzən işarələrlə, bəzən də yuxumuza təşrif gətirərək.

O, bir sevgi insanı idi. Allah Təala Ona "Həbibim" demişdi. Sinəsini açıb sevgi göstərmədiyi insan qalmamışdı. İnsan nə zaman Onun iqliminə girsə, qanının sevgi ilə axdığını hiss edər. Bir gün Onun vəfatından sonra Ona sadiq insanlar, səhabələr Onunla bağlı xatirələrini danşarkən onlardan biri Ənəs başını aşağı salıb susur. Ya Ənəs! Sən niyə susursan?- soruşulanda "Onu görmədiyim bir gecə varmı?" – deyə cavab verir. Sevgi, bağlılıq belə olur.

Gecənin bir aləmi Rəsulullahın qapısı döyülür. Qapını açıb, qapını döyən adama: bu vaxt burada nə edirsən?- deyə soruşanda "Ya Rəsulallah! Uzanarkən Sən xatirimə gəldin. O yana, bu yana çevrildim, lakin yata bilmədim" – dedi. "Gəlib Səni görməsəm ürəyim yerindən çıxacaq-deyə düşündüm" – deyən səhabələr vardı.

Heç kimsəni incitməmişdi. Ona daş atanlara O gül atardı. Kəbədə səcdə edərkən başına dəvə bağırsaqları atdılar, bəd dua etmədi. Uhudda mübarək dişini qırdılar, yunə bəd dua etmədi. Yoluna tikan səpdilər, hər cür əzab və işgəncələr etdilər. Lakin yenə də bəddua etmədi. Ona düşmənlik edənlər üçün "Allahım! Onları doğru yola hidayət et!, onlara həqiqəti göstər! Onlar nə etdiklərini bilmirlər" deyə dua etdi. Hər zaman ümmətini düşündü. Meraca getdi və orada da "ümmətim, ümmətim" – dedi. Bunu Quran buyurur: "Sizə öz içinizdən elə bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz Ona ağır gəlir. Sizə çox hərisdir. Möminlərə qarşı isə çox şəfqətli və mərhəmətlidir." Hətta müşriklərlə müqavilə bağlayanda onlar müqaviləni pozmadıqca, O müqaviləni pozmadı. Zamanəmizdə isə Onun ümməti bir-birinə sən müşriksən, sənin namazın batildir, sənin orucun qəbul deyil, deyir. Bu ümmət nə qədər dəyişdi Ya Rəsulallah!

Onu öz yurdu Məkkədə rahat qoymadılar, Mədinəyə hicrət etdi. Məkkə Onun mehrabı, Mədinə Onun minbəri oldu. Amma Mədinə xalqı Ona sevgi sinələrini açdı. Bir gül oldu onların qəlbində. Bir gül oldu insanlığın qəlbində.

Gül ilə Onu anlatdıq, gül qoxusu ilə doldu dünyamız,

Sən bizim könlümüzün gülüsən ya Rəsulallah!
Sən Allahın rəhmətinin təcəllisisən ...
Könüllər sultanısan...
Mədinənin gülüsən...
Həqiqət çırağısan...
Hidayət günəşisən...
Eşq əhlinin sultanısan...
Varlığın çöhrəsindəki pərdəni qaldıransan...
Ac könüllərin süfrəsisən...
Kainata göndərilmiş hədiyyəsən...
Gözəlliklərin tək mərkəzisən...
Sevgin elə doldurdu ki, qəlblərimizi
Həsrətin elə yandırır ki, qəlblərimizi
Eşqin olmasa qəlblərimiz sevməyi öyrənə bilərdimi, ya Rəsulallah?

Füyuzat

Keçmişini, irsini, tarixini, mədəniyyətini qəlbinə hopdurmuş olan əyilməz, sınmaz, dağılmaz bir gəminin yolçularıyıq.

Bu gəmi çox möhkəmdir. Dəmirağac möhkəmliyi, Laçın qayasının sərtliyi, nəsildən-nəsilə ötürülən güc, müdrik qocaların nəsihətləri, Ağrı dağının ağırlığı var bu gəmidə.

Nənələrin əl işi, babaların qoyduğu iz, özündəkilərini anlamaq, sahib çıxmaq, əlindən alınmışları qaytarmaq, keçmişinin ruhaniyyətinin xeyr-duası ilə yola çıxır bu gəmi.

Uzaq məmləkətdə min ilməli, min naxışlı bir xalı var. Babalarımızın təri hopmuş bir saxsı qab var. Piltəsi itmiş bir çıraq, qulpu sınmış bir cəhrə, yağı alınmış bir nehrə, yazılmış bir kitab var. Biz sizinik deyir bu canlı tarixlər.

Onları özümüzünküləşdirmək üçün yola çıxır bu gəmi.

Azərbaycan məmləkətinin tozunu, torpağını müqəddəs bilən bir nəsildir bu gəminin yolçuları. Azərbaycanı dünyaya sevdirmək və bu məmləkətə xidmət etmək üçün yola çıxır bu gəmi.

Uzun əsirlik tariximizin varisi olaraq, insanlığın səadəti üçün, fitnə-fəsad törədənlərə qarşı islah edici bir düşüncənin sahibidir bu gəminin yolçuları. Bu düşüncəyə sahib olan insan "vətən" deyib, oturar, "vətən" deyib, qalxar.

Müayinə olmadığı yerdə müalicə də olmaz. Zəmanəmizin böyük mütəfəkkirlərindən biri; Bizim üç böyük xəstəliyimiz var. Bunlar cəhalət, iftiraq (təfriqə), fəqirlikdir- deyərək millətimizi çökdürən xəstəliklərə müvəxəssis bir həkim kimi diaqnoz qoymuş və çarələrini də göstəmişdir. Cəhalətin dərmanı elm, təfriqənin, düşmənçiliyin, bölünmənin dərmanı ittifaq, qardaşlıq, sevgi, fəqirliyin dərmanı isə tənbəlliyi və qanunsuz həyatı tərk edib, millətə inam və etimad təlqin etmə kimi tərif etmiş, millətimizin, insanlarımızın dirçələrək zillətdən qurtulacağına işarə etmişdir. İşarə etməyinə etmişdir, lakin müalicə üçün dərmandan, ilacdan qaçan, milləti sevgidən, mərhəmətdən uzaqlaşdırıb, bir-birinə düşmən edən, elm, irfan mərkəzlərinin əleyhində çalışan sevgidən yoxsul, mərhəmətdən uzaq insanlar da var.

Buna görə də hər kəs sahib olduğumuz maddi-mənəvi imkanları, gecəsini gündüzünə qatıb dəyərləndirməli, əngəl və maneələrə ilişib qalmamalıdır. Başqalarına aid əksiklik və qusurları insanlığın bir hissəsi sayaraq, hisslərini aşıb, ağıl, məntiq və iradəni ortaya qoyaraq, insanlığa xəs əxlaqı təmsil edib, eyni zamanda qanun və hüquqdan yana olaraq, çeynənən maddi-mənəvi dəyərlərin qurtarılması üçün çırpınmalıdır. Bir sözlə, insanı insan olduğu üçün sevmək, insana insan olduğu üçün dəyər vermək lazımdır.

Buna görə də bir fikir və düşüncədə olaraq, buludlar qədər mərhəmətli və kövrək hala gəlməli, çiçəklər qədər şirin dilli və güllər üzlü olmalı, insanlığın nöqsanlarını ehtiyac duyduğu həqiqətlərlə təmin edib, insani və əxlaqi nöqsanları görüb, onlardan qurtulmağa çalışmalıyıq.

Həyatda hər şey sevgi, mərhəmətlə daha gözəl olur. Çünki, insan sevgi ilə yaşayır, sevgi ilə xoşbəxt olur və sevgi ilə ətrafını xoşbəxt edir. Əslində dünya köhnə bir xərabədən ibarətdir. Onu təp-təzə və canlı edən sevgidir. Sanki, kainat bir sevgi şeiri, yer kürəsi də bu şeirin qafiyəsidir. Sevgi könüllərimizin heç solmayan gülüdür. Sevgi dedik, mərhəmət dedik...

Sevgi, mərhəmət varlığın ilk mayasıdır. Ümumiyyətlə insan yaşadığı cəmiyyətə, insanlığa qarşı, hətta bütün canlılara qarşı insanlıq borcu olaraq mərhəmət etməklə vəzifələndirilmişdir. Ailə, cəmiyyət və millətı təşkil edən fərdlər arasında ən güclü münasibət sevgi, mərhəmət münasibətidir.

Vətəni, milləti üçün yola çıxmış bu gəmini sağ-salamat sahilə çıxaracaq insanlar da yalnız sevgi, mərhəmət insanları olacaqdır.

Gələcəyin etibarlı və əminlik üzərində qurulması, keçmişin gözəl tanınmasına, ruhlarda hiss edilib, qorunmasına bağlıdır. İllərdir gözlərimiz yollarda və gələcəyin işıqlı xülyaları içində varlığı ən təmiz ruhlardan daha təmiz, düşüncəsi zəmanəmizin bütün problemlərini həll edəcək qədər güclü, sinələri mələklərin könülləri qədər yumşaq, iradəsi cəhənnəmlər qarşısında sınmayacaq qədər sağlam, ideal bir nəsil gözləyirik. Buna görə də etdiyi, edəcəyi hər bir işi milləti üçün edən, millətinin adət-ənənələrinə hörmət edən nəsillər yetişdirilməsinə yardımçı olmaq, dağılıb, itmiş tarixi dəyərlərimizə sahib çıxmaq ən böyük qayəmiz olmalıdır.

AYTƏN HACIYEVA
AMEA-nın "Fəlsəfə və siyasi tədqiqatlar" institutunun laborantı

Dinc, yanaşı yaşamağın başlıca təhlükəsi

TERRORİZM

Müasir dövrdə dünya iqtisadiyyatı vahid tama inteqrasiya olunur, sosial, siyasi, iqtisadi və mədəni kommunikasiyaların inkişafı baş verir, bütün bunlarla yanaşı iqtisadiyyat və maliyyə sahəsində qlobal, siyasi və mədəni üstqurum üçün özəyə çevrilir. Belə bir şəraitdə, dünyada dövlətlər arasında münasibətlərin xarakterində dərin dəyişikliklər baş verir ki, bunlar da beynəlxalq münasibətlərin sistemyaratma amillərinin dəyişilməsi ilə bağlıdır. Bu zaman tarixin bəşər sivilizasiyasının inkişafını müşayiət edən terrorizm onun sonrakı tərəqqisinə böyük təhlükə yaradır. Qlobal problemlər sırasında özünə yer tutan terror, bəşər tarixində heç də yeni hadisə deyildir. Deməli, terror tarixi bir kateqoriyadır! Bəlkə də, terror bəşər övladı ilə əkiz yaranmışdır. XIX əsrdən etibarən bu bəla, yəni terrorizm daha mütəşəkkil olmuş, XX əsrin əvvəllərindən başlayaraq beynəlxalq xarakter kəsb etməyə başlamışdır. Ümumiyyətlə, terror mövzusu günümüzün ən aktual mövzularından biri olmaqla yanaşı, həm də müasir dünyanın ən ağrılı bəlasıdır. Terror və terrorizm kəlməsi dövri-mətbuatda eyni mənanı ifadə edən kəlmələr olaraq işlədilir. Ancaq bu iki kəlmə arasında cinayətin xarakterini təyin etmə baxımından fərqlər var. Terror kəlməsini izah etmək üçün onun hərfi mənasına nəzər yetirmək lazımdır.

Terror, latınca "terreri" sözündən, götürülüb qorxudan titrəmə mənasını verir. Deməli, terror güc tətbiq etməklə həyata keçirilən əməldir.

Terrorizm isə siyasi məqsədlər üçün həyata keçirilən təşkilatlanmış, sistemli, daimi olaraq terroru vasitə kimi mənimsəyən strateji mübarizə metodudur.

Terrordan bir vasitə kimi müxtəlif məqsədlər üçün, o cümlədən dövlət çevrilişi, daxili sabitliyi pozmaq, yad ideologiyaların zorla qəbul etdirilməsi, münasib olmayan dövlət və ictimai-siyasi xadimləri məhv etmək, əhali arasında çaşqınlıq və vahimə törətmək, soyğunçuluq və s. kimi məqsədlər üçün geniş istifadə olunur.

Terrorizm isə sivilizasiyanı, dinc, bərabər hüquqlu, demokratik qlobal quruluşu təhdid edir. Onun dağıdıcı, ölçüyəgəlməz, sosial, siyasi və psixoloji təsirləri mövcuddur. Odur ki, bir-biri ilə rabitəsi olmayan ayrı-ayrı terror aktları hələ terrorizm demək deyil.

Hazırda beynəlxalq terrorizmdə təşkilatlanma getdiyindən o, təhlükəli bir prosesə çevrilmişdir.

Mütəşəkkil cinayətkar fəaliyyət, xüsusilə də, onun terrorçuluq kimi təzahür forması milli dövlət sərhədlərini adlayıb bütün ölkələrin maraqlarına toxunan qlobal təhlükəyə çevrilərək dünya ictimaiyyətini təhdid edir. Deməli, günümüzdə terrorizm qloballaşmışdır. Bəşəriyyətin böyük ümidlərlə qədəm qoyduğu XXI əsrin başlanğıcında terrorçuluğun sərhəd tanımayan qlobal bir cinayət olmağı tarixdə misli görünməmiş bir tərzdə üzə çıxmışdır. Müasir dövrdə terrorçuluq bütün ölkələri hədəfə çevirə biləcəyi üçün qlobal problemdir. Faktlar beynəlxalq terrorizmin bəşəriyyət əleyhinə əsl təhlükə olduğunu açıq-aydın sübut edir.

Deməli, bu gün terrorizm dinc, yanaşı yaşamağın başlıca təhlükəsinə çevrilmişdir və qlobal xarakter alaraq bütün sivil dünyaya meydan oxumaqdadır.

Qloballaşma dövrü terrorunun bir sıra səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir:

1. Bu gün terrorizmin hədəfləri dəyişmişdir. Hazırda terrorçu təşkilatlar öz səylərini yalnız sabitliyin pozulmasına və ya hansısa qısamüddətli planların gerçəkləşdirilməsinə deyil, mahiyyətcə daha ciddi və genişmiqyaslı məqsədlərə; hakimiyyətin ələ keçirilməsinə, suveren dövlətlərin ərazisinin qəsb olunmasına və yerli əhalinin qovulmasına yönəltmişlər.

Qloballaşma dövründə terrorizm probleminin əsasında başqa təhlükələrlə yanaşı, təcavüzkar separatizm də dayanır. Deməli, bu gün terror anlayışı təcavüzkar separatçılıqla sıx bağlıdır. "Terrorçuluq" və "separatçılıq" anlayışının vahid konteksdə işlədilməsi üçün kifayət qədər beynəlxalq hüquqi əsaslar vardır.

2. Təcrübə göstərir ki, bu gün ən müxtəlif cərəyanlara mənsub terrorçu və ekstremist təşkilatlar bir-biri ilə qarşılıqlı əlaqə saxlayırlar. Bəşər sivilizasiyasının tarixi təcrübəsinə diqqət yetirsək, dəlil-sübutlarla görərik ki, dini ekstremizm və terrorizm arasında sıx qarşılıqlı əlaqə mövcuddur.

Siyasi və dini ekstremizm, təcavüzkar separatçılıq, qloballaşma əleyhinə hərəkət, sağ və sol radikalizim bütün bunlar eyni bir terror zəncirinin həlqələri olub terrorçuluq fəaliyyətinin müxtəlif sahələrində bir-birini tamamlayırlar.

3. Terrorçu təşkilatlar mütəşəkkil cinayətkarlığın başqa sahələrində fəaliyyət göstərən qruplaşmalarla qarşılıqlı əlaqə saxlayırlar. Münaqişə bölgələri, o cümlədən qəsb edilmiş və nəzarətdən kənar ərazilər terrorçu, cinayətkar qruplaşmaların güclənməsi üçün şərait yaradır. Qeyd olunanlar müxtəlif etnik təmayüllü "separatçıların" bir-biri ilə sıx əlaqədə göstərdikləri fəaliyyətinin beynəlxalq terrorizmin əsas tərkib hissəsi olduğunu bir daha sübut edir. Separatçı rejimlər yeni müstəqil dövlətlərin ərazisində, o cümlədən Dağlıq Qarabağ bölgəsində nəzarət altında saxladıqları ərazilərdən narkobiznes, qanunsuz silah və insan alveri, çirkli pulların yuyulması və digər cinayətkar məqsədlər üçün istifadə edir, əldə olunan gəliri isə terrorizmin maliyyələşdirilməsinə yönəldirlər.

4. Əhalisi, nəqliyyat kommunikasiyaları və həyat təminatı sistemi sıx olan tranzit regionlardakı sənaye infrostrukturu obyektləri bu gün terror aktlarının başlıca hədəflərindən biridir. Çünki, qloballaşma, elm və texnikanın müasir nailiyyətlərinin tətbiqi şəraitində belə obyektlər daha çox təhdidlərə məruz qalır.

Azərbaycan təcrübəsi terror aktlarının əsasən nəqliyyat infrostrukturunda törədilməsi hadisələrin məhz bu istiqamətdə inkişafını əyani surətdə göstərir. Tarixi İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin möhkəmlənməsi, yeni neft və qaz kəmərlərinin çəkilməsi kimi irimiqyaslı beynəlxalq layihələrin gerçəkləşdirildiyi bir vaxtda, Cənubi Qafqaz dövlətlərinin bu baxımdan hansı təhlükələrə məruz qala biləcəyini təsəvvür etmək çətin deyildir. Regionda əsas təhlükə mənbələrinin məhz Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziyadakı separatçı rejimlərin olması dəfələrlə öz təsdiqini tapmışdır.

Deməli, müasir terrorçu təşkilatlar güclü, ciddi tabeçilik strukturlarına və təchizata malik cinayətkar qurumlardır.

5. Geniş miqyaslı və çoxsahəli terror fəaliyyəti yalnız və yalnız hər hansı ölkənin dövlət orqanlarının məqsədyönlü dəstəyi ilə həyata keçirilə bilər.

6. Bu problem ingilis variantında "Harbouring of terrorism" – yəni "terrorizmə dəstək" və "Apologising of terrorism" – yəni "terrorizmə bəraət" kimi tanınır. Belə siyasəti yeridən dövlətlər terrorçuların istirahəti üçün hər cür şərait yaradır, digər ölkələrdə terror aktlarını törətdikdən sonra onlara siyasi sığınacaq verir, terrorizmə bəraət qazandırılması məqsədilə çırkin təbliğat kompaniyalarının təşkilini dəstəkləyirlər.

Ermənistan Respublikası tam əsasla belə dövlətlər sırasına aid edilməlidir.

Bu siyasətin daha təhlükəli məqamı terrorçular barəsində "milli qəhrəman", "haqq işi uğrunda mübariz" imicinin formalaşması üçün göstərilən cəhdlərdir. Bu isə gənc nəslin terror ənənələri ruhunda tərbiyə olunmasına şərait yaradır.

Terrorçu dövlətlər öz siyasətlərini həyata keçirməkdən ötrü "qanundan kənar ərazilər" yaradırlar və bu ərazilərdə bərqərar olunmuş separatçı rejimlər isə həmin dövlətlərin alətləri kimi yaxşı silahlandırılmış döyüş dəstələrinə malikdirlər. Bu yaraqlıların cəbhəxanalarında kütləvi qırğın silahları bioloji, kimyəvi hər cür silah var. Başəriyyətin taleyinə birbaşa və güclü təsir göstərmək, onun mövcudluğunu təhlükə altına almaq imkanlarına malik olan ziddiyyətlər elmdə və beynəlxalq siyasətdə müasir dövrün qlobal problemləri adlandırılır. Qlobal problem yer üzündə sivilizasiyanı məhv etmək dərəcədə qorxuludur. Qlobal problemlər sırasına beynəlxalq terrorizm tam əsasla aiddir.

Terorçu dövlətlər və beynəlxalq terrorizm vahid mövqedən çıxış edir. Deməli, terrorizm təcavüzkar separatçılıq, mütəşəkkil cinayətkarlıq, narkotik vasitə, silah və insan ticarəti ilə sıx bağlıdır.

Ümumiyyətlə, terror bütün hallarda kim və harada törədilməsindən asılı olmayaraq insan həyatına qəsd etmək deməkdir. Lakin yaşamaq hüququndan kimsəni məhrum etməyə heç kimin haqqı yoxdur. Məhz buna görə də son zamanlar insan hüquq və azadlıqlarının qorunması getdikcə xüsusi əhəmiyyət kəsb edir.

– Qlobal problemlər bir sıra əlamətləri ilə səciyyələnir:

1. Ümumdünya xarakteri daşıyır, bütün dövlətlərin və xalqların həyati mənafelərinə toxunur;

2. Bütün bəşəriyyətə təhlükə yaradır;

3. Bu səbəbdən də təxirə salınmadan aradan qaldırılmağı tələb edir;

4. Bütün dövlətlərin səylərini birləşdirərək kollektiv tədbirlər sistemi işləyib hazırlamağı və həyata keçirməyi nəzərdə tutur.

Ümumiyyətlə, terrorun da özünəməxsus xarakterik xüsusiyyətləri var ki, onları da aşağıdakı kimi ümumiləşdirmək olar: şiddətə yönəlmə; törədilən aktın simvolik olması; amansız və dağıdıcı olması;

Müxtəlif vasitələrlə insanlara təsir edə bilmək üçün şiddət yolunun seçilməsi terrorun ən qabarıq formasıdır.

Tətbiq olunan şiddətin başlıca məqsədi insanların iradəsini qırmaq, onlarda bezginlik, pərakəndəlik və fikir bulanıqlığının formalaşmasına nail olmaqdır.

Terror aktının simvolik xarakter daşıması, onu müharibədən və partizan müharibəsindən fərqləndirən başlıca cəhətdir.

2001-ci ilin 11 sentyabrında baş vermiş terror basqınları bir daha bütün dünyaya sübut etdi və bütün dövlətlər qüdrətindən, habelə iqtisadi və siyasi inkişaf səviyyəsindən asılı olmayaraq beynəlxalq terrorizm qarşısında zəifdir.

2001-ci ilin 11 sentyabr hadisələri dünya dövlətlərinin beynəlxalq terrorizmə və təcavüzkar separatizmə daha həssaslıqla yanaşması, terrora və onu dəstəkləyən dövlətlərə qarşı barışmaz mövqeyinin təşəkkül tapması və qlobal cinayətlər əleyhinə mübarizədə beynəlxalq birliyin səylərinin birləşdirilməsi üçün zəmin yaratmışdır.

Amerika Birləşmiş Ştatlarının ölkə təhlükəsizliyi baxımından qarşılaşdığı təhlükə ilə Azərbaycanın Qarabağda üzləşdiyi problem arasında analoji bənzərlik görmək mümkündür. Lakin Azərbaycan ABŞ-dan fərqli olaraq, sadəcə dövlət tərəfindən dəstəklənən terrorizmlə deyil, eyni zamanda dövlət terroru ilə qarşı-qarşıyadır.

Deməli, sivilizasiyada xəstəlik olan bu hadisə bütün bəşəriyyətin birgə səyləri ilə aradan qaldırılmalıdır. Lakin bəşəriyyət özünü dərk etməsə, onda hansı proseslərin sivilizasion, hansılarınsa antisivilizasion olduğunu müəyyən etmək çətin olacaqdır.

Son vaxtlar beynəlxalq terrorizmə bir sıra elmi tədqiqatlar həsr edilib. Buna baxmayaraq çox cüzi elmi tədqiqat işinə rast gəlmək olur ki, onlar ermənilərin terrorçuluq hücumlarının obyektiv təhlilini versin. Lakin ermənilərin terrora əl atmaqda başlıca məqsədi unudulmuş erməni məsələsinə dünya ictimaiyyətinin diqqətini cəlb etməkdir.

"Böyük Ermənistan" yaradılması yolunda özlərinin ərazi iddialarına bəraət qazandırmaq, respublikada Azərbaycan, antitürk psixozu yaratmaq üçün "soyqırımı" məfhumu sözün əsl mənasında ideallaşdırılır. Deməli, erməni diasporunun beynəlxalq aləmdə geniş istifadə etdiyi və minlərlə insanın acı taleyi ilə bağlı olan "soyqırımı" məfhumu siyasi möhtəkirlik üçün yalnız bir vasitədir. Yəni ermənilərin bir neçə nəslinin beyninə millətçilik zəhəri yeridilib, elə bir xüsusi zəhər ki, ermənilər nə onu tüpürüb, nə də onu udub canlarını qurtara bilmirlər. Lakin aydındır ki, terrorçuların özgə torpaqlarına göz dikməyə nə hüquqi, nə də mənəvi ixtiyarları var.

Terror aktları terrorçu dövlətlər tərəfindən və ya birbaşa təcavüz, ya da digər dövlətlərin ərazisində ekstremist və ya təcavüzkar separatizm əhval-ruhiyyəsini qızışdırmaq məqsədini güdür.

Deməli, bu gün terrorizmin əsl məqsədi hakimiyyəti ələ keçirmək, ərazini yenidən bölüşdürmək və orada özbaşınalıq yaratmaq, suveren dövlətlərin ərazisini qəsb etməklə suveren dövlətlərin ərazilərinin ilhaqına yönəlmişdir.

Terrorun günümüzdə ifadə etdiyi mənalarına gəldikdə biz onu 4 qrupa bölə bilərik: psixoloji terror, adi cinayətkarların törətdiyi terror, müharibə terroru, siyasi terror.

1. Psixoloji terror: mənəvi duyğulara xitab edən, maddi əsası olmayan, dini alət edən terror növüdür.

2. Adi cinayətkarların törətdiyi terror: adi cinayət törədən şəxs və yaxud qrupun öz maddi maraqları naminə törətdikləri terrordur.

3. Müharibə terroru: insanları müxtəlif yollarla təhdid etməklə, onlara müəyyən ideya və davranışlar qəbul etdirmək üçün seçilən terror fəaliyyətidir.

Bütün bu deyilənlər terrorun necə bir dəhşətli şey olduğunu və mütərəqqi cəmiyyətlərin terrora qarşı vahid bir cəbhədə birləşməli olduğunu sübut edir. Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktı aydın şəkildə göstərir ki, dünya nə dərəcədə kövrəkdir. Biz hamımız bu kövrək dünyada bir-birimizə görə məsuliyyət daşıyırıq. Əlbəttə, bu, tezislə təcavüzkar dövlətlər deyil, yalnız sivil dövlətlər razılaşa bilər. Deməli, beynəlxalq birlik təcavüzkar dövlətləri sivil davranış qaydaları ilə hesablaşmağa məcbur etməlidir. Artıq terrorizmlə savaşda çox ciddi addımlar atmağın vaxtı çatmışdır. Təkcə ABŞ-da bu dəhşətli terror aktlarını törədənlərə qarşı deyil, ümumiyyətlə dünyada terrorizmin bütün formalarına qarşı geniş miqyaslı antiterror kompaniyasına başlanmalıdır. Ona görə də beynəlxalq birlik dünyanın hər yerində terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir.

Müasir dövrün tələbləri daha təhlükəli xarakter daşıdığı üçün BMT bu qəbildən olan məsələlərə böyük diqqət yetirməlidir. Beynəlxalq terrorizmə qarşı mübarizədə diplomatiyanın geniş imkanlarından istifadə olunarsa, problemin həlli güc tətbiq etməddən danışıqlar müstəvisinə keçirilə bilər. Müasir şəraitdə silahlı qüvvələrin, BMT Nizamnaməsinə uyğun olaraq silahlı qüvvələrdən ölkəni təcavüzdən qorumaq, yaxud kollektiv təhlükəsizlik tədbirlərini həyata keçirmək məqsədlərindən başqa, digər məqsədlər üçün istifadə edilməsi beynəlxalq cinayət hesab edilir.

2001-ci ilin sentyabrın 12-də BMT-nin Baş Məclisi terrorizm üzrə qətnamə qəbul etdi. Təhlükəsizlik Şurası həmçinin BMT-nin Nizamnaməsindən irəli gələn öhdəliklərə uyğun olaraq, 2001-ci ilin sentyabrın 11-də törədilimiş terror aktlarına cavab vermək və terrorizmin bütün formalarına qarşı mübarizə aparmaq məqsədilə addımlar atmağa hazır olduğunu bildirdi.

Deməli beynəlxalq terrorizm qəddar əməllərin və niyyətlərin gerçəkləşməsinə xidmət etdiyi üçün onunla aparılan mübarizədə ardıcıl, mütəşəkkil və amansız olmaq lazımdır.

Qloballaşma dövrü terrorizminin xüsusiyyətləri bütün dünya dövlətlərinin xüsusi xidmət orqanlarının beynəlxalq əməkdaşlığın, dərinləşdirməyin zəruriliyini irəli sürür. Bu əməkdaşlıq isə aşağıdakı təməl prinsiplərə söykənir:

1. Terrorizmlə mübarizəyə dini, yaxud etnik çalar vermək cəhdlərinə qarşı qəti tədbirlər görülməlidir. Çünki terrorizmin nə milli, nə də dini mənsubiyyəti olur.

2. Ölkənin maraqları naminə terrorizmə, ekstremizmə və separatizmə münasibətdə ikili standartlar siyasəti yeridilməməlidir.

3. Terrora qarşı mübarizədə hər yerdə və həmişə prinsipi tətbiq edilməlidir. Bu prinsip hər bir tərəfin vaxtdan və məkandan asılı olmayaraq cinayətkarların axtarışı, aşkarlanması, tutulub təhvil verilməsi, eləcə də cəzalandırılması sahəsində öhdəliklər götürdüyünü nəzərdə tutur.

4. Başqa dövlətlərin ərazisində terrorçu, ekstremist, separatçı fəaliyyəti bu və ya digər formada dəstəkləyən dövlətlərə qarşı razılaşdırılmış sanksiyalar tətbiq olunmalıdır.

Lakin beynəlxalq terrorizmlə mübarizə tədbirlərini aşağıdakı kimi ümumiləşdirmək olar: sosial və iqtisadi cəhətdən geriliyi ortadan qaldırmaq; insanların dini və bəşəri sahələrdə düzgün savadlanmasına şərait yaratmaq; dünya xalqları arasında mədəni dəyərlərin artmasına çalışaraq kin və düşmənçiliyin ortadan qaldırılması uğrunda fəal mübarizə aparmaq.

Deməli, beynəlxalq terrorizmlə mübarizə dövrün tələbidir və beynəlxalq terrorizm mübarizədə beynəlxalq birliyin səylərinin birləşdirilməsi zəruridir. Hətta Qərb dövlətlərinin iştirakı ilə müsəlman dünyasını narahat edən problemlərin ədalətli şəkildə həll olunması, dünyada sülhün bərqərar olmasına və beynəlxalq terrorizmin qarşısının alınmasına böyük təkan verər.

Ümumiyyətlə, beynəlxalq terrorizmlə mübarizə məsələsi müasir dünyanın ən yaralı yeridir. Çünki, terrorizmin bütün dünyanın dövlətləri tərəfindən və yaxud böyük əksəriyyəti tərəfindən qəbul edilən müştərək izahı yoxdur. Bu da terrorizmlə bağlı beynəlxalq hüquq normativlərinin yaranmasına əngəl törədir. Dövlətlərin terrorizmlə bağlı mövqelərindəki fərqliliyi göstərmək üçün təkcə 1936-1981-ci illər arasında 109 fərqli izahın olduğunu bilmək kifayətdir. Beynəixalq terrorizmin izahı problemini ortadan qaldırmaq üçün dünyanın müxtəlif elmi mərkəzlərində araşdırmalar aparılır və təkliflər ortaya atılır.

Brian Oenkins "İnternational Terrorism anü Nevv Mode of Jonflict International Terrorism and World Security" adlı kitabında terrorizmlə bağlı təklif olunan izah belədir: "Beynəlxalq terror, qəbul edilmiş və qüvvədə olan beynəlxalq normativlər, diplomatik qaydalar və müharibə qaydalarını pozaraq həyata keçirilən mövcud sistemə qarşı yönəldilmiş və şiddətə əsaslanan davranışlardır".

Azərbaycan terrorizmlə mübarizədə səkkiz beynəlxalq müqavilənin iştirakçısıdır.

Beynəlxalq terrorizmin baş verməməsi üçün vaxtında "kiçik" terrorların qarşısı qətiyyətlə alınmalıdır. Azərbaycan xalqı həmişə terrorizmin əleyhinə olmuşdur və bugün də harada olursa-olsun dünyada bütün terrorizmin kökünün kəsilməsinin tərəfdarıdır.

2001-ci ilin sentyabrın 11-də baş vermiş hadisələr dövlətlərə terrorizmlə mübarizədə qanunvericiliklərin təkmilləşdirilməsində yeni impuls verdi. Bununla əlaqədar olaraq 2002-ci ilin əvvəlində Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarına da əlavə və dəyişikliklər olundu. Belə ki, Cinayət Məcəlləsində edilmiş dəyişikliklər nəticəsində terrorizmə görə cinayət məsuliyyətini nəzərdə tutan yeni maddə əlavə edildi.

Bundan başqa Azərbaycan terrorizmlə mübarizə sahəsində BMT-nin 11 beynəlxalq hüquqi, o cümlədən 1970-ci il "Hava nəqliyyatının qanunsuz zəbtinə qarşı mübarizə haqqında", 1971-ci il "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz aktlarla mübarizə haqqında", 1973-cü il "Beynəlxalq Müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında", 1979-cu il "Girovların götürülməsi ilə mübarizə haqqında", 1997-ci il "Bomba terrorizmi ilə mübarizə haqqında" beynəlxalq konvensiyalara və digər sənədlərə qoşulmuşdur. Bundan başqa Azərbaycan beynəlxalq terrorizmə qarşı 8 beynəlxalq müqavilənin iştirakçısıdır.

Hətta Azərbaycan MDB çərçivəsində də "MDB-nin iştirakçı dövlətlərinin terrorizmlə mübarizədə əməkdaşlığı haqqında müqaviləsinin" (Minsk 1999) və "MDB iştirakçı dövlətlərinin etnik, dini, siyasi örtük altında həyata keçirilən terror, separatçı və digər ekstremist fəaliyyətə qarşı mübarizədə təhlükəsizlik orqanları və xüsusi xidmətlərinin əməkdaşlığı və qarşılıqlı fəaliyyəti haqqında protokol"un (Kiyev 2000) iştirakçısıdır.

2001-ci ilin sentyabrın 11-də baş verən hadisələr dünyada terrorizmin nə qədər dəhşətli olduğunu bir daha açdı və geostrateji prosesdə dəyişikliklər edərək hər bir ölkə üçün böyük təhlükə olan terrorizmin dəhşətli simasını bizə bir daha nümayiş etdirdi.

Məhz bütün insanların gələcəyi naminə bəşər sivilizasiyasının gələcəyi naminə biz hamımız mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoqunda ümumi dil taparaq ekstremizmə, terrorizmə və təcavüzkar separatçılığa dəstək verən qara, şər, pozucu qüvvələrin niyyətlərini puça çıxarmalıyıq.

Azərbaycan həmişə beynəlxalq aləmin terrorizmlə mübarizə istiqamətində gördüyü tədbirləri dəstəkləyir.

2002-ci ilin 9 mayında Avropa Şurası ölkələrinin parlament rəhbərlərinin konfransı keçirilmişdir. Konfransda əsas müzakirə edilən məsələ beynəlxalq terrorizmlə mübarizə və onun qarşısının necə alınması olmuşdur. Konfransın qəbul etdiyi sənəddə qeyd olunmuşdur ki, "terrorizm bəşəriyyət əleyhinə olan bir cinayətdir və s. O, son zamanlar daha mütəşəkkilləşmiş, daha dolğun layihələşdirilmiş, beynəlmiləlləşdirilmişdir".

Deməli, beynəlxalq terrorizm bəşəriyyət əleyhinə bir cinayət olduğundan ona qarşı mübarizə dövrün tələbidir.

Beynəlxalq terrorizmlə mübarizənin məqsədi yalnız ayrı-ayrı təşkilat, qrup, yaxud şəxslər deyil, həm də onu doğuran səbəb və mənbələrin aradan qaldırılması olmalıdır.

ABDULLAH GƏNC

Yeni nəsil

İnsan ömrü bir xəzinədir. Bu xəzinədə həm səadət, həm də səfalət gizlənir. Xəzinənin kəşf olunduğu an gəncliklə başlanır. Bu gənclik enerjili, potensiallı bir dövrə hakim də, məhkum da ola bilər. Həyat meydanına atılan gənclik aldığı tərbiyə, elm, bilik vasitəsi ilə ailəsinə, xalqına bir gül kimi ətir verər, yada tikana çevrilib ayaqlara, qəlblərə, vicdanlara batar.

Gəncliк də bir nemətdir. Ömür yolunun bir hissəsidir. Sevmənin, şəfqətin, ehtiram göstərmənin başlanğıcıdır. Gənclik insan ömrünün baharıdır. Fikir dünyasının genişlənməsi, təfəkkür aləmində üfüqlərin açılması, özünü cəmiyyətə bir insan kimi göstərməsi, xalqı, vətəni, dövləti naminə hər cür əzablara, əziyyətlərə qatlaşacağını anladığı zamandır. Gənclik çiçəyi cəmiyyətin simasında açılmalı və toplumun tükənməyən enerjisinə çevrilməlidir. Cəmiyyətin könlünü talan, qəlbini viran edən qorxunc ünsürlər gəncliyin mənəvi iqlimində əriyər və yox olar.

Gənclik yeni nəsil deməkdir. Kökünə bağlı, əcdadının yolu ilə gedən, milli, mənəvi dəyərlərinə sadiq, əyilməz, alnıaçıq, həm də tükənməz gücdür. Bu yolun ən böyük müsafiri olan Həzrəti Əliyə söz Sultanı belə demişdir: "Əli kimi gənc, zülfüqar kimi qılınc yoxdur."

Həzrəti Əli Xeybər qalasının qapısını qopardığı zaman gənc idi. Şah İsmayılında fəthlərə başladığı zaman gənclik dövrünə təsadüf edirdi. Yüzlərlə belə nümunələr tarixin yaddaşında mövcuddur.

Millətimizin güclənməsi, müstəsna tərəqqi yoluna sahib olması gəncliyin elm və əxlaqı ilə təzahür edə bilər.

Zamanın hər parçasını millətinə, vətəni adına dəyərləndirən gənclik, uca missiyaları çiyinlərində daşiyan xalq qəhrəmanıdır. Gəncliyin dəyərini bilənlər yaşlanmadan öncə yaşadığı toplumu cəhalət qaranlığına, maarifsizlik bataqlığına yuvarlamağa imkan verməzlər. Belə gəncliyin başı göylərə qədər ucalaraq, qarşıdakı cərəyan edəcək hadisələri proqnozlaşdırar, ən xeyirli yolu seçər edər. Müasir gənc elm korluğundan, mənəvi uçurumlardan yenilməz imanı və tükənməz ümidi ilə çıxa bilər. Sevgi və eşq abidəsi kimi millətinin aparıcı qüvvəsinə çevrilər, nəfsi arzuların istəklərində bu yaşda tüğyan etdiyini nəzərində daim saxlayar. Bu gün hissinə, duyğusuna hakim olmayan, yəni mənəvi dünyasında bir parça, bir qisim istəklərə qalib olmayan gənc, elə o qədər də xalqının qarşısında açiz olacaqdır. Həyatının hər mərtəbəsində, hər mərhələsində, iradəsinin, ağlının bütün ağırlığı və gücü ilə zamanın qarşısına çıxmalıdır. İllər boyu millətimizin çəkdiyi dərdləri, yaşadığı hüzünləri, iztirabların əvəzinə tərəqqi, sevgi, yeni-yeni kəşflər gətirən bir nəslə cevrilməlidir. Bu həssas dövrünü əllərdə oyuncağa çevirən, gəncliyini qaranlıqlarda günahlarla keçirənlər heç bir zaman bu ülvi nemətin qədir və qiymətini dərindən anlaya bilməzlər.

Dünya öz kəməndlərini işlək, aktiv, elmli və imanlı bir nəslin başına keçirməyə heç vaxt müvəffəq ola bilməz. Onun əlindəki sevgi şərbətiylə dolu qədəhinə, acı, öldürücü zəhərini qoya bilməyəcəkdir.

Cahana sülh və qardaşlıq düşüncəsini çıxarana kimin həddi var ki, gözün üstündə qaşın var desin. Əlləri dünyanın hər tərəfinə çatacaq, sözünü cahana eşitdirəcək, başı dağlar kimi əzəmətli olacaqdır – Azərbaycan gəncliyinin. Bu yüksəlişi ilə elmin dərinliklərinə yön alacaq, yeni üfüqləri fəth edəcəkdir. Beləcə millətimizi həmişə qəlbinin on səkkiz yaşlı gəncin qəlbi kimi döyünməyinə, yorulmadan çalışmasına səbəb olacaqdır.

Ölkəmiz əsirlər boyudur şərqin qapısı adıyla məşhur olmuşdur. Uca Allah bu müqəddəs amalların yerinə yetirilməsində açarı təslim edilməyəcək qapının şərəfli gözətçiliyində, qərblə şərqin ehtiramla yanaşacağı məqam və mərtəbələrin əldə edilməsində gəncliyimizə yardımçı olsun. Kökləri möhkəm, niyyəti vətən, sabahı işıqlı yeni nəsil ümidi ilə...

Uca Allah bu müqəddəs amalların yerinə yetirilməsində açarı təslim edilməyəcək qapının şərəfli gözətçiliyində, qərblə şərqin ehtiramla yanaşacağı məqam və mərtəbələrin əldə edilməsində gəncliyimizə yardımçı olsun. Kökləri möhkəm, niyyəti vətən, sabahı işıqlı yeni nəsil ümidi ilə...



QÜRBƏT GÜMÜŞOV

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİ QORUYAQ!

Dəniz çirkabı sevmədiyi kimi, tarix də yalanı sevmir. Tarixin əlçatmayan, görünməyən, yaddaş xəzinəsindən qulaqlarımıza səslər çatır. Bu səslərdə tarix dil açır, danışır. Olub keçənləri, ötüb bitənləri yenidən kino lenti kimi gözlərimizin önündə canlandırır.

"Tarix təkrar olunur" kəlamı son illər dilimizdə tez-tez səslənir. Doğrudanmı tarix təkrar olunur? Bəlkə təkrarlanan tarix yox, elə hadisələrin özüdür? Təəssüf ki, təkrar olunan hadisələr xalqımızın başına əsrlər boyu açılan müsibətləri yenidən yaddaşlarda göyərtdi, ulu babalarımızın yaşadığı ağrılı-acılı tarixi biz də yaşadıq, biz də gördük.

Tarixdə Azərbaycanlılara qarşı vaxtaşırı soyqırımlar törədilib. Məlumdur ki, 1724-cü ildə I Pyotr yazmış olduğu vəsiyyətində qeyd edirdi ki, Cənubi Qafqazda möhkəmlənməyin ən mühüm yolu ermənilərin burada yerləşdirilməsidir. Müsəlman əhalisini buradan uzaqlaşdırmağın ən yaxşı yolu onları mənşə cəhətdən qarşı-qarşıya gətirmək, güclərini bir dəfəlik məhv etmək bu bölgədə erməni dövləti yaratmaqdır. 1828-ci il Türkmənçay müqaviləsinin 15-ci bəndinə görə ermənilər Qarabağ, Naxcıvan ümumiyyətlə Azərbaycan, ərazisinə könüllü şəkildə köçə bilərdilər, köçürülən əhalinin təhlükəsizliyi üçün hər cür şərait yaradılır, əhalinin hər birinə torpaq verilir, uzun müddət Rusiya dövləti onlardan vergi almır, onların bütün təminatı üçün məsuliyyət daşıyır və bunun nəticəsidir ki, 1828-30-cu illərdə 130 mindən artıq erməni Azərbaycan ərazisində məskunlaşdı. Erməni tarixçisi T.Stepanyan etiraf edərək yazırdı: "Ömrümüz boyunca biz türklərə borcluyuq". Əgər onlar olmasaydı bugün nə erməni milləti, nə də erməni mədəniyyəti olardı. Amma görünür yediyi çörəyi tapdalamaq bu xain milləti qanında, ruhundadır. Erməni və ruslardan ibarət Bakı İşçi və Əsgər Soveti adı ilə Bakı bolşevik idarəsini quran Şaumyan hökuməti 30 mart – 1 aprel 1918-ci il tarixləri arasında tarixə mart qırğını adı ilə düşən 3 günlük qətliam törədərək 10 mindən çox azərbaycanlını qətlə yetirmişdir. Lev Tolstoy Qafqazdakı soyqırımın canlı şahidi olmuşdur. O, qətliamı belə nəql edir: "kəndlərdə gecə qaranlığında basqın etməyə adət edilmişdi. Belə basqınlara məruz qalmış qadınlar və uşaqlar qaçmağa vaxt tapa bilmirdi..." Erməni vəhşiləri əsrlər boyu təkcə xalqımıza qarşı deyil, eyni zamanda onun maddi mədəniyyət abidələrinə qarşı da terror aktları həyata keçirmişlər. İşğal olunmuş ərazilərdə nə qədər mədəniyyət abidələrimiz, tarixi binalarımız dağıdılmış, XVII əsrdə İrəvanda tikilmiş Göy məscid yerlə yeksan olmuşdur. Əslində ermənilər azərbaycanlılara qarşı deportasiya siyasətinə iki əsrdən də əvvəl başlamışlar. Gülüstan və Türkmənçay müqavilələrindən sonra bu siyasət daha amansızlıqla



həyata keçirilmişdir. 1828-ci il martın 21-i novruz bayramında Rusiya çarı, İrəvan və Naxçıvan xanlıqları hesabına erməni vilayətinin yaradılması haqqında fərman imzalamışdır. Nəticədə İrandan 40 min, Türkiyədən 84600 erməni həmin yerlərə köçürüldü. 1828-ci ildə İrəvanda 7331 nəfər azərbaycanlı, 235 nəfər erməni yaşayırdı.

Rusiya işğalına qədər İrəvandakı 1301 kənddən 909-u azərbaycanlı, 392-si erməni kəndi idi. 1916-cı ildə İrəvan vilayətində 373285 azərbaycanlı yaşadığı halda 1920-ci ildə 12000 nəfər azərbaycanlı qalmışdır.

Ermənilər 1887-ci ildə Qnçaq, 1890-cı ildə isə Daşnaqsütun partiyasını qurdular. Ümumiyyətlə XIX-XX əsrlərdə xalqımızın başına gətirilən faciələr, qırğını, sürgünlər o cümlədən 1918-ci ilin mart qırğınları, 1990-cı ilin 20 yanvar faciəsi, 1992-ci ildə Xocalı Soyqırımı, Azərbaycan ərazilərinin 20%-nin işğal edilməsi hamısı bir zəncirin halqasıdır. Bütün bu qırğınlarda, müsibətlərdə ermənilərin arxasında həmişə başqa-başqa qüvvələr və dövlətlər durublar. Məqsəd isə bir olub. Ermənistanın vasitəçiliyi ilə Qafqazda Rusiyanın



qışladı. Alqışlar və gülüşlərə o qədər aldandıq ki, bununla öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələri-

> Ümid edirik ki, şər qüvvələrin nəfəslərinin soldurduğu çiçəklər yenidən açacaq. Göz yaşlarının iz saldığı üzlər yenidən güləcək. Mavi səmanın üzərini örtən qara buludlar çəkiləcək. O gün uzaqda deyil. Yetər ki, biz "tariximizi unutmayaq, milli-mənəvi dəyərlərimizi itirməyək."

dayaqlarını möhkəmləndirmək, Azərbaycan azadlığına, Azərbaycan dövlətinin yaranmasına və inkişafına yol verməmək. Bu tariximizin bütün dövrlərində təkrarlanmış acı, lakin real həqiqətdir. Bütün bunlardan əlavə erməni terror təşkilatları Azərbaycanda 32 terror aktı törətmişlər. Bu terror aktlarında 20 min günahsız insan həlak olmuş və 10 minlərlə adam yaralanmışdır.

1987-ci ildə əhalinin siyahıya alınmasına görə İrəvan mahalında 313178 azərbaycanlı yaşamışdır. 1918-1930-cu illərdə isə ermənistanda 575 min azərbaycanlı yaşamışdır ki, onların bir qismi bu qanlı illərdə qətlə yetirilmiş, bir qismi də öz doğma yurd-yuvalarından qovulmuşdur.

XXI əsrə girərkən əlimizdə olub qalan həya və ədəb hissini alacaq uçuruma yuvarlanmağımızı arzulayanlar ən uyğun yolun nələrdən keçdiyini araşdırdılar. Biz də müasirləşmək ümidiylə nicatı onların münasib bildikləri şeylərdə tapdıq bəzən... Hər gün sürətlə dəyişən və xalqımıza tanış olmayan bəzi ənənələr gözlərimizi qamaşdıraraq beyinlərimizi korladı. Rahatlığa və şəhvətə düşkün olan gənclərimiz bilərək ya da bilməyərək; şüurlu ya da şüursuz bunu almizi, ən başlıcası əxlaqi keyfiyyətləri itirə biləcəyimizi düşünə bilmədik. O qədər dəyişdik, korlandıq ki, artıq küçələrdə, bazarlarda "Allahdan qorxmazsan quldan utan" sözündən kömək diləməli olduq.

Ancaq sevindirici haldır ki, müxtəlif məqsəd və niyyətlərlə xalqımızın üstündən əsən küləklər, axıb keçən çərəyanlar bizə özümüzü unutdura bilmədi. XX əsrin qorxulu röyası olan sovet imperiyası və onun ateizm ideologiyası əxlaqi keyfiyyətlərimizi məhv edə bilmədi. Böyük qadağalara baxmayaraq analar övladlarına yatmazdan qabaq dua oxumağı öyrətməyi belə unutmadılar.

Xülasə; mühüm coğrafi-iqtisadi mövqeyə malik olan ölkəmiz tarix boyu istilalara, talanlara, soyğunlara məruz qalmasına baxmayaraq öz adət-ənənələrini qoruyub saxlaya bilmişdir. Ümid edirik ki, şər qüvvələrin nəfəslərinin soldurduğu çiçəklər yenidən açacaq. Göz yaşlarının iz saldığı üzlər yenidən güləcək. Mavi səmanın üzərini örtən qara buludlar çəkiləcək. O gün uzaqda deyil. Yetər ki, biz "tariximizi unutmayaq, milli-mənəvi dəyərlərimizi itirməyək."

Təbrik və izhari-təşəkkür

Çoxdan var idim talibi-didari-füyuzat
Nagah bürüdü qəlbimi ənvari-füyuzat
Təqdirə sezavar olacaq mündəricati
Bifeyz olamaz vaqifi-əsrari-füyuzat
Elmi ədəbə bizləri sövq eyləyəcəkdir
Kim, gəlməyəcək vəznidə meyari-füyuzat
Söz yox buna, tənviri-cahan eyləyəcəkdir
Xurşid kimi şəmsi-ziyadari-füyuzat
Vicdanə şətarət buraxır tərzi-kəlami
Haşa, olamaz qabili-inkari-füyuzat
Gülzari vətəndə açılıb bir güli-irfan
Ənbər saçıyor millətə qoftari-füyuzat
Təbrik edirəm milləti minbəd dəmağin
Tətir edəcəkdir güli-bixari-füyuzat
Bizlər belə qarətzədeyi-cəhl olamazdıq
Olsaydı əgər bizdə də asari-füyuzat
Mövlaya ümüdüm var, ola məzhəri-rəğbət
Binlər yaşa, ey dürri-bəhadar füyuzat
Bundan belə əşari-münasib yazacaqdır
Gər, Tahirini eyləsə icbar füyuzat

İbrahim Tahir Musayev Şuşi

* Bu şer Füyuzat jurnalının III nömrəsindən götürülmüşdür, 1906

Talibi-didar – görmək istəyən
Ənvar – nurlar
Sezavar – layiq
Vaqifi-əsrar – sirrlərə vaqif olan
Tənvir – nurlandırma
Xurşid – günəş
Şətarət – qorxusuzluq
Qabili-inkar – inkar edən
Qoftar – söz, söyləmə
Dəmağ – ağıl, beyin – sima
Tətir – ətirləndirmə
Qarətzədeyi-cəhl – cəhalətin qarət etdiyi
Dürri-bəhadar – qiymətli inci
Əşar – şeirlər

Heyrət,
yaxud bir mədəyin insanlara xitabı

Səmadan bir mələk heyrətlə dər: İnsanlar: insanlar!
Nədir bu, ruyi-ərzi qaplıyor al qanlar, insanlar!
Şəhid tiginiz əxvanınızdan olmasın fəryad!
Əcəb kimdir şu xunalud olan bicanlar? İnsanlar!
Ölən kim, öldürən kim, zülm edən kim, ağlayan kimdir?
Bir az fikir eyləyin: Sizdən deyilmi onlar? İnsanlar!
Fədai zülmünüz sizdən, sizin cəlladınız sizdən!
Nasıl qafil olur bu halə, ya vicdanlar? İnsanlar!
Mənahi zövqinizmi? Bir təhaşi yoxmu xaliqdən?
Sizi neyranə sövq etməzmi bu üsyanlar? İnsanlar!
Mübəşşərmisiniz cənnətlə? Yoxmu xofi-rəbbani?
Kitabullahi bir təftiş edin fəttanlar! İnsanlar!
Baxın bir nəzreyi ibrətlə səmti məşəri-xakə!
Şu iqlimi vücuda ey olan mehmanlar, İnsanlar!
Neçün bir firqəniz islah edər, bir firqəniz əfsad?
Nədən təsirsiz qalmış əcəb bürhanlar? Insanlar!
Nədən bir firqəniz imar edər, bir firqəniz təxrib
Neçin xəndani bais dideyi-giryanlar? İnsanlar!
Nədir bin müxtəlif surət? Nədir bin müxtəlif sirət?
Nədir bu ərsəyi-hikmət? Nədir cövlanlar, İnsanlar!
Nə heyrətbəxş olur görseydiniz ətvarınız böylə
Dəmadəm ah edər eylərdiniz əfqanlar, İnsanlar!
İlahi yox xəbiri hikmətin, ancaq yapan sənsən
Nə yapsın əql irişməz, neyləsin izanlar? İnsanlar!

Dəli şair
(Əli bəy Hüseynzadə)

Ruyi-ərz - yerüzü
Tiğ - qılınc
Əxvan - qardaşlar
Xunalud - Qana batmış, qana boyanmış
Mənahi - qadağan olunmuş şeylər
Təhaşi - qorxu
Mübəşşər - müjdələnmiş
Xak - torpaq
Əfsad - fəsad
İmar - tikmək
Təxrib - xərab
Xəndan - gülən
Dide - göz
Giryan - ağlayan
Ətvar - davranışlar
Dəmadəm - anbəan, ard-arda
İzan - etiraf, itaət

* Bu şer Füyuzat jurnalının 1906-cı ildə çıxmış ilk nömrəsindən götürülmüşdür

Prof. FİRUDİN AĞASIOĞLU

AZƏRBAYCAN

adının anlamı

Hər hansı bir coğrafi obyektə ad verilməsi müəyyən sistem daxilində gerçəkləşir. Bu baxımdan, toponim dilin qanunları ilə yaranan özəl ad olduğu üçün onun mifoloji və ya hər hansı bir əfsanə ilə əlaqədar yozumuna yox, dilçilik qanunları işığında təhlil olunmasına çalışmaq lazımdır.

Son iki min ildə Azərbaycan və Atropaten adlarının etimologiyası haqqında ayrı-ayrı yazarlar müxtəlif yozumlar versə də, "akademik" tarixçilər birinci adın ikincidən törəməsi fikrindən ikiəlli yapışmışlar. Bu adlar arasında dövri əlaqə olmasına baxmayaraq, onlar ayrı-ayrı mənşəli sözlərdir. Birinci ad etnotoponim kimi yaranmış, ikincisi isə titul bildirən "atropat" sözü əsasında formalaşmışdır; birinci adın kökündə azər// asər boyadı, ikincinin kökündə isə "atəş" anlamlı atar // adur sözü durur. Bu fərqi aydın görmək üçün hər iki adın qədim mənbələrdə və sonrakı çağlarda ayrı-ayrı xalqların dilində necə işləndiyini əks etdirən formaları gözdən keçirmək lazım gəlir.

Siyasi-coğrafi anlamda Azərbaycan adı öncə Arazboyu ərazilərı və Urmu hövzəsini, sonralar isə Dərbənd, Borçalı, İrəvan, Mosul-Kərkük, Həmədandan güney və doğu bölgələri də əhatə etmiş, bu hüdudlar bəzi çağlarda böyümüş, bəzı dönəmlərdə daralmış, etnik-coğrafi anlamda isə ölkə adının əvvəllər daha geniş hüdudları olmuşdur.

Azərbaycan adının semantikasını açmağa yardım edən formalarını izləmək üçün qədim pəhləvi (part), yunan və ərəb qaynaqlarını gözdən keçirmək lazım gəlir. Sasani sülaləsinin əsasını qoyan I Ərdəşir (226-240) haqqında VI əsrdə yazılmış "Karnamaq i Ardaxşir i Pabaqan", VI-VII əsr olaylarından bəhs edən yunan tarixçisi Feofilakt Simokattanın 628-638-ci illər arasında yazdığı "Tarix" və XIII əsrdə özündən əvvəl deyilmiş fikirləri şərh edən ərəb yazarı Yaqut əl-Həməvinin "Mucəm əl-buldən" (1224) kitablarında uyğun hissələrə baxaq:

"Və Ardaşir düşündü: Ərmən və Adurhadaqana gedərəm".

F.Simokatta yazır ki, 590-cı ildə Xosrov atası Hörmüzdün taxtdan salındığını eşidəndə oturduğu bölgədən Adrabiqana qaçdı.

Yaqut əl-Həməvi bu adı partca "Od evi" kimi izah edənlərə qoşulsa da, başqalarının fikrini və öz canlı müşahidəsini də verir. O yazır ki, əş-Şəmmaxın şeirində Azrəbican şəklində yazılan bu adı əl-Mühəllib Azribican, yerli əhali isə Azribacan şəklində işlədir, bəziləri birinci hərf həmzəni məddə a) kimi qəbul edir, dilçilərə görə bu ad Azər və bican hissələrindən təşkil olunduğu üçün adın nisbəsi birinci hissəsindən azri və azəri şəklində düzəlir və ya azərbi şəklində deyilir.

Müxtəlif dilli qaynaqlarda Azərbaycan adı Azərbiqan, Atarpatkan variantlarına uyğun deyimlər üzrə qeyd olunmuşdur. İslamdan sonra adın sonluğunda məkan bildirən -qan//-kan şəkilçisi ərəb deyiminə (q > c) uyğun olaraq -can forması almış, az işlənən Atarpatkan variantı aradan çıxmış, onun yerini Azərbiqan deyiminə yaxın olan Azərbaycan variantı tutmuşdur. Beləliklə, eyni ölkənin türk dili əsasında yaranmış Azərbiqan adı ilə qarışıq (part) irandilli mühitdə yaranmış Atrpatkan adı İslamdan sonra vahid məxrəcə salınıb qovuşmuşdur. Bunu nəzərə almayan alimlər Azərbaycan adının etimologiyasından danışarkən bir-birindən fərqli yozumlar vermişlər. Bu coğrafi adı Atropat, Azərbaz və Babək kimi tarixi şəxs adları ilə bağlamaq istəyənlər də olmuşdur. Halbuki, Azərbaycan adının tərkibindəki Azər adı həmin şəxslərin yaşadığı çağdan daha qədim qaynaqlarda vardır.

Bu horonimi şəxs adına bağlamaq gələnəyi Strabonda başlanmışdır. O. Atropatena adının Kiçik Mada ölkəsinin başçısı Atropatın adından yarandığını yazmış və bu yozumu sonralar bir çox yazarlar təkrar etmişlər. Yaqut əl-Həməvi isə qeyd edir ki, İbn əl-Müqəffə'a Azərbican adının Azərbaz ibn Beyvarasif ibn əl-Əsvad ibn Sara ibn Nuh Əleyhissəlamın adı ilə bağlı ortaya çıxdığını yazmışdır. A. Bakıxanov Azərbaycan horonimini Azərbabaqan şəklində bərpa edib ona "Babəkin odu" anlamı vermişdir.

Ölkə adının "Odlar yurdu" poetik deyimi də bəzi etimoloji yozuma öz psixoloji təsirini göstərmiş, part dilindəki atar "od" sözü ilə yaranan Atar-pat ilə türkcənin Azər-bi tərkibi eyni mənada yozulmuşdur. Adın ilk saitindən sonra gələn samitin z ilə yox, Xızır~Xıdır sözlərində olduğu kimi, dişarası z//d ilə yazılması da müəyyən dolaşıqlıq yaratmışdır. Azərbaycan adının farsca və türkcə olan yozumlarını həm türk, həm irandilli variantı üzrə gözdən keçirsək, aydın görərik ki, bu ölkə adını izah etmək istəyən yazarlar onu fərqli praformalarla bərpa etmiş və adın semantikasını xalq etimologiyasından tutmuş, mənasız söz yığımına qədər çox müxtəlif anlamlarla vermişlər.

1. Farsca yozumlar (Ə. Dəmirçizadə; M. Azərli, T.Musəvi, Z. Yampolski; Yaqut əl-Həməvi; M. Baharlı):



ŞƏKİ XAN SARAYI

* An-tar-bad-kan "mağlar yurdu", "atəşpərəstlər ölkəsi"
* Atar-büt-qan "tanrı odunun bulağı", "od tanrısının yeri"
* Azər-baykan "od evi", "od qoruyucusu"
* Adər-abadqan "odla abadlaşmış ölkə, torpaq

2. Türkcə yozumlar (Rəşidəddin; Y.Yusifov; M. Seyidov; R. Qurban; F.Ağasıoğlu):

* Azərbaycan (azər-bayqan) "böyüklərin/bayların uca yeri" *Adirpati (andlir-pat-i) "dağlı-təpəli düzən yer", "dağ silsiləsi düzəni"
* Azərbaycan (az-ər-bay-qan) "uğurlu, yaxşıistər Günəş, varlı ata"
* Azəribaycan (az əri-bayqan) "azəri yurdu"
* Azərbiqan (az-ər-bi-qan) "azər boylarının ölkəsi"

Göründüyü kimi, horonimə çeşidli praforma və müxtəlif anlamlar verilmişdir. Bunların sırasına şəxs adları ilə verilən yozumları da əlavə etsək, bir daha aydın olar ki, adın etimologiyası çox dolaşıq salınmışdır. Azərbaycan adının etimologiyasını sözün sonundan başlamaq daha münasibdir, çünki həm türk (Azərbiqan), həm də fars deyimi (Atarpatkan) -qan //-kan sonluğu ilə işlənmişdir. Bu şəkilçi saqa türklərindən qopub irandilli boylarla qarışan partların (pəhləvi) dilində Hindukan (Hindistan), şahiqan (saray) kimi sözlərdə məkan bildirən çalarını saxlamışdır.



ŞUŞA: QARA-BÖYÜK XANIM QALASI

İslamın gəlişindən sonra toponimlərin tərkibindəki şəkilçidə -qun >-can dəyişməsi baş vermişdir. Belə ki, Andiqan bölgə adı sonralar Andican // Əndican şəklini aldığı kimi, Qurqan > Jurcan, Balasaqan >Balasacan tipli onlarla yer adı eyni dəyişikliyə uğramışdır. Ərzincan, Dilican. Zəncan kimi sonu -can şəkilçili toponimlər Anadolu, Güney Qafqaz, İran və Orta Asiya bölgələrində geniş yayılmışdır. Bu baxımdan, Azərbaycan adındakı -can sonluğunun aydın etimologiyası var, onun qədim türk dilində coğrafi termin və etnotoponim yaradan -qan şəkilçisi olması şübhə doğurmur. Beləliklə, hər iki adın türkmənşəli – qan şəkilçisini ayıranda horonimin aşağıdakı hissələri qalır:

azərbi, azrəbi, azarbi, azərbay, adərbi

atarpat, atropat, adurbad, aturpat

Adın bu hissəsində son heca olan -bi//-bay və -pat!/-bad sözcüklərinin etimologiyası üzərində dayanaq. Qədim yazıların Azərbaycanda qeyd etdiyi Lulubi, Ellipi, Madape, Kaspi yer adlarında lulu-be, elli-pi, mada-be, kas-pi etnonimləri və tatabi, syanbi, telebi türk boyadları etnotoponimlərin yaranmasında iştirak edən -bi şəkilçisini ortaya qoyur. Bu baxımdan, qədim çağlarda işlənmiş bod "boy" sözünün sonrakı şəkilçiləşmiş -be//-bi fonetik variantı ilə düzələn azər-bi boyadı türk mühitində yalqız deyildir. Məhz azər sözü boyadı olduğu üçün -bi. şəkilçisi ona qoşula bilmişdir.

İkinci sıranı təşkil edən "pat" formantı isə qədim farsca vispati "ev yiyəsi", orta fars dilində spahpat/spahbed "ordubaşı" kimi sözlərdə olduğu kimi. iran dillərində "qoruyan", "başçı" anlamında titul yaradan sözcüklərdir. Y.Yusifov atropat sözünün baş kahin vəzifəsini də icra edən hökmdara məxsus dini rütbə bildirdiyini və iran dillərində "od saxlayan" anlamı daşıdığını yazır. Sasani çağında atturpat, sonralar daha çox adurbad şəklində işlənən atarpat sözü yunanca metatezaya uğramış atropat (atrapat) fonetik variantı ilə yazıya alınmışdır. Oda sitayiş çağlarında Azərbaycanda atropat titulunu daşıyan onlarla şəxs olmuşdur ki, bunlardan biri də Makedoniyalı İskəndərə qarşı III Daranın qoşununda bir hissəyə başçılıq edən Kiçik Madanın satrapı və dini başçısı Atropat idi. Görünür, tarxan, qamata kimi titullar Tarxan, Qam-Ata şəxs adına (antroponimə) keçə bildiyi kimi, autrapat titulu da Atropat şəxs adına çevrilmişdir.

Bəzi yazarların Kiçik Madaya "Atropatın ölkəsi" deməsi qəribə görünməməlidir, Polibi də Azərbaycanı m.ö. II əsrdə hökmdarın (Artabaz) adı ilə "Artabazanın vilayəti" adlandırır. Bu baxımdan, Atropat adına iran, yunan. hay dillərinin məkan və mənsubiyyət şəkilçilərinin qoşula bilməsi normal haldır:

Atropat-(a)kan "Atropatın ölkəsi" (farsca)

Atropat-an "Atropatın ölkəsi (farsca)

Atropat-ena "Atropatın ölkəsi" (yunanca)

Atropat-ak "Atropatın ölkəsi (partca)

Atropat-uni-k, atropat-i-çi "atropatlı(lar)" (hayca)

Göründüyü kimi, Azərbiqan adının "Azər boylarının ölkəsi" anlamında türk deyimindən fərqli olaraq, fars, yunan, hay deyimi "Atropatın ölkəsi" anlamında Atarpatkan adına köklənmişdir. Aşırı iranpərəstlər Azərbaycan adının Atropatın adından yarandığını "isbat" etmək istədikləri kimi, bunun əksini söyləyənlər də olmuşdur. Guy Le Strange yazır ki, farsca Azerbazegah adını qreldər (yunanlar) təhrif edib, Atropatene şəklinə salmışlar. Bu yozumların ikisi də yanlışdır, çünki orta fars dilində olan Aturpatakan//Adurbadaqan formasından Azərbaycun formasına keçib inandırıcı olmadığı kimi, daha əski Atarpatkan forması da türkcə mövcud olan Azərbeqan formasına uyğunlaşıb artıq orta fars dili çağına qədər ortadan qalxmışdı. Həm də nəzərə almaq lazımdır ki, türk deyimi Azərbaycan ilə fars deyimi Atropaten ayrı-ayrı dil zəminində yaranaraq, ayrı-ayrı anlam daşıdığı kimi, onların coğrafi tutumu da fərqlənirdi. Belə ki, 1 Xosrovun vaxtında Azarbazqanın tərkibinə Ərmənıyə, İberia, Aran, Balasakan, Sisakan, Muğan, Deyləm və sair əyalətlərlə bərabər Atarpatkan da daxil idi. İbn Xordadbehə görə, hələ I Ardaşir çağında bütöv bu əyalətlərin hökmdarı Azarbazqan-şah adlanırdı. Atropatenanı da içinə alan Azərbaycan daha geniş siyasi-inzibati və etnik-coğrafi anlam daşımışdır.

Öncə titul kimi yaranan atropat sözünün sonralar antroponim kimi işlənməsi təbiidir. Lakin məsələ burasındadır ki, bu söz də türkmənşəli od sözündən yaranıb, çünki hind-iran və slavyan dillərində "od" anlamlı iki söz vardır; bunlardan biri hindavropa mənşəli *oqnis II *eqnis, o biri isə türkmənşəli *ot sözü ilə yaranmış atar/adur sözüdür. Bu söz pəhləvi dilində atuxş "od" formasını alıb, bumeranq söz kimi atəş şəklində azər dilinə qayıtmışdır.

Yuxarıda "azər boyu" anlamı daşıyan azərbi sözünün tərkibində "azər" etnonimi və şəkilçiləşmiş "bi" sözcüyü olduğunu demişdik. İndisə azar etnonimin etimologiyasını açmaq üçün hansı anlamda işləndiyini, tərkibində hansı sözlər olduğunu, hansı fonetik variantlar üzrə dəyişdiyini m.ö.VIII - m.s.VIII əsrlər arası qədim qaynaqlarda gözdən keçirək:

Azari şəhəri – Urmu gölü ilə Kərkük arasında (m.ö.VIII əsr)

Azar bölgəsi – İrəvan çuxurunda (I əsr, Strabon, XI. 14. 3)

Azarı məbədi – Madanın güneyində (I əsr)

Azara şəhəri – Azaq dənizi yaxasında (II əsr, Ptolemey. V. 8. 2)

Azaraba (Azəroba) – Azaq-Kuban arasında (II əsr, Ptolemey, V. 8. 26)

Azər - İbrahım peyğəmbərin atası (Quran)

Azar-tepe "azər təpəsi" (Türkmənistan)

Azar-türkman oymağı (Anadolu)

Azeru-çay (Gürcüstan)

Azeru-kənd (Astara)

Örnəklərdən göründüyü kimi, Azər adı Göytürk (VI-VIII əsrlər) yazılarına qədər asur və yunan-latın qaynaqlarında yer almışdır. Göytürk yazılarında az boyu (az budun), az əri deyimləri aydın göstərir ki, adı çəkilən yer adlarında azər "az" və "ər" sözlərindən yaranmış bir etnonimdir. Deməli. Azərbe//Azərbi adının əsasını azər boyadı təşkil edir, onun da kökündə az boyadı durur. Türk dillərində eyni funksiya daşıyan şəkilçilərin ardıcıl işlənmə olayı vardır. Belə ki, əvvəl qoşulan şəkilçi bir müddətdən sonra qoşulduğu köklə bütöv söz kimi qavranılır və yeni mühitdə sözün leksik mənası yeni şəkilçi ilə təzələnir:



ŞİRVANŞAHLAR SARAYI

az (boyu) + ər = azər (boyu) + bi = azərbi (boyu)

Tört-as, ceti-as (yeddi-as), toqıs-as, caman-as, kızıl-as, kataqan-as, baylak-as, kenqer-as, as-saray, as-alan, as-quşçu və sair boyların içində yayılmış asların qədim türk soylarından olması heç bir şübhə doğurmur. Başqord, qazax, qırğız, özbək, bulqar (tatar), qaraçay-balkar, altay, türkmən və azər xalqlarının soykökündə iştirak edən as boyunun birbaşa kas-bi (kaspi), az-aq (qazax), az-kişi, az-ər (azər//xəzar) etnonimlərinin kökündə durması və bu etnonimlərin çox geniş areala yayılması bir daha göstərir ki, as/az boyadı prototürk çağında yaranmışdır.

Yuxarıda deyilənlərdən aydın olur ki, Atropaten adı "od-ər-" (atar) modelində düzəlib (atəş qoruyan) (atar-pat) anlamlı titul əsasında pəhləvi-fars dillərində yaranıb daha çox yunan-hay qaynaqlarında əks olunmuşdur. Azərbaycan adı isə "azər boyu~" və "azər boyları" (azər-bi) etnonimi əsasında yaranmış və müxtəlif dilli qaynaqlarda əks olunmuşdur:

atur (od-ər) + pat + kan = Aturpatkan > Atropaten

azər (az-ər) + bi + qan = Azərbiqan > Azərbaycan

Beləliklə, qarşımızda ölkəmizin adını bildirən iki müxtəlif mənşəli xoronim vardır. İrandilli mühitdə yaranan "Atropatın yurdu" anlamlı Atropaten adından fərqli olaraq, Azərbaycan adı türk mənşəli etnotoponimdir və "Azər boylarının yurdu" anlamı ilə daha geniş etnik coğrafiyanı əks etdirir.

SALEH

AZADLIQ CARÇILARI

20 YANVAR ŞƏHİDLƏRİ

XX əsrin ən qorxunc imperiyası olan sovetlər birliyi ömrünün sona yetişdiyini görüncə yırtıcı pəncəsini Azərbaycana da uzatdı. O zaman Azərbaycanda Milli azadlıq hərəkatına demək olar ki, hər kəs qoşulurdu. Millət yetmiş illik müstəmləkəçiliyə bütün ruhuyla yox deyirdi. İstiqlaliyyəti və suveren haqqlarını tələb edirdi. Sərhədlərinə, bayrağına, dövlətinə və millətinə özü sahib çıxmaq istəyirdi. İmperiya isə əlindəki lazer, hidrogen, neytron, atom və bakterioloji silahlarıyla insanlığı təhdid edirdi. Bu gecə isə növbə Azərbaycanın idi. Tarixdə eşidənləri heyrətə gətirən 20 yanvar faciəsi başlayacaqdı. Faciəni törədənlər əmri mərkəzi hakimiyyətdən (Moskvadan) alırdılar. Bir gecənin içində Rus tankları, hərbi maşınları və qoşunları Bakıya hücuma keçdilər. Meydanlarda onları qarşılayan əliyalın, silahsız vətən oğulları dayanmışdılar. Bəli bir tərəfdə qaranlıq labirintlərdə yol bilməz, zalım, qəddar, qaniçən, digər tərəfdə isə sonsuzluqla, əbədiyyətlə üz-üzə dayanan müsafirliyə qərar vermiş vətənsevərlər dayanmışlar. Çoxunu gənclərin təşkil etdiyi vətən əsgərləri, sinələrinə dayanan silahlar qarşısında, əsarət altında yaşamaqdansa, şəhadət şərbətini içib cənnəti qazanmağa üstünlük verdilər.

Tonluq tankların altında əzilən bədənlərin fəryadı, avtomatların və pulemyotların güllələriylə qanına qəltan olan azadlıq carçıları ilk qurbanları verirdilər. Bu amansız faciə hər dəqiqə daha vəhşətli mərhələyə keçirdi. Şəhidlik mərtəbəsi, insanlığın mücadilə və mübarizə zirvəsi olurdu. Milli məfkurə və tarixi dəyərləri naminə şəhadət şərbətini durmadan içən daha neçə şəhidlər əbədiləşdi. Fövqəladə qəhrəmanlıq nümunələri ilə dünyanın qana susamış bir ordusunun heyrətini artırırdı. Bir neçə saat öncə "Hürriyət, azadlıq, ədalət" tələrələriylə coşubdaşan dillər indi faciyəvi şəkildə susdurulurdu. Millət, övladlarının şəhid olmasına şahid oldu. Hər şeyə rəğmən millət ən ağır günündə milli vəhdətin, birliyin ehtiyacını yaşadı. Sarsılmayan, qorxu bilməyən millət təbliğatının yeni mərhələsinə qədəm qoydu.Qəddar sovet ordusu 20 yanvar faciəsi ilə günahsız adamların qanın axıtdı. Qırğının törədilməsindən sonra Azərbaycan dünyaya müraciət etdi. Səsini ABŞ-a, Avropaya, Şərqə, Qərbə çatdırmaq istədi. Amma o ölkələrin o vaxtkı rəhbərləri qanlı 20 yanvar faciyəsinə mənəvi haqq qazandırmadılar. Hadisəyə obyektiv siyasi və hüquqi qiymət vermədilər.



Suverenliyi uğrunda mücadilə edən böyük xalqımız ümummilli həmrəyliyi və ictimai siyasi münasibətləri tənzimləməyə dəstək verdi. Kürəyindən zəhərli xəncərlə vurulan millətimiz bu ağır yaranı, Allahın yardımıyla sağaltmağa üstünlük verdi. Keçmiş zaman indiki zamana nisbətdə, indiki zamanda gələcəyə nisbətdə bir hesab-kitabdır. Bu kitabın ilk səhifəsinə milli mücadilə qəhrəmanları "şəhidlərimiz" öz adlarını qanlarıyla yazdılar. Meydanı təmiz qanlarıyla suladılar. Səmaları inlədən 20 yanvar hadisəsi dünyanın super güclərinin, beynəlxalq təşkilatlarının heç təəssüfünə də səbəb olmadı. Vicdan səhifələri kirlənmiş, qəlbləri qaralmış imperiya əsgərləri bədənlərə, cəsədlərə hakim olsalarda xalqımızın milli ruh prespektivinə zərrə qədər təsir edə blimədilər. Şəhadət mərtəbəsinə çatanlar həqiqətdə ölməmiş sayıldılar. Nə qədər ki şəhidlərimizin adları iftixarla çəkilir, qürurla zikr olunur deməli bu dünyada da ölməzlik əldə ediblər. Odur ki, könüllərimizin şəfa qaynağı, ruhlarımızın əvəzsiz dərmanı və mənəvi güc mənbəyi olan Quran şəhidlərdən belə bəhs edir. "Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur". Üsyan bayrağını daşıyan asilər millətimizin incə, həssas ruhlu insanların yaşama haqqını tanımadılar. Qalibiyyət qurban verməklə olur. Həyatdakı bütün nailiyyətlər üçün qurban vermək şərtdir. Bir millətin istiqbalını qazanmaq, dünya dövlətləri arasında öz şərəfli və layiqli yerini tutmaq üçün qurbanlar tələb olunurdu.

20 yanvar faciyəsindən 16 il keçir. Bahar budaqlarına bənzər 20 yanvar şəhidlərimizin qanları millətimizin könül torpaqlarını yenidən canlandırdı. Millətimiz proqramladığı həyat yolunda qarşılaşdığı hər cür maneələri aşmağa hazır oldu. Beləcə bir qocaman millət kimi 20 yanvar şəhidlərimizi qürurla, iftixarla yad ediririk və edəcəyik. Uğrunda canlarını verdikləti yolu xalqımız davam etdirir. Allah qəbirlərini nurla doldursun.

Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur.

Qur'ani-Kərim, Ali İmran 169

BABƏK TATLIYEV
(müstəqil ekspert)

QİDA MƏHSULLARI – YAŞAMAQ ÜÇÜN VASİTƏ, YOXSA HƏYAT ÜÇÜN TƏHLÜKƏ?

İnsanın doğulduğu vaxtdan həyatının sonunadək təmasda olduğu, gündəlik yaşayışında ən çox qarşılaşdığı şeylərdən biri, bəlkə də birincisi qida məhsullarıdır. Ümumdünya Səhiyyə Təşkilatının insan orqanizminə zərərli maddələrin 70%-nin qida məhsulları vasitəsilə daxil olmasını təsdiq etməsi isə, həmin məhsulların öz növbəsində sağlamlığımıza və ümumiyyətlə fiziki vəziyyətimizə təsirinin də ən azı buna ekvivalent olduğunu sübut edir. Lakin bu sahədə dünyanın aparıcı alimlərinin araşdırmaları, müxtəlif millətlərin, o cümlədən nənə-babalarımızın uzun əsrlərdən bəri əldə etdikləri təcrübələri və nəhayət müqəddəs kitablarda, xüsusilə Qurani-Kərimdə bu mövzu ilə bağlı kəlamlar qida məhsullarının insanın həm sağlamlığı, həm mənəviyyatı, həm də gələcəyinə (nəsil artırmasına) təsirinin bu göstəricidən də qat-qat yüksək olduğunu sübut edir. Əgər biz bir millət kimi öz gələcəyimizin, genofondumuzun, sağlamlığımızın, iqtisadiyyatımızın, mənəviyyatımızın qayğısına qalmaq istəyiriksə, bu məsələyə son dərəcə ciddi yanaşılmalı, problem hərtərəfli şəkildə təhlil edilməli, geniş əhali kütlələri arasında intensiv maarifləndirmə işləri aparılmalıdır.

Məlumdur ki, 15-20 il bundan əvvəlki, yəni sovet dövrü ilə müqayisədə ölkəmizin qida məhsulları bazarı qat-qat zəngindir. Lakin bu bolluğun müsbət tərəfləri ilə yanaşı bir seçim problemi yaranır: nəyi yemək olar, nəyi yox, hansı xeyirdir, hansı zərərli, yerli məhsul yaxşıdır, yoxsa xarici və s.

Ümumiyyətlə, uzun illərdən bəri aparılmış tədqiqatlar və araşdırmalar bir sıra problem və nöqsanların mövcudluğuna rəğmən yerli qida məhsullarının əksəriyyətinin hazırkı Azərbaycan bazarında olan xarici məhsullardan birmənalı şəkildə üstün və xeyirli olmasını əminliklə söyləməyə imkan verir. Əvvəla, orta statistik Azərbaycan istehlakçısının alıcılıq qabiliyyətinin aşağı olması səbəbindən ölkəmizə əsasən, ucuz qiymətli və bu qiymətə də uyğun keyfiyyətli qida məhsulları idxal olunur. Həmçinin, ərzaq məhsullarının böyük əksəriyyətini tam təmiz və yüksək keyfiyyətli şəkildə ixrac emək istehsalçının imkanı xaricindədir. Belə ki, təbii şəkildə emal olunmuş ət, süd, yağ və bəzi qənnadı məhsullarının saxlanma müddətinin 6-72 saat təşkil etməsi onların başqa ölkələrdən gətirilməsini qeyri-mümkün edir. Bunu yalnız yerli istehsal vasitəsilə etmək olar. Lakin xarici istehsalçılar da bu maneənin dəf edilməsinin alternativ yollarını tapmışlar.

Ərzaq məhsullarının tez xarab olmasına səbəb nədir? Əsasən onların oksidləşməsi və təbii bakteriyaların təsiri nəticəsində kif atmaları. Bunun qarşısını almaq üçün isə istehsalçıların köməyinə əlahəzrət kimya gəlir, özü də "böyük səxavətlə". Həmçinin, ərzağın dadını və rəngini də alıcı üçün cəlbedici etmək lazımdırsa, kimya yenə istehsalçının dadına çatır. Və budur, ərzaq məhsullarının tərkibinə müxtəlif rəngləyicilər (E-100 – E-199), konservantlar (E-200 – E-299), antioksidantlar (E-300 – E-399), tarazlaşdırıcılar və emulqatorlar (E-400 - E-599), dad və ətir gücləndiriciləri (E-600 – E-699), antifominqlər (E-900 – E-999) və s. bol-bol yeridilir. Maraqlıdır ki, Rusiyada bəlli 144 emulqator və tarazlaşdırıcıdan tən yarısı, yəni 67-si qadağan edilib. Bu kimyəvi maddələr ərzaq məhsullarının saxlanma müddətini bir və ya bir neçə il müddətinə artırmağa və istehsalçılara on milyardlarla dollar gəlir əldə etməyə imkan yaradırlar. Bütün bunlara qida məhsullarının hazırlanmasında istifadə olunan bitkilərin əkilib-becərilməsinə sərf edilən müxtəlif kimyəvi maddələri də əlavə etmək lazımdır. Təkcə Kanadada (bu ölkə dünyanın ən böyük dənli bitki və soya istehsalçılarından biridir) əkin sahələrinə ildə 35 milyon ton kimyəvi maddə səpilir. Həmçinin maraqlı cəhətlərdən biri də odur ki, satılan məhsulun qabı nə qədər rəngarəng və cəlbedicidirsə, onun tərkibində bir o qədər də yad əlavələrin olması ehtimalı böyükdür. Bu, sadəcə olaraq sadəlövh alıcıları aldatmağın çoxsaxəli texnologiyalarından biridir. Lakin ən dəhşətlisi isə odur ki, bu rəngarəng, bəzəkli qutuları müxtəlif oyuncaqlar və digər cəlbedici vasitələrlə doldurulmuş ərzaqlar əsasən uşaqlar üçün nəzərdə tutulub. Təbii ki, zahiri görünüşə daha çox əlüdə olan bu məsumların qabın içindəki fəsadlardan qətiyyən anlayışları yoxdur. Bütün bu təhlükələrdən onları xəbərdar etmək və qorumaq isə böyüklərin vəzifəsidir. Lakin bunun üçün həmin böyüklərin də qeyd olunan problemlərlə bağlı yetərincə bilikləri və məlumatları olmalıdır.

Beləliklə, istehsalçıların məqsədlərini bildirdik. Yaxşı, bəs biz – istehlakçılar nə qazanırıq? Dünyanın bir çox mötəbər təbiblərinin bildirdiklərinə görə, tərkibində müxtəlif kimyəvi və bioloji əlavələr olan ərzaq məhsullarını mütəmadi olaraq qəbul etməklə biz immun sisteminin zəifləməsi, maddələr mübadiləsinin pozulması, şəkərli diabet, deformasiyalar, xroniki yorğunluq sindromu, əsəb pozuntusu, yuxusuzluq, depressiya, allergiya, böyrək çatışmamazlıqları və s. xəstəliklərdən ibarət xoşagəlməz buket əldə etmiş oluruq. Fikir versəniz, 15-20 il bundan əvvəlki dövrə nisbətən, indiki uşaqlarda müxtəlif infeksion xəstəliklər daha ağır keçir, müalicə dövrü isə daha uzundur. Deməli, valideynlər bir yandan uşaqlarının (eyni zamanda özlərinin) orqanizmini guya vitaminlərlə zənginləşdirmək üçün onlara bol-bol belə məhsullar yedizdirir, sonra isə həmin məhsulların yaratdıqları fəsadları aradan qaldırmaq məqsədilə onları dava-dərmanla müalicə edirlər. Nəticədə isə, özlərinin və uşaqlarının sağlamlıqları hesabına həmin sağlamlığa zərər vuran işbazları zənginləşdirirlər.

Təəssüf ki, ölkəmizdə qida məhsullarının keyfiyyəti, zərərli maddələrin insan orqanizminə təsiri, bununla mübarizə üsulları və digər mühüm problemlərin öyrənilməsi istiqamətində fundamental (düzünü desək heç elementar da) elmi araşdırmalar aparılmadığından, əsasən qərb və Rusiya alimlərinin araşdırmalarına müraciət etməli oluruq. Buna rəğmən, müasir telekommunikasiya texnologiyalarının, xüsusən də internetin bu məsələlərlə bağlı müvafiq bilgiləri əldə etməyə imkan yaratması maariflənməkdə və qabaqcıl ölkələrin təcrübələrindən yararlanmaqda hər kəsə şərait yaradır. İngilislərin bir kəlamını xatırlatmaq yerinə düşər: ağıllı adam özgənin səhvindən ibrət götürür, özünün deyil . Elə isə gəlin ağıllı olaq.

Məsələn, bir faktı nəzərdən keçirək. Min illərlə tarixi olan, son dərəcə zəngin və rəngarəng milli mətbəxə malik azərbaycanlılarda sovetlər birliyi dağıldıqdan sonra təmasda olmağa imkan yaranan müxtəlif ölkələrin kulinariyasına maraq başa düşüləndir. Axı hər bir yeni şeyin insanı cəlb etməsi təbiidir. Bizim timsalımızda bu bir tərəfdən maraqdan, digər tərəfdən isə dəbdən, prestijdən, tanışların yanında lovğalanmaq, özünü elitar təbəqəyə aid etmək istəyindən irəli gəlir. Lakin xarici restoranlarda mövcud qiymətlərin yüksək olması səbəbindən müştərilərin məhdudluğu və milli mətbəxin üstünlüyü bu alüdənin kütləvi şəkil almasına imkan vermir. Əsl təhlükə mənbəyi isə son illərdə göbələk təkin artmaqda olan "təcili qida" (FAST FOOD) nöqtələrindədir. Belə ki, İsveçin Stokholm universitetinin alimlərinin apardığı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, akrilamid (akrylamide) adlı kanserogen maddənin miqdarı həmin "fast food"larda hazırlanan hamburgerlər və "fri" kartofunun tərkibində 100 dəfə, paketlərdə satılan kartof cipslərinin tərkibində isə 500 dəfə Ümumdünya Səhiyyə Təşkilatının içməli su üçün təyin etdiyi normadan çoxdur. Həmin kanserogen isə karbon birləşmələri ilə zəngin olan məhsulların (hətta düyü kimi diyetik məhsulun da) yüksək temperaturda yağda qızdırılması nəticəsində əmələ gəlir. Halbuki, qaynadılmış kartofda kanserogen heç yaranmır və o zərərsizdir. Ağ və şəffaf kristallik maddə olan akrilamid isə müxtəlif onkoloji və əsəb xəstəliklərinin yaranmasına səbəb olur. ABŞ-nin Ətraf Mühitin Qorunması Agentliyinin məlumatına əsasən isə, akrilamid təmasının nəticələri orta ağır dərəcəli kimi dəyərləndirilən kanserogenlər qrupuna aiddir.

Başqa və daha böyük təhlükə mənbəyi isə genetik modifikasiyalaşdırılmış məhsullardır (GMM). Uca Allah yer üzərində bütün canlı və cansız orqanizmləri – insandan tutmuş qum zərrələrinədək hər şeyi heyrətamiz bir harmoniya içərisində yaratmış və hər birinin funksiya və xassələrini dəqiq müəyyənləşdirmişdir. İnsanlar təbiəti dərk etdikcə Allahın möcüzələrinin hikməti və Uca yaradanın xəlq etdiklərinin mükəmməlliyinin qarşısında daim heyrətlənməkdə davam edirlər. Halbuki, bizim indiyədək öyrəndiklərimiz və dərk etdiklərimiz ümumi bilik dəryasında bir zərrədir. Allah-Təala insan kimi bir mürəkkəb orqanizmi yaratdı, insanlar isə elm və texnikanın yüksək dərəcədə inkişaf etdiyi bu müasir dövrdə Onun yaratdığının kiçik bir əzasını - mükəmməl süni ürəyi yaratmaqda acizdirlər. Bununla belə, bəzi alimlərin allahlıq iddiasına düşməsi nəticə etibarı ilə bə-

şəriyyəti Allahın qəzəbinə tuş gətirib dəhşətli bəlalara məruz qoya bilər. Söhbət isə əlbəttə ki, gen mühəndisliyinin bir sıra istiqamətlərindən gedir. Buna klonlaşdırma və genetik modifikasiyalaşdırılmış məhsullar (GMM) istehsalı aiddir. Mövzumuz qida məhsulları barədə olduğu üçün, əsasən GMM-lərdən bəhs edəcəyik.

Bütün canlıları təşkil edən zərrəciklərdə ən müxtəlif informasiyaları özlərində daşıyan DNT molekulları mövcuddur. İnsanda, onun haqqında informasiya daşıyan milyardlarla belə molekullar – genlər var. Əbəs deyil ki, bəzən geni canlının pasportu adlandırırlar.

Heç kim bəşər tarixinin öyrənilməsində, müxtəlif xəstəliklərin qarşısının alınmasında və bir çox digər sahələrdə böyük rola malik genetika elminin əhəmiyyətini təkzib etmir. Lakin elmin digər sahələri kimi, genetikanın da nailiyyətlərindən ancaq xeyirli məqsədlər üçün istifadə edilsin. İndi isə bir sıra istehsalçılar fiziki, kimyəvi və bioloji üsulla genetik strukturu dəyişdirilmiş məhsullar istehsal edir və satırlar. Artıq 10 ildən artıqdır ki, milyonlarla istehlakçı istər heyvan və quş, istərsə də bitki mənşəli genetik modifikasiyalaşdırılmış məhsullardan istifadə edir. GMM istehsalçılarının təkidlə bu məhsulların tam zərərsiz olduğunu bildirməsinə baxmayaraq, ingilis alimlərinin və Rusiya Elmlər Akademiyası Qidalanma institutu ilə Ali Əsəb Fəaliyyəti və Neyrofiziologiya institutu mütəxəssislərinin ayrı-ayrılıqda apardıqları son təcrübələrinin nəticələri bunun tam əksini göstərir. Belə ki, sınaq siçovullarına bir müddət genetik cəhətdən modifikasiyalaşdırılmış məhsul yedizdirilməsi nəticəsində bu heyvanların qanında leykositlərin miqdarı aşağı düşmüş, mədə və qara ciyərin ölçüləri kiçilərək funksiyaları zəifləmiş, ümumi çəkiləri və beyinin çəkisi azalmış, balalarının ölüm faizi artmış, həm analarda, həm də balalarda aqressivlik yüksəlmişdir. Onu da qeyd etmək lazımdır ki, siçovulların öz morfologiya və biokimyalarına görə insana çox oxşar olmaları səbəbindən laboratoriya sınaqları zamanı məhz bu heyvanlardan istifadə olunur.

Əsasən ABŞ və Kanada şirkətləri tərəfindən yetişdirilən trasgen məhsulların təhlükəli olması isə, artıq dünyanın bir çox ölkələrinin ünlü alimləri və təşkilatları tərəfindən təsdiq edilərək, bu məhsulların insan orqanizminə mümkün təsirlərinin daha dərindən və mükəmməl şəkildə öyrənilməsi barədə çağırışlar artmaqdadır. Braziliya Elm və Texnika nazirliyinin nüfuzlu komissiyası Şimali Amerika şirkəti "Monsanto"ya ölkənin cənubunda becərdikləri soya və qarğıdalı biktilərini məhv etməyi tövsiyə etmişdir. Belə ki, komissiyanın gəldiyi nəticəyə görə transgen mənşəli qida məhsullarının insan orqanizminə mənfi təsirlər göstərməyəcəyinə və qarşısıalınmaz mutasiyalara gətirməyəcəyinə tam əminlik yoxdur. Təbiət Qanunu Partiyasından ABŞ prezidentliyinə keçmiş namizəd, nüvə fiziki doktor C.Xeqelin Ərzaq və dərman preparatları komissiyasının 1999-cu il 30 noyabr tarixli toplantısındakı çıxışında GMM-lərin təhlükəsindən bəhs edərək, hökumətin bu problemə yanaşma siyasətini ciddi tənqid etmişdir. İtaliya hökumətinin müşaviri allerqoloq K.Ortolani də, öz növbəsində GMM istehsalının törədə biləcəyi fəsadların yaxın 5 il ərzində üzə çıxacağından narahatlığını dilə gətirmişdir. Bir sıra alimlər isə transgen məhsulların onları yeyən insanların törəmələrində özlərini mütləq büruzə verəcəyini bildirərək, "Amerika toyuğu" hadisəsini buna misal çəkirlər. Bir vaxtlar çoxsaylı hormonlarla zənginləşdirilmiş toyuqların insan orqanizminə heç bir mənfi təsiri olmaması iddia edilirdi. Bəli, fəsadlar həmin toyuqları yeyən insanlarda zahirən hiss olunmasa da, onların həddi-büluğa çatmış övladlarında özünü büruzə verməyə başladı. 12 yaşına çatdıqdan sonra həmin uşaqlarda "toyuq hormonları"nın işə düşməsi nəticəsində trapesiyavari, şişman bədən quruluşları yaranmağa başladı. Ən maraqlı məqamlardan biri isə, həmin hormonları istehsal edən şirkətin indi köklüyə qarşı həblər istehsal etməsidir. Bu da insanların öz sağlamlıqları hesabına işbazları varlandırmalarının daha bir əyani sübutu. Əlbəttə, bütün bunlar ilkin təhlillər, hipotizlərdir. Artıq müxtəlif dünyavi dinlərin nümayəndələri də bu məsələyə dair münasibətlərini bildirərək, klonlaşdırmanın və GMM istehsalının Allahın işinə qarışmaq və günah olduğunu təsdiqləyirlər.

Onu da nəzərə almaq lazımdır ki GMM tərəfdarları da əliboş dayanmırlar. Artıq istehsalları 10 milyardlarla dollarlarla ölçülən işbazlar da öz argumentlərini gətirir, cəmiyyəti GMM-lərin təhlükəsizliyinə inandırmağa çalışır, hüdudsuz maliyyə vəsaitlərinin hesabına özlərinə siyasətçilərdən, alimlərdən, nüfuzlu KİV-lər və QHT-lərdən ibarət tərəfdarlar toplayırlar.

Ümumiyyətlə, bütün canlı və cansız orqanizmlərin informasiya daşıyıcısı olması min illərdir ki, məlumdur. Hələ qədim Çinlilər, Misirlilər bu fenomeni bilir və yetərincə geniş yararlanırdılar. Bu maddələr içərisində isə suyun öz xüsusi yeri var. İlkin baxışda kifayət qədər sadə (H_2O) kimyəvi formulaya malik su, o qədər mürəkkəb və hətta mistik xassələrə malikdir ki, biz onun özəlliklərinin çox kiçik bir hissəsi haqqında təsəvvürlərə malikik.

Məlumdur ki, insan orqanizminin böyük əksəriyyətini su təşkil edir və o, susuz yaşaya bilməz. Lakin insan üçün ən xeyirlisi – dağ buzlaqlarından əriyib axan sudur. Çünki həmin suyun strukturu insan orqanizmində olan suyun strukturu ilə üst-üstə düşür. Ən maraqlısı isə budur ki, həmin su yeraltı çaylar şəklində muxtəlif meşələrin, dərələrin, talaların, kəndlərin altından keçdikcə kimyəvi tərkibi dəyişməsə də, gözəgörünməz daxili strukturu dəyişir. Yəni su öz hərəkəti istiqamətində müxtəlif informasiyaları toplayır. Bu səbəbdən də el arasında ağır su, yüngül su, ağ su, qara su və s. anlayışlar mövcuddur. Bir çox xalq təbabəti ədəbiyyatlarında axar suyu qaba süzdükdən sonra onu birbaşa deyil, bir müddət (ən azı bir saat) sakit vəziyyətdə "dincəldikdən" sonra içmək tövsiyyə edilir. Suyun və ümumiyyətlə yeməklərin informasiya daşıyıcısı olduğu barədə uzun əsrlərin təcrübəsinə malik olan müdrik nənələrimiz xörək bişirərkən, onu müsbət enerji ilə yükləmək məqsədilə pis fikirləri beyindən çıxarmağı, xoş təəssüratla şən mahnılar zümzümə etməyi məsləhət bilərdilər. Xüsusilə suyu və xörəyi qaba süzən zaman söyüş, qarğış və pis niyyətlərdən uzaq olmaq tövsiyyə edilirdi. Çünki bununla həmin mənfi enerji təamı qəbul edən insana ötürülmüş olurdu.

Kiçik bir misal çəkək. Rusiyanın laboratoriyalarından birinin əməkdaşı içərisində siçan zəhəri olan hermetik şüşə qabların yerini dəyişdirərkən həmin qablardan biri təsadüfən içərisində su ilə dolu stəkanın içərisinə düşür. Bir müddət keçdikdən sonra itki aşkar olur və axtarışlar zamanı həmin stəkanın içərisindən tapılır. Zəhər tutumunun hermetikliyini yoxlamaq məqsədilə, düşdüyü qabın içərsindəki suyun analizi zamanı onun tərkibinin tər-təmiz olduğu müəyyən edilir. Buna baxmayaraq, həmin suyu içmiş sınaq siçanlarının ölməsi bu mayenin nə dərəcədə güclü informativ daşıyıcı olmasını bir daha sübut edir.

Sirr deyil ki, dünyanın demək olar ki, bütün ictimai iaşə obyektlərində aşpazlar kişi cinsinin nümayəndələridir və buna səbəb kişilərin hazırladıqları təamların qadınların hazırladıqlarına nisbətən daha dadlı-tamlı olmasıdır (sevimli xanımlarımızın xətrinə dəyməsin, biz onların zəhmətini yerə vurmaq fikrindən uzağıq). Bunu bir çox səbəblərlə izah etsələr də, fikrimcə əsas səbəb təama olan genetik münasibətdədir. Baxın, qadın kişidən hədiyyə kimi əsas nələri umur: gül, zinət əşyası, pal-paltar, ətir və s., kişi üçün isə ən yaxşı hədiyyə həmin qadının bişirdiyi dadlı təamlardır. Əbəs yerə demirlər ki, kişi ürəyinin yolu onun mədəsindən keçir. Qadınlar bir yerdə olduqda hər mövzudan bəhs edirlər, bircə yemək bişirməkdən savayı. Kişilər isə bir yerdə olduqda, kulinariyadan bir neçə ifadənin ortaya atılması kifayət edir ki, bu mövzuda saatlarla çox həvəsli diskussiya davam etsin. Ona görə də, bu işə daxili həvəs, ilhamla yanaşan kişilərin proses zamanı öz müsbət enerjiləri ilə yüklədikləri təamlar daha dadlı olur.

Qədim Çinlilər isə deyirdilər: dərman bitkilərindən istifadə edərkən onun kim tərəfindən və necə toplandığını mütləq bilmək lazımdır, çünki xoş niyyətlə toplanmış bitki məlhəmdirsə, pis niyyətlə toplanmış bitki zəhərdir.

Hazırda inkişaf etmiş ölkələrdə min illərin təcrübəsinə əsaslanan bu müdrik bilgilərə tam ciddiliyi ilə yanaşılaraq, müvafiq elmi araşdırmalar aparıldığı halda, sovet dovründə beyinlərimizə aşılanan nadan ateizm təlimlərinin təsiri altında belə şeylərə dırnaqarası baxırıq və acı nəticələr özünü gözlətmir.

Bəs, belə bir mürəkkəb şəraitdə nə etməliyik? Birinci növbədə qida məhsulları sahəsində yerli istehsalı artırmaq lazımdır. Necə deyərlər, bu həm cibimizə, həm də canımıza xeyirdir. Bunun üçün isə kompleks tədbirlər görülməlidir: qida sahəsi üzrə daha sərt standartlara malik avropa ölkələrinin təcrübəsindən yararlanmaqla mükəmməl qanunvericilik bazası yaradılmalı, daxili istehsal stimullaşdırılmalı, istehlakçıların hüquqları daha effektiv qorunmalı, qida məhsullarının (istər yerli, istərsə də xarici) keyfiyyətinə dövlət və ictimai nəzarət gücləndirilməli, təhlükəli məhsulların idxalının qarşısının alınması üçün müvafiq tədbirlər görülməli, həm istehsalçı, həm də istehlakçı arasında intensiv maarifləndirmə işləri aparılmalıdır. Eyni zamanda, kənd təsərrüfatında biotexnologiyaların tətbiqi təlqin edilməlidir. Axı, Allahın təbiət vasitəsi ilə insanlara bəxş etdiyi belə texnologiyalar bir çox hallarda kimyəvi vasitələrdən istifadələri minimuma endirməyə, bəzən isə tam aradan qaldırmağa imkan verir. Ən önəmlisi isə odur ki, bu texnologiyaların tətbiqi ekoloji cəhətdən təmiz məhsul almaqla yanaşı, məhsuldarlığı da əhəmiyyətli dərəcədə artırmağa və nəticə etibarı ilə daha çox gəlir əldə etməyə şərait yaradır. Sadəcə, bunun üçün bağlı Azərbaycan fermeri lazımınca və mükəmməl şəkildə maarifləndirilməlidir. Bu məsələnin özü isə ayrıca və son dərəcə maraqlı bir söhbətin mövzusudur.

Yalnız bu yolla biz həm genofondumuzu və sağlamlığımızı qoruyar, həm də iqtisadiyyatımızı dirçəldərik.

R.MƏMMƏDOVA
Sənətşünaslıq doktoru, professor,
AMEA-nın müxbir üzvü

AZƏRBAYCAN MUĞAMLARININ QAYNAQLARI

Muğam dünya musiqi mədəniyyətinin parlaq səhifəsidir. Onu öyrənmədən, tədqiq etmədən dünya mədəniyyətinin inkişaf yollarını tam işıqlandırmaq mümkün deyil. Muğam qaynaqlarının öyrənilməsi xüsusi əhəmiyyətə malikdir, belə ki, muğamın səciyyəvi cizgilərinin formalaşması, şübhəsiz, milli spesifika ilə, folklor melosu, daha geniş kulturoloji aspektdən götürsək, Azərbaycan millətinin vahid etnos kimi formalaşması ilə bağlıdır. Əsrlərlə "yaşayan", günümüzədək gəlib çatmış Azərbaycan muğamları yalnız yüksək, mütəşəkkil musiqi təfəkkürü deyil, həm də Azərbaycan Folklorunun burada cəmlənmiş qiymətli arxetipi haqqında əvəzsiz informasiya mənbəyidir. Biz folklor əsaslarının, qaynaqlarının daxilən bölünməzliyi, hələ də aşkarlanmamış Azərbaycan muğamının melodik strukturunda assimilyasiya prosesinin "özünəməxsusluğunu" nəzərdə tuturuq. Muğam bir forma kimi uzunmüddətli təşəkkül yolu keçmişdir. Muğamın özündə muğamvarilik fenomenini Azərbaycan xalqının melosyaradıcılığının forması kimi göstərmək, onun qaynaqlarının qədimliyini, köklərinin millîliyini sübut etmək deməkdir. Bu aspekt Azərbaycan muğamlarının tədqiqində olduqca aktualdır. Məhz bu aspektdə muğam, Azərbaycan xalq musiqisinin tarixən formalaşmış, müəyyən inkişaf yolu keçmiş sistemi kimi dərk olunur. Bu prosesdə mütəşəkkil funksional ladtonallığın təsiri müəyyənləşdirici rol oynamışdır.

Azərbaycan muğamı qaynaqlarının nəzəri tədqiqinin aktuallığı həm də fərdi yaradıcılıq icrasına həssaslıqla imkan verən formanın çevikliyi ilə də bağlıdır.

Müasir muğam həm ənənəvi kanona istinad edən, həm də daimi zənginləşməyə meyilli bədii axtarışlar məcmuəsidir. Bu axtarışların məğzi nədədir? Onlar həmişə muğamı təkmilləşdirir, yoxsa?

Azərbaycan muğamlarının yaranması haqda müxtəlif tədqiqatlar mövcuddur. Bir qayda olaraq, daha tez-tez IX-XII əsrlərin adı çəkilir.

Lakin muğamın üslub fenomeni kimi Ərəblərin Azərbaycana gəlişi ilə, saray kübar dairələrində yarandığını ehtimal etsək belə, yaxın və orta şərqin şifahi ənənəli professional musiqisinin əsas cizgilərini saxlayan müasir muğam genetik cəhətdən folklor qaynaqları ilə bağlıdır. Azərbaycan muğamının təkamülü, şübhəsiz, janrın demokratikləşməsi ilə əlaqədar idi. Beləliklə, söhbət muğamda folklor və professional səviyyələrin sintezindən gedir.

Müəyyən ictimai-iqtisadi şəraitin ümumiliyi, tarixi inkişaf prosesində qarşılıqlı əlaqələrin inkişafı nəticəsində müsəlman ölkələrinin musiqi mədəniyyəti vahid yaradıcılıq çevrəsində yerləşmişdir. Yaxın və orta şərq xalqlarının incəsənətindəki oxşarlıq bir çox sahələrdə özünü büruzə verir. Eyni zamanda, milli- mədəniyyətlərin təşəkkülünün müəyyən mərhələlərində müstəqil musiqi sistemləri də yaranırdı. Azərbaycanda da qədim köklərə malik lad sistemi formalaşmışdır. Biz Azərbaycan muğamlarının qaynaqlarını və formalaşmasını əks etdirən yeni elmi-nəzəri konsepsiya irəli sürürük. Üzeyir Hacıbəyovun Azərbaycan xalq musiqisinin nəzəri əsaslarını ümumiləşdirən sisteminə əsaslanaraq, biz Azərbaycan lad sistemi və muğamların tədqiqində yeni metodologiya təqdim edirik. Muğamın quruluşu Azərbaycan xalq musiqisində gedən ladyaranışı proseslərini təcassüm etdirir. Muğamın formasının, onun lad əsası ilə qırılmaz əlaqəsini nəzərə alaraq aşağıdakı məsələləri diqqət mərkəzinə çəkirik:

Muğamın ladintonasiyası dinamik imkanların dərin ladfunksional təhlil metodlarından istifadə etməyə imkan verir.

Azərbaycan muğamlarının konkret təkamül formalarını nədə görmək olar?

Şübhəsiz, Azərbaycan ladlarının formalaşmasının obyektiv qanunauyğunluqlarında, daha dəqiq desək, xalq ifaçılığı praktikasında baş verən əsas ladfunksional və intonasiya xassələrinin cilalanmasında.

Bu məsələlərin kompleks həllində biz ladyaranışını kiçik həcmli dönmələrdən, geniş, funksional baxımdan mütəşəkkil lada qədər izləyən metodikadan istifadə edirik. Tonal mərkəzləşmiş sistem Azərbaycan muğamlarında ladın bütün imkanlarını açır. Nəzəriyyəçi alimlərin vətəndaşlıq borcu bütün diqqəti Azərbaycan musiqisinin konkret fundamental qanunauyğunluqlarının tədqiqinə yönəltməkdir. Bu, milli sənətimizi qorumaq yolunda əvəzolunmaz addımdır.

Şifahi irsin, folklorun qorunmasında təkcə materialın toplanması, yazılması, işlənməsi deyil, həm də onun öyrənilməsi əsas şərtlərdən biridir. Azərbaycan muğamının təməlyüklü xassələrinin və qaynaqlarının müəyyənləşdirilməsi, onun konstruktiv parametrlərinin tədqiqi və fiksasiyası da bu janrın qorunması və inkişafına xidmət edir.

Orta əsr mənbələrinin öyrənilməsi bu baxımdan çox vacib mərhələdir. Lakin bir məqamı dəqiqləşdirmək istərdik: orta əsr ədəbiyyatından gələn məlumatlar bizim üçün tam informasiya xarakteri daşıyır. İlk növbədə bu məsələlərdə, "Ərəb-müsəlman aləmi" adlandırılan böyük bir regionun mədəniyyəti işıqlandırılır. Eyni zamanda, orta əsr risalələrinin daha dərindən öyrənilməsinə böyük ehtiyac var. Bütün bu məlumatları müasir muğama şamil etmək nə dərəcədə məqsədəuyğundur? Zənnimizcə, istənilən mənbəşünaslıq işi "muzey eksponatı" deyil, canlı elmdir. İlkin mənbələrin yazıldığı dili də mükəmməl bilmək əsas şərtdir. Axı söhbət müəyyən dövrün mürəkkəb terminoloji sistemindən gedir.

Bizə məlum olan bütün işlərdə çatışmayan əsas cəhət qavramaq qanununun nəzərə alınmamasıdır. Muğamın tarixi aspektdən öyrənilməsində həqiqət axtarışları musiqili perseptiv aspektdən kənarda mümkünsüzdür.

Müasir Azərbaycan muğamına orta əsr musiqi mədəniyyətinin "ölçüləri" ilə yanaşmaq düzgün deyil. Şübhəsiz, müəyyən lad və forma ünsürləri artıq orta əsr musiqi-nəzəri fikrində və musiqi praktikasında yaranmışdır. Müasir muğam isə son nəticədə tamamilə başqa bir musiqi qavrayışının məhsuludur. Muğamın formalaşmasında iştirak edən xalq yaradıcılığı Azərbaycan musiqisinin bu möhtəşəm, bədii cilalanmış formasının möhkəm fundamenti, əsası olmuşdur. Məhz bu fundamentə malik olduğuna görə muğam Şərq xalqları mədəniyyətinin çoxəsrlik tarixindən itməmiş, xüsusi dərinliyi və ifadəliliyi ilə fərqlənən əsaslı xassələrilə birgə hifz olunmuşdur.

Muğam, kanonik mədəniyyətlərə aid olan bədii yaradıcılıq tipidir. Kanonik mədəniyyətlərin yaranması, onların təşəkkülünün izlənməsi son dərəcə çətindir. Uzaq keçmişə aid əsərlərin analitik rekonstruksiyasını yaratmaq o qədər də asan

Xan Şuşinski, Bəhram Mansurov, Tələt Bakıxanov

deyil. Muğamın bu aspektdə öyrənilməsi böyük məsuliyyət tələb edir. Çünki biz Yaxın Şərq xalqlarının, sonralar uçub-dağılaraq hər bir xalqa öz musiqi "barigahını" tikməyə imkan verən "musiqi binasının konkret musiqi materialına" malik deyilik.

Bundan başqa muğamın etnik aspektdə öyrənilməsi Azərbaycan elminin çox mühüm sahəsinə, milli xarakterin spesifikası aləminə yol açır. Milli xarakterin özünəməxsusluğunu açmadan, xalq yaradıcılığının peşəkar janrların təşəkküləndə əsaslı rol oynamış prinsiplərinin təkrarolunmaz cəhətlərini aşkarlamaq qeyri-mümkündür. Burada etnos və etnik proseslərin ümumi nəzəriyyəsi məcrasında getmək və bu sahədə artıq formalaşmış metodologiyanı istifadə etmək məqsədəuyğundur. Fikrimizcə, iki qarşılıqlı əlaqəli məsələni dəqiq differensasiya edən müddəaya əsaslanmaq düzgün olardı: bir tərəfdən, bu və ya digər xalqın sənətinin unikallığı, təkrarolunmaz cəhətləri, digər tərəfdən etnosun mövcud olduğu məkan və zaman çərçivəsində bu cəhətlərin təkrarlanmasının sabitliyi.

Biz "millətin səciyyəvi xüsusiyyətləri strukturunun unikallığı" postulatından çıxış edirik. Bu zaman "bu struktura daxil olan elementlər ümumidir". Muğam da milli xarakterin özünəməxsusluğunun müəyyən kompleksini modelləşdirən bir strukturdur. Bu yönümlü tədqiqatın uğurlu nəticəsinin əsası milli xarakterin spesifik xassələrinin müəyyən tarixi şərait və mədəni təsirlərin məhsulu kimi nəzərə alan düzgün metodoloji yanaşmadır. Bu xüsusiyyətləri tarix doğurur və tarixlə bərabər onlar da dəyişilir.

Muğam bir çox məqamlarda folklor təfəkkürü qanunları ilə qurulur. Muğamdakı folklor mənbəyi xalq sənətinin dərinliklərindən gələn öz qanunlarını diqtə edir.

Realist sənətin istənilən əsəri özündə etnik koordinat gəzdirir. Muğama, fikrimizcə, xüsusi etnik "sıxlıq" xasdır, o özündə etnik inkişafın bir neçə təbəqəsini əks etdirir. Muğam yalnız kanonik təşkil olunmuş bütöv bir ənənələr sistemi deyil, o, həm də, açıq və ya pərdələnmiş şəkildə, sıxlaşmış vəziyyətdə bir neçə mədəni qatları cəmləşdirir. Bu halda muğamın lokal (yerli) təkrarolunmaz cəhətləri folklorun özünəməxsus mündəricəsi ilə şərtlənirsə, peşəkarlıq aspekti formalaşmış, müəyyən regionlararası kanonlarla bağlıdır. Başqa sözlə desək, muğamda musiqi dilinin bütün faktorlarının uzlaşması xalq musiqisindən fərqli bir sistemə tabedir: bu, identik materiala (biz lad əsasını, melodik dönəmləri, ritmik təşkilin ümumiliyini və s. nəzərdə tuturuq) əsaslanan ayrı bir konstruktiv təşkil, ayrı bir "lər" sistemidir.

Muğam Azərbaycan incəsənətinin bir çox sahələri ilə sıx bağlıdır. Muğam bədii təfəkkür prinsipidir və onda bütün Azərbaycan incəsənəti üçün ümumi olan mündəricə "toxumu" vardır. Ona görə də muğamın folklorla əlaqələri əsas mündəricə sütununu, Azərbaycan incəsənətinin təkrarolunmaz özünəməxsusluğunu, onun vahid funksional məzmununun cövhərini aşkarlamağa imkan verir.

Muğam yalnız "uzaq keçmiş"in abidəsi deyil. O, müasir musiqi həyatının canlı orqanizmi, onun ayrılmaz parçasıdır. Ona görə də bu aspekt muğam yaradıcılığının qaynaqlarının öyrənilməsi problemini geniş estetik ümumiləşdirmələr planında qoymağa imkan verir.

Qeyd etdiyimiz kimi, muğam yaradıcılığı bir çox tədqiqatçıların diqqətini cəlb edir, onun tədqiqi ən müxtəlif aspektləri əhatə edir. Bu, musiqi dili və forması, improvizasiya və kanon problemləri, orta əsr Şərq musiqi risalələrinin tarixi-nəzəri işıqlandırılması, ifaçılıq məsələləridir. Muğam yaradıcılığının qaynaqları kimi mühüm fundamental, muğam nəzəriyyəsi və onun yaranması tarixində çox mətləbləri üzə çıxarmağa imkan verən sahənin tədqiqində müəyyən addımlar atılmışdır. Muğam yaradıcılığının qaynaqları problemi muğamda forma və məzmun problemi ilə sıx əlaqədə götürülməlidir. Çünki onların "sərhədləri"ndə bir sıra maraqlı məqamlar açılır. Onların ikisi üzərində dayanaq: muğ-

amda "bədii kəşf"in sirri, muğamda folklor və peşəkarlığın ölçüsü formasını alan qaynaqların əlaqəsi məsələsi.

Maraqlıdır ki, burada birbaşa asılılıq yaranır: bir tərəfdən, muğamın qaynaqları muğamın "mündəricə nüvəsinə" və ondan şaxələnən ideyalara işıq salır. Muğam yaradıcılığının qaynaqları problemi çox mürəkkəbdir. Ona görə də, ilk növbədə, muğamın əsasında duran əsas xüsusiyyəti müəyyənləşdirmək lazımdır. İlkin fərziyyədə muğamın həm məzmun "genləri" həm də mümkün qaynaqları sintezləşməlidir. Artıq deyildiyi kimi, bu xüsusiyyət muğamın şifahi professional ənənə kimi təyin olunmasında öz ifadəsini tapır. Muğam sistemi daxilində iki magistral xətt görünür: folklor qaynağı və inkişaflı formada təcəssümünü tapan kanonik nümunə. Muğam bu iki yaradıcılıq səviyyəsinin folklor və peşəkarlığın sintezi ilə əlamətdardır. Muğam ifaçı fantaziyasını dəqiq muğam qaydaları ilə tənzimləyən kanonik faktorsuz yarana bilməzdi. Eyni zamanda, bu kanon həddən artıq təfsilatlı da ola bilməzdi. Bir tərəfdən, muğamın dramaturji "formulası" folklor şüuru prinsiplərinə əsaslanır. Bu zaman ilkin "formula" özünəməxsus genetik kod əhəmiyyətinə malikdir. Digər tərəfdən muğam "barigahı" dramaturgiyanı böyük ideya, bədii konsepsiyanın təsiri ilə formalaşdıran mədəni təbəqəyə aiddir. Söhbət Şərq regionunun mədəniyyəti və orta əsr fəlsəfəsi ilə bağlı təfəkkür prinsipindən gedir.

Muğam Azərbaycan intibahı dövründə "fikir yüksəkliyi və qəlb dərinliyində" (B.Asafyev) yaranmışdır. "Musiqi sənətinin başqa janrları kimi muğam dinləyicilərin estetik tələbatına cavab kimi yaranaraq XII-XIV əsr Azərbaycan cəmiyyətinin mütərəqqi hissəsinin dünyagörüşünün ifadəçisinə çevrildi. Dövrün sosial-ictimai şəraitinə cavab verən muğam öz əsas ictimai-tarixi funksiyasını yerinə yetirirdi". Muğam orta əsrlərdən yeni dövrə keçidin məhsuludur. Daha dəqiq o, həm şifahi, həm də yazılı ənənəni qarşılıqlı surətdə əlaqələndirən mədəniyyət tipinin yaranmasını bəyan etdi. Tədqiqatçılar bu keçidin səciyyəvi cəhətini qeyd edirlər: mərasim hərəkətindən psixoloji cəhətdən motivasiya edilmiş hərəkətə keçid. Medievistlər elə hesab edirlər ki orta əsr mədəniyyəti yazılı və şifahi ənənələrin çarpazlaşması müstəvisində mövcud olmuşdur.

Beləliklə, muğamda folklor başlanğıcı və peşəkarlığın uzlaşması, ilk növbədə, dövrün səciyyəvi cəhətləri ilə bağlıdır.

Bir çox orta əsr risalələri Şərqin peşəkar musiqisinə həsr olunmuşdur. Bu peşəkar sənətdə müəyyən qavrayışa istiqamətlənmə qanunu fəaliyyət göstərir. Bu qanun şüurlu və məqsədəyönlü şəkildə tənzimlənir. Təsadüfi deyil ki, orta əsr nəzəriyyəçiləri dinləyici diqqətinin toplanması, musiqi səslənməsinə daimi marağın saxlanması üçün ahəngdar səsləşmələrin axtarışı kimi mürəkkəb problemlər qoyur və həll edirdilər. Bu istiqamətdə məntiq, məna kateqoriyaları ön planda dururdu. Lakin bu risalələrdə xalq musiqisi haqda məlumat demək olar ki, yoxdur. Bir çox medievist alimlər hesab edirlər ki, feodal cəmiyyətinin ideoloqları nəinki xalqı öz fikir və hisslərinin fiksasiyasından uzaqlaşdırmışdılar, onlar həm də, sonrakı dövrlərin tədqiqatçılarını xalqın mənəvi həyatının əsas cəhətlərini bərpa etmək imkanından məhrum etmişdilər. Məlumdur ki, orta əsr təhsilinin əsasında intellektual elita və həmin dövrün xalq mədəniyyəti durur. Bu aspekt, alimlərin fikrincə, elmi üçün yeni, demək olar ki, tədqiq olunmamış bir sahədir. Bu baxımdan muğamda xalq musiqi "payının" öyrənilməsi müəyyən bir şansdır. Etnomusiqişünasların ehtimal etdiyi kimi, bəzən hətta bir musiqi ifadəsi xalqın tarixi haqda cild-cild kitablardan daha çox məlumat verə bilər.

Musiqi haqda orta əsr şərq risalələrinin praktiki əhəmiyyətini vurğulayan tədqiqatçılar tamamilə haqlıdırlar. Lakin müəyyən istiqamətlərdə perspektivli olsa da, bu risalələr muğamın hərtərəfli tədqiqi üçün kifayət etmir, çünki, muğamın əsrdən-əsrə keçən və fəaliyyət göstərən "geni" haqda təsəvvür oyatmır. Söhbət Azərbaycan şifahi ənənəli professional musiqisinin folklor qaynaqların-

Cabbar Qaryağdıoğlu öz ansamblı ilə

dan gedir. Lakin şifahi ənənəli professional musiqi sənətinin xalq mahnı sənəti ilə qarşılıqlı əlaqəsinin mövcudluğuna dair orta əsr mütəfəkkirlərinin tərcümeyi-halında kifayət qədər faktlar var. Ə.Maraği "xalq musiqiçiləri ilə görüşür, onların, bəzən onun özü üçün mühüm qeydlərini diqqətlə dinləyirdi. Ə.Marağinin irsini tədqiq edən S.Ağayeva onun yaradıcılıq tərcümeyi-halından maraqlı və diqqətəlayiq bir faktı göstərir: "Müxtəlif musiqi əsərlərini növhə, qəzəl bəstələyərkən Maraği müəyyən edilmiş kanonlara yaradıcı münasibət bəsləyir, bəzən də ton ardıcıllıqlarının ciddi qanunlarını pozaraq, musiqi formalarını mürəkkəbləşdirirdi". Bu cür münasibəti ehtimal ki, təkcə musiqiçinin parlaq istedadında, onun yaradıcılıq axtarışlarına meylilə deyil, həm də o dövrün xalq musiqisinin təsiri ilə də izah etmək olar.

Təbiətə kortəbii materialist mövqelərdən yanaşan Əbdürrəhman Cami hesab edirdi ki, musiqi heç də pifaqorçuların izahında olduğu kimi kosmik sferaların əksi deyil. O, insanların harmoniya və gözəlliyə olan təbii tələbatı nəticəsində yaranmışdır. Bu cür nümunələri hələ çox gətirmək olar.

Professional muğam sənətinin digər bir aspekti xanəndə ifaçılıq sənəti ilə bağlıdır. "Müğənni-xanəndələr, məharətli ifaçı sazəndələr dünya şöhrətli müasir artistlərdən geri qalmayan yüksək səviyyəli virtuozlar idi".

Təsadüfi deyil ki, fərdi və kollektiv yaradıcılıq münasibətləri, yaradıcılıq prosesləri məsələləri Şərqin dahi mütəfəkkirlərinin irsində mühüm yer tutmuşdur. Demək olar ki, hər bir risalədə bəstəkarlıq problemlərinə həsr olunmuş xüsusi bölmələr var. Bir çox risalələrdə melodiyanı necə yaratmaq qaydalarına bələd olmaq fikri qırmızı xətt kimi keçir.

Ə.Maraği "Came-əl-əlhan" risaləsində yaradıcılığın əsas problemlərindən yazarkən qeyd edir ki, hər kəsin musiqi sənəti ilə məşğulluğu müvəffəqiyyətli alına bilməz. Çünki bunun üçün istedad lazımdır. Əgər Allah vergisi olan gözəl səsə müğənni "öz bilik və vərdişlərini də əlavə etsə, o, əvvəlkindən də artıq dərəcədə məşhurlaşacaq və belə müğənnini kamil adlandıracaqlar".

Xanəndə sənətinin yaranmasında musiqi və poeziyanın qarşılıqlı zənginləşməsi də mühüm rol oynamışdır. Şairlər öz şeirlərini musiqi müşayiəti ilə ifa edirdilər. Bu zaman şair dramatik aktyora çevrilir. Şeirlər isə xüsusi bir deyiliş tərzinə malik olurdu. Məlum olduğu kimi. peşəkar poeziyada qəzəl çox geniş yayılmışdır. Qəzəlin musiqililiyi şeirin xüsusiyyətləri ilə bağlıdır. Bir çox tədqiqatçıların qeyd etdiyi kimi, qəzəllərin musiqililiyi onların ifası, oxunması ilə daha da artırdı. Bununla belə məhz muğamın folklor qaynaqlarına müraciəti onun, məsələn, obraz, emosional məzmununun məhəbbət lirikası və fəlsəfi nəsihət, düşüncə aləmi ilə bağlılığı faktının konstatasiyasından daha geniş imkan açа bilər. Muğam dünyasının dərinliyinə yalnız onun folklor qaynaqlarına baş vurmaqla varmaq olar.

Azərbaycan ərazisində musiqinin qədim zamanlardan yaranması faktlarına, muğamların və müxtəlif ladlarda saysız-hesabsız melodiyaların, orta əsr alimlərinin risalələrində təsvir edildiyi kimi inkişaf etmiş lad sisteminin mövcud olmasına baxmayaraq, keçmiş dövrlərin musiqisinin konkret mənzərəsini yaratmaq hələ ki, mümkün deyil. Düzdür, qeyd etməliyik ki, bu sahədə də ilk addımlar artıq atılır. Ona görə də biz müəyyən melodik formaya malik oxuma tərzi, muğam oxuma tərzi haqqında danışacağıq. Bu, "janr üstü" bir təzahürdür.

Bir çox tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, Şərqdə muğamvarilik xüsusi bir muğam intonasiyaetmə tərzidir. Bu cür oxuma üslubunun qədim zamanlardan mövcud olmasının sübutları az deyil. İlk öncə onu qeyd edək ki, muğamvarilik deyilmiş sözün magik təsiri ilə ovsunlayır. Muğam sənətinə emosional nitqin qatılığı, səsin gözəlliyinə xüsusi bir pərəstiş xasdır. Şərqdə söz və vaizlik kultu qədim dövrlərdən yaranmışdır. İndiyədək yaşayan əfsanələrdə müğənninin Allah vergisi, fəhmi haqda görüşlər yaşayır. Ümumiyyətlə qeyd etmək lazımdır ki, öncə görmə, peyğəmbərlik motivləri, sözün qüdrəti Azərbaycanda qədim zamanlardan mövcuddur. Zərdüştün qatları da reçitativ üslubu ilə oxunurdu. Muğam söz ilə hərəkət yaradır, təsvir edir, yəni burada sadəcə olaraq, oxumaq və sözləri tələffüz etmək deyil, məhz sözlə hərəkət etmək lazımdır. Sözün qüdrətli təsiri ilə muğam özü qüdrətlənir.

Belə hesab olunur ki, Quranın oxunması onun təsir qüvvəsini çoxaldır. Ərəb musiqişünası Samxa El Xoli Şərqdə improvizasiya sənətində (muğam üslubu nəzərdə tutulur) aşağıdakıları müəyyənləşdirir: "İmprovizasiyanın ən qədim və əsil ifadəsi - Quran ayələrinin oxunması sənətidir". Ərəb musiqişünası X.X.Tuma intonasiyaetmə tiplərinin, üsullarının müxtəlifliyini fərqli "melodik kateqoriyalar" adlandırır və yerli musiqiçilərin bu haqda izahlarını verir. "Bir kateqoriya Şərqdə Bəstə, Bəşrəf, Rəman, Rəng, Təsnif, Müvəşşəx və s. adlarla, başqa bir kateqoriya, Təqsim, Güşəh, Muğam, Ləyali, Makam adı ilə tanınır" .

Melodiyanın muğam tipi necədir? Öz estetik məzmununa görə muğamvarilik mahnıvariliyə uyğun gəlir. Bu, yüksək estetik, milli-səciyyəvi məzmuna malik oxumadır. Muğamvarilik, mahnıvarilik kimi – musiqi intonasiyaetmənin prinsipi, spesifik, konkret milli musiqi təfəkkürü tərzidir. Muğam oxuma tipi özündə konflikt rüşeymi saxlayır. Bir tərəfdən bu başlanğıc, parlaq melodik, mahnıvari, axıcı, oxunaqlıdır. Burada geniş nəfəs, xüsusi bir zaman məsafəsi ilə səciyyələnən musiqi poetikasının lirik əhvalı hökm sürür. Eyni zamanda muğamda onu fərqləndirən keyfiyyət əlamətləri müxtəlif növlü parçalanmalar, qopmalar və materialın başqa aktiv inkişaf üsulları böyük rol oynayır.

Muğamın melodik üslubuna xalq ifaçılığı və mahnı lirikasının təsiri probleminə nəzər salaq. Qeyd etdiyimiz kimi, muğam yaradıcılığı qaynaqlarının aşkarlanması problemi çox mürəkkəbdir. Bu da təbiidir, axı muğam şifahi ənənəli yaradıcılıqdır, muğamın not yazısı isə onun müasir mövcudluq formasının əksidir. Məlumdur ki, muğamın yaşı yüzilliklərlə ölçülür, lakin bizə heç onun beş yüz il əvvəl necə səslənməsi məlum deyil. Ona görə də muğamın tədqiqində onun forma və intonasiya simasındakı ilkinlik faktorunun hifz olunmasına xüsusi fikir vermək lazımdır.

Artıq qeyd etmişik ki, muğam özündə çox şeyi assimilyasiya etmişdir. Burada həm lirik mahnı melodiyasının, kədərli ağı intonasiyalarının, mərasim havasının, qəhrəmanı marşın sədalarını eşitmək olar. Maraqlıdır ki, folklora da bu cür sintez xasdır. Bəzi mərsiyələrin təntənəli mədhedici xarakterini yada salaq.

"Xalqın dünyagörüşündə həmişə ölümə ağlamaqla, ağı ilə qalib gəlirlər. Ağı yalnız ölüm üçün deyil, həm də həyat üçün oxunur. Ağı özü-özlüyündə öz inkarını mahnını daşıyır". Muğamın daha bir səciyyəvi cəhətinə: epos və lirikanın, obyektivlik və subyektivliyin sintezinə diqqət yetirək. Lakin bu, həm də folklorun xassəsidir. Eposun ətraf mühitdə lirik nəzərdə ifadə olunması. Bu, folklorla bu və ya digər tipoloji əlaqələrə, folklor qaynaqlarına malik olan, özünün professional janr kimi sütununu saxlayan muğam sisteminə yalnız bir baxış, bir nəzərdir.

Beləliklə, muğamın özündə onu müxtəlif tərəflərə çevrilməyə imkan verən genetik janr sintezi fəaliyyət göstərir. Muğam özündə həm epik, həm lirik həm dramatik xassələri cəmləşdirir.

Qeyd etdiyimiz kimi, muğamda peşəkar kanon muğamın dayaqlandığı ənənəvi təməl daşının biridir. Muğamda xalq musiqi nitqinin aşıq, mahnı, mərasim, rəqs musiqisinin müəyyən ritmintonasiya formaları sintezləşir. Şübhəsiz, muğam janrının dili, "ədəbi" dildir, dil üslublarının mürəkkəb dinamik sistemidir.

Amali-tərəqqi

Həqiqi arzumuz intizami-hali-millətdir,
Məsaimiz bütün məsrufi-istikmali-millətdir,
Əsasi-fikrimiz təmini-istiqbali-millətdir,
Ürəkdə bəslənən amalımız iqbali-millətdir,
Yeganə nöqteyi-mətlub... millətdir.

Olubdur dağidari-qəm vətən nari-cəhalətdən,
Sönüb nuri-maarif tündbadi-cəhlü qəflətdən,
Yox asari-səadət, dop-dolu xari-şəqavətdən,
Vətən gülzari xar olmuş yədi-ərbabi-şərrətdən,
Bizim məqsudimiz islahi-hali-adəmiyyətdir.

Vətən pir edir bir qönçeyi-növxizi-ruhani,
Soluq bağı-həyatə tabbəxş olmaqda irfani,
Füyuzatilə ehya etmək istər bağı-vicdani,
Nəsimi etmədə təhziz hissiyyati-insani,
Rəvayihbəxşü behcətzayi-gülşənzari-millətdir.

Cahanə gəlmədən məqsud təhsili-məanidir,
Məani baisi-neyli-həyati-cavidanidir,
Məani şəhri-insaniyyətə üssül-məbanidir,
Məanipərvər olmaq bizcə əqsayi-əmanidir,
Ən istəkli əməlimiz irtiqayi-mülkü millətdir.

Həqiqət sayəsində kəsbi-qüdsiyyət qılar millət,
Həqiqətlə edər növ`i bəşər təhsili-hürriyyət,
Həqiqətlə olur bağı-vətən gülzari-əmniyyət,
Həqiqət zahir olsa, parlayar ənvari-ülviyyət,
Həqiqətbin olanlar vasili-fövzü hidayətdir

MƏHƏMMƏD HADİ

* Bu şer Füyuzat jurnalının 1906-cı ildə çıxmış ilk nömrəsindən götürülmüşdür

...ai - səylər, cəhdlər
...ruf - sərf edilmiş
...mal - tərəqqi
...bal - gələcək
...l - tale
...lub - istənilən, arzu edilən
...dar - yaslı, matəmli
...cəhalət - cəhalət atəşi
...lbad - sərt külək, fırtına
... - cahillik
...i - səadət, xoşbəxtlik əsəri
...vət - bədbəxtlik
...ərbabi-şərrət - şər insanların əli
... qoca
...iz - yeniyetmə

Tabbəxş - güc, qüvvət verən
Ehya etmək - diriltmək
Təhziz - ləzzət almaq
Rəvayihbəxş - gözəl qoxu bəxş edən
Behcət - gözəllik, nəşə, sevinc
Gülşənzar - gül bağçası
Təhsili-məani - mənalar əldə etmək
Neyl - nail olma
Həyati-cavidani - əbədi həyat
Üss - əsas, təməl
Məbani - başlanğıc
Məani pərvər - mənaparəst
Əqsa - uzaq
Əməl - arzu, istək
İrtiqa - yüksəltmə

Həqiqi xəzinə

Hazırlayan M.YUNUSOV

Əli uzun illər boyu babasından bu hekayəni dinləyərək böyümüşdü. Başqa hekayələrdən fərqli idi bu hekayə. Bir dəfinədən bəhs olunurdu. Qızıl ilə dolu bir sandıqdan ibarət olan bir dəfinədən. Amma bu dəfinənin bir xəritəsi olmadığı üçün bu sandığı tapmaq elə də asan deyildi, maraqlı bir yol izləməliydi Əli. Qırx canlıya, qırx yaxşılıq etməliydi.

Əli hekayənin təsirində elə qalmışdı ki, babasının ölümündən illər keçməsinə baxmayaraq, hələ də bu hekayəni unuda bilməmişdi. Uzuz-uzun düşündükdən sonra qərar verdi. Nə qədər çətin olsa da, dəfinəni tapmaq üçün əlindən gələni etməliydi. Üç il boyunca bu yaxşılıqları etmək üçün çoxlu cəhdlər göstərdi. Qırx ağac əkdi, qırx uşaq geyindirdi, qırx xəstəyə qulluq etdi, qırx qocaya köməklik göstərdi. Etdiyi yaxşılıqların sayəsində ətrafındakı insanlar tərəfindən sevilirdi. Əli də bu cür sevilməkdən məmnun idi. Artıq Əli Xızır Əli kimi çağırılırdı. Düz otuz doqquz dəfə qırx canlıya yaxşılıq etmişdi. İndi qırxıncı dəfə fərqli bir yaxşılıq etməliydi. Amma etdiklərindən başqa ağlına heç bir şey gəlmirdi. Dəfələrlə fikirləşib bir şey tapa bilmədi ki, bilmədi. Nəhayət gedib bir yol kənarında gözləməyə başladı. Gəlib keçən insanlardan son yaxşılığın nə ola biləcəyini soruşsa da onu ya dəli zənn edib cavab vermədilər, ya da etdiyi yaxşılıqlardan birini dedilər.

Günlər keçdikcə Əli çarəsizlik içərisində qıvranıb dərdinə dərman tapa bilmirdi. Bir gecə yenə çox qəmgin idi. Yola çıxıb bir kənarda oturdu. Gecənin səssizliyi içində düşüncələrə dalıb, ətrafdakı kəndin işıqlarını seyr edirdi. Ay işığı ilə ətrafı işıqlandırmış, ulduzlar səmanı bəzəmişdi.

Bu anda biri onu səslədi.

– Ay oğul! Mənə kömək edərsənmi?

Əli diksinib səsin gəldiyi yerə döndü. Onu çağıranın olduqca yaşlı, saçı-saqqalı ağarmış bir qoca olduğunu gördü.

Qoca belindəki çuvalı yavaş-yavaş yerə qoyub, yorğun səsi ilə təkrar onu səslədi.

Ay oğul! Bu çuvalı təpənin üstündəki daxmaya çıxartmaq istəyirəm. Amma artıq gücüm çatmır, uzun yoldan gəlirəm. Gəl kömək et bunu çıxardaq.

Əli bir anlığa aylardır fikirləşdiyi yaxşılıq üçün bir fürsət olacağını düşündü. Amma qarşısındakının bir nəfər olduğunu görüb, düşüncəsindən əl çəkdi və qocaya; "gəlirəm" dedi. Ona yaxınlaşıb, çuvalı belinə götürdü və qoca ilə birlikdə təpəyə çıxmağa başladı.

Bir müddət danışmadan yola davam etdilər.

Birdən qoca sükutu pozaraq soruşdu:

– Orada oturub nə düşünürdün elə?

– Ah! Bir bilsən deyərək Əli hekayəsini qocaya danışdı.

Qoca gülümsəyərək dedi:

– Dəfinə sənin üçün çoxmu əhəmiyyətlidir?

Əlbətdə. Uşaqlığımdan bu hekayənin xəyalı ilə böyüdüm. Bütün həyatımı buna bağladım. Amma indi heç cürə qırxıncı yaxşılığın nədən ibarət olduğunu tapa bilmirəm.

Qoca:

– Bir az qəribə hekayədir. Babanın doğru söylədiyindən əminsənmi? Bəlkə bu sadəcə bir nağıl imiş.

Əli birdən qaşlarını çataraq dedi:

– Babam dedisə doğrudur! O, heç vaxt yalan danışmazdı. Mütləq dəfinə vardır və onu əldə etmənin yolu da budur.

Qoca yenə gülümsədi.

– Yaxşı, əgər sabah axşama qədər mənimlə qalsan sənə qırxıncı yaxşılığı edə bilmək üçün kömək edərəm.

Əli bu təklifi sevinclə qəbul etdi.

Qısa sürən bu yolçuluqdan sonra təpədəki daxmaya çatdılar.

Əli çuvalı daxmanın bir künarına qoyub, qoca ilə bərabər içəri daxil oldu.

Qoca ona bir az yemək verdi və yatmaq üçün yer hazırladı. Oturub yemək yedilər sonra qoca dedi:

– Səhər tezdən durmalıyıq, bir az yatsan yaxşı olar.

Əli qocanın dediyini yerinə yetirdi.

Dan yeri sökülərkən onlar artıq oyanmışdılar. Qoca həmin çuvalı yenə Əliyə verdi və aşağıdakı kəndə sarı yollandılar. Ev-ev gəzməyə başladılar. ətrafda heç kim yox idi. Hər evin qarşısına gələrkən qoca çuvaldan bir boxça çıxarıb, qapının önünə qoyurdu. Beləliklə düz qırx ev gəzdilər. Axırıncı boxçanı qapının önünə qoyarkən qoca Əliyə dedi:

– Budur istədiyin oldu.

Əli maraqla soruşdu:

– O boxçadakı nə idi?

Qoca cavab verdi:

– Kitablar. Hər evə o evdə yaşayan insanların ehtiyacına görə kitablar qoyduq. Məsələn qəlbi qatılaşmış bir adamın evinin önünə mərhəmətlə, xəsis bir qadının evinin önünə comərdliklə əlaqədar, əlil bir uşağın isə əslində çox şeylərə sahib olduğunu bildirən kitablar qoyduq. Beləliklə qırx nəfərə yaxşılıq etmiş olduq. Artıq dəfinəyə çata bilərsən. Al bu da dünən qaldığımız daxmanın açarıdır. Masanın altını qaz oradakı sandıq sənindir. Əli eşitdiklərinə inana bilmirdi. Sevinclə dedi:

– Nəhayət arzularıma çatdım.

Açarı alıb daxmaya tərəf qaçdı. Çatan kimi bir bel tapıb, deyilən yeri qazmağa başladı. Həqiqətən də qızıl ilə dolu olan sandıq orada idi. Sevinə-sevinə sandığı çıxarıb, qızılları bir kisəyə yığdı. Geri qayıdarkən qocanın onu aşağıda gözlədiyini gördü.

Ona yaxınlaşdıqda qoca dedi:

– Artıq qızıllarına qovuşdun. Onlarla nə edəcəksən?

– Nə edəcəm? Ürəyim nə istəsə onu alacağam. Evlər, gözəl libaslar, atlar və s... Bəy kimi yaşayacağam.

– Deməli belə xoşbəxt olacağını düşünürsən? Yaxşı elə isə etdiyim köməyin qarşılığında bir şey istəsəm edərsənmi?

– Əlbətdə.

– Onda bir ildən sonra burada görüşərik.

Əli qocanın bu istəyini qəbul etdi. Həqiqətən Əli qızıllarına qovuşduqdan sonra gözəl evlər, libaslar və s. aldı. Səyahətlərə çıxıb dünyanı gəzdi. Gözəl qiyafələr aldı. Amma bütün bunlar olarkən ilk günlərin həyəcanı keçdikcə Əli bir şeyin fərqinə varmağa başladı. İstədiyi hər şeyi alsa da, xoşbəxt olmurdu ki, olmurdu. Üzü heç gülmürdü. Əksinə ətrafındakı cəh-cəlal onu sıxırdı. Beləliklə bir il gəlib keçdi. Əli qəmli halda qoca ilə görüşəcəyi yerə gəldi. Qoca artıq orada onu gözləyirdi.

– Nə oldu oğlum xoşbəxt ola bildinmi? – deyə qoca soruşdu.

– Xeyir. İstədiyim hər şeyi aldım. Belə xoşbəxt olacağımı fikirləşdim, ancaq...

Qoca gülümsəyərək Əlinin çiyninə əlini qoyub: "Oğlum keçən ilə qədərki həyatını yadına sal! Həmişə yaxşılıq edərkən və bunu hər dəfə edəndə hər ağlayan üzün gülümsəməsinə, hər ehtiyac sahibinin ehtiyacının qarşılanmasına vəsilə olduğunda qəlbində yaranan o duyğu nə idi?"

Əli həyəcanla dedi:

– Bəli xatırlayıram. Mən dəfinəyə çatmaq üçün hər etdiyim yaxşılıqdan sonra xoşbəxt olduğumu hiss edərdim. Canlılara kömək etdikcə onların üzlərindəki təbəssüm məndə də əks edərdi və üzüm parıldayardı.

Qoca:

– Hə babanın tapmağını istədiyi dəfinə bu mənanı daşıyırdı. Ancaq insan yaxşılıq edərək xoşbəxt ola bilər, ətrafına faydan toxunduqca yaşayarsan. Daxmada tapdığın qızılların isə yerini sadəcə mən bilirdim. Baban ilə bir əlaqəsi yox idi. Mənə hekayəni danışdıqda xoşbəxtliyin sirrini anlamağın üçün belə etdim.

Əli bu sözləri çaşqınlıqla dinlədi.

Qoca:

– İndi nə düşünürsən?

Əli gülümsəyərək cavab verdi:

– Sizə çox təşəkkür edirəm. Mənə həqiqi xəzinənin yaxşılıq edərək xoşbəxt olmaq olduğunu öyrətdiniz. Bütün həyatım boyu bunu unutmayacağam və artıq bunun üçün çalışacağam.



Eşidə bilsəydik sirli səsini,
Görən nə deyərdin ?!



Yəqin ki,

QARABAĞ...

۱۰۰ ایل ۱(۳۳)، ۲۰۰۷

ادبی فنی سیاسی اجتماعی مصور هفته لك ترکجه مجموعه اسلامیه در

فیوضات

حیات معنای باطنی سیله دائمی
بر میل سعادت، بر میل فیوضات در!

سوزیمزه دقت بیورلسون:
"حیات فیوضاتدر" دیمیورز
"حیات میل فیوضاتدر" دیورز

ع. حسین زاده